# Xalq qəzeti

Xalqın qəzeti!

№ 245 (30939) 19 noyabr 2025-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi


# Azərbaycan Ordusunun qlobal reytinq yürüşü



Səhifə ⇨ 4

## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

**Azərbaycan Ordusu dünyanın ən güclü ordularının sırasındadır – həm təchizat, həm döyüş qabiliyyəti nöqteyi-nəzərdən. Bizim ordumuz döyüşüb, bizim ordumuz öz gücünü paradda yox, döyüş meydanında göstərib.**

**Müharibədən sonra ordu quruculuğu üçün əlavə addımlar atılır və buna böyük ehtiyac var. Ordumuzun daha da gücləndirilməsi bir nömrəli vəzifə olaraq qalır. Biz müdafiə imkanlarımızı müasirləşdiririk və bu gün yüksək səviyyəli peşəkarlıq nümayiş etdiririk.**

## Latviya Respublikasının Prezidenti Zati-aliləri cənab Edqars Rinkeviçsə

**Hörmətli cənab Prezident!**

Latviya Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

Azərbaycan-Latviya münasibətlərinin xoş ənənələri vardır. Xalqlarımızın tarixi əlaqələri, dövlətlərarası münasibətlərimizin hazırkı yüksək səviyyəsi müxtəlif sahələrdə səmərəli əməkdaşlığımızın genişlənməsi üçün yaxşı imkanlar yaradır.

Əminəm ki, xalqlarımızın mənafelərinə uyğun olaraq ölkələrimiz arasında ənənəvi dostluq münasibətlərini möhkəmləndirmək, əməkdaşlığımızın potensialından tam bəhrələnmək üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, Latviya xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 14 noyabr 2025-ci il**

## Omanın Sultanı Əlahəzrət Heytəm bin Tariq Al Səidə

**Əlahəzrət!**

Oman Sultanlığının milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Oman xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 14 noyabr 2025-ci il**

## Azərbaycan–ABŞ tərəfdaşlığının intellektual cəbhəsi



Səhifə ⇨ 3

## Bakıda qlobal rəqəmsal gələcək müzakirəsi




Səhifə ⇨ 12

## “Müqəddəs elita” sindromu Parisi ələ keçirir



Səhifə ⇨ 7

## BMT Trampın Qəzza planını dəstəklədi



Səhifə ⇨ 15

## Gürcüstan – Aİ münasibətlərində gərginliyin son həddi



Səhifə ⇨ 8

## Sağlam qida sağlam cəmiyyət deməkdir



Səhifə ⇨ 12

# Xəzərdən Atlantikaya yeni güc axını

*C6+1 formatı Mərkəzi Asiyanı Azərbaycan vasitəsilə Qərbə bağlayır*



**Donald Tramp administrasiyasının xarici siyasət konturlarının yenidən cızıldığı, Vaşinqtonun qlobal prioritetlərini soyuqqanlı praqmatizmlə yenidən müəyyənləşdirdiyi dövrdə Avrasiyanın geostrateji xəritəsində mühüm dəyişikliklərin anonsu verilməkdədir. Nüfuzlu Atlantik Konsul Beyin Mərkəzinin Avrasiya şöbəsinin Baş direktoru Con E.Herbstin səsləndirdiyi fikirlər, sadəcə, ekspert rəyi olmayıb, Ağ Evin yeni Avrasiya doktrinasının manifesti sayılmalıdır. Con E.Herbstin Ağ Ev sahibini əsassız olmayan iddia ilə “sülh təsisçisi” kimi təqdim etməsi və onun təşəbbüsləri çərçivəsində doqquz münaqişənin, o cümlədən Azərbaycan–Ermənistan münaqişəsinin həlli istiqamətində iş aparıldığını vurğulaması Trampın xarici siyasətinin nəticəyönümlü və sövdələşməyə əsaslanan mahiyyətini ortaya qoyur.**

*(ardı 7-ci səhifədə)*

# Zəngilanda Əlaqələndirmə Qərargahının 5 illik fəaliyyətinə həsr olunmuş iclas



**Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin sədrliyi ilə Zəngilan şəhərində Qərargahın 5 illik fəaliyyətinə həsr olunmuş iclası keçirilib.**



İclasda çıxış edən Samir Nuriyev dövlətimizin başçısının birbaşa rəhbərliyi ilə işğaldan azad edilmiş ərazilərə "Böyük Qayıdış" Proqramının gerçəkləşdirildiyini bildirib. Onun sözlərinə görə, Qarabağın və Şərqi Zəngəzurun bərpası, yenidən qurulması istiqamətində həyata keçirilən genişmiqyaslı işlər postmünaqişə dövründə tətbiq edilən ən sistemli və sürətli yenidənqurma modellərindən biri kimi beynəlxalq təcrübə üçün mühüm nümunədir.









Qərargah rəhbəri deyib ki, həyata keçirilən genişmiqyaslı layihələr regionun bütün inkişaf mənzərəsini köklü şəkildə dəyişib. Beş il ərzində dövlətimizin başçısı işğaldan azad olunmuş ərazilər üzrə 569 tədbirdə iştirak edib, müxtəlif təyinatlı 177 layihənin təməlini qoyub, 167 obyektin və infrastruktur layihəsinin açılışını edib.

Böyük Qayıdışın inteqrasiyalı yanaşma ilə təmin olunmasının real nəticələr verdiyi və artıq "İşğaldan azad edilmiş ərazilərin Ümumi Planı"nın, 8 şəhərin Baş planının, 3 şəhərin isə Müfəssəl planının təsdiqləndiyi, Xankəndi, Xocalı, Ağdərə və Xocavənd şəhərlərinin Baş planlarının işlənilmə mərhələsində olduğu diqqətə çatdırılıb. Qeyd edilib ki, Qarabağda və Şərqi Zəngəzurda aidiyyəti dövlət qurumları və yerli şirkətlər tərəfindən aparılan minatəmizləmə fəaliyyəti nəticəsində 240 min hektardan çox ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib, 3 beynəlxalq hava limanı istifadəyə verilib, tikintisi nəzərdə tutulmuş ümumi uzunluğu 3501,6 kilometr olan avtomobil yolları üzrə 60 layihədən 16-sı tam, 1-i isə qismən icra edilib. Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksinin açılışı baş tutub. Avtomobil yolları üzərində 28 tuneldə qazma işləri, 392 körpü və 9 viadukun tikintisi artıq başa çatıb. Dəmir yollarının tikintisi ilə bağlı 49 körpünün tikintisi planlaşdırılıb, onlardan 42 körpünün inşası başa çatıb, 3 körpü istismara verilib. Qarabağda və Şərqi Zəngəzurda 38 su elektrik stansiyası, 4 su anbarı, 14 elektrik yarımstansiyası istismara buraxılıb, 6 magistral qaz xətti, 1000 kilometrdən artıq yüksəkgərginlikli elektrik verilişi xətləri çəkilib, 8 şəhərə, 20 kəndə və 1 qəsəbəyə qazın verilməsi təmin olunub. Bölgədə 1 xəstəxana, 19 ümumi, 7 məktəbəqədər təhsil müəssisəsi istifadəyə verilib. Bundan əlavə, Xankəndi şəhərində Qarabağ Universiteti fəaliyyətə başlayıb.





İşğaldan azad olunmuş ərazilərin iqtisadi dirçəlişində əsas rol oynayan Ağdam və Cəbrayıl rayonundakı "Araz Vadisi İqtisadi Zonası" sənaye parkları salınıb. Hər iki parkda 50 müəssisə rezident, 7 müəssisə isə qeyri-rezident kimi qeydiyyata alınıb. Ümumi dəyəri 454 milyon manat olan layihələrin icrası çərçivəsində 185 milyon manat həcmində investisiya yatırılıb və 1057 yeni iş yeri yaradılıb. Parklarda fəaliyyətə başlamış rezidentlər tərəfindən 949,4 milyon manat məbləğində məhsul istehsal olunub. Ağdam Sənaye Parkı rezidentləri tərəfindən istehsal olunmuş məhsulların 39,5 milyon manatlıq hissəsi ixrac edilib.

Bütün bunlar bərpa və inkişaf proseslərinin praktiki nəticələrini göstərməklə yanaşı, dövlətimizin başçısının ərazilərin bərpasına yönələn siyasətinin ardıcıllığını və bu istiqamətə olan yüksək diqqətini əks etdirir. Görülən işlərin nəticəsində hazırda dövlət və özəl sektorlarda işləyənlər, həmçinin təhsil alanlar da daxil olmaqla, işğaldan azad edilmiş ərazilərdə 62 mindən çox insan yaşayır və fəaliyyət göstərir.

Qərargah rəhbəri bölgənin münbit torpaq və əlverişli iqlim şəraiti ilə seçildiyini, bunun da ənənəvi kənd təsərrüfatı sahələrinin inkişafı üçün geniş imkanlar yaratdığını və bu istiqamətdə müvafiq işlərin aparıldığını bildirib.

Daha sonra iclasın gündəliyinə uyğun olaraq, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası çərçivəsində işğaldan azad edilmiş ərazilərdə yaşayış məntəqələri üzrə həyata keçirilən işlər barədə məlumatlar təqdim edilib. Bundan əlavə, ərazilərdə tikinti layihələrinin hazırlanmasına, tikinti-quraşdırma işlərinin aparılmasına dövlət nəzarətinin həyata keçirilməsi, fövqəladə hallara qarşı dayanıqlılığın, əhalinin dayanıqlı məskunlaşmasının təmin edilməsi, kənd təsərrüfatı təyinatlı torpaqlardan səmərəli istifadənin və rəqabətqabiliyyətli aqrar istehsalın təşkili, mədəni, tarixi və dini abidələrin bərpası və qorunması istiqamətlərində görülən işlər barədə məruzələr dinlənilib.

İclasın sonunda Azərbaycan Respublikasının Prezidenti tərəfindən qarşıya qoyulan vəzifələrin icrasından irəli gələrək zəruri tədbirlərin görülməsi iclas iştirakçılarının diqqətinə çatdırılıb və müvafiq tapşırıqlar verilib. Bildirilib ki, Böyük Qayıdışın uğurla davam etdirilməsi üçün koordinasiya, innovasiya və şəffaflıq prinsipləri daim ön planda saxlanılmalıdır.

Səfər çərçivəsində Zəngilan şəhəri ərazisində bir sıra obyektlərə, o cümlədən Zəngilan şəhər məscidinə, Zəngilan şəhər yaşayış kompleksinə və məktəb binasına baxış keçirilib. Bundan əlavə, Əlaqələndirmə Qərargahının üzvləri Zəngilan Hotel Kompleksində görülən işlərlə tanış olublar.

Daha sonra "Dost Agro Park"a aid əkin sahələrindəki dairəvi (pivot) suvarma sistemlərinə, həmin parkın heyvandarlıq kompleksinə, Ağalı kəndinin sakinləri üçün parselləşmə aparılmış kənd təsərrüfatı təyinatlı torpaq sahələrinə və "Şirin Aqro" QSC bağçılıq ərazisinə baxış keçirilib.

Qərargahın üzvləri, həmçinin Zəngəzur dəhlizində avtomobil yolunun və dəmir yolu xəttinin, eyni zamanda, Araz çayı üzərində tikilən Ağbənd-Kəlalə körpüsünün inşası prosesi ilə tanış olublar. Onlara Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun İran İslam Respublikası ilə bağlantısı, Araz çayı üzərində inşa edilən körpüdə və Zəngəzur dəhlizinin tərkib hissəsi olan Horadiz-Ağbənd avtomobil və dəmir yollarının inşası, eləcə də müvafiq buraxılış məntəqəsinin tikintisi ilə bağlı planlaşdırılan işlər, o cümlədən gömrük nəzarətinin təşkilinə və infrastrukturun yaradılmasına dair mövcud vəziyyət barədə məlumatlar təqdim olunub.

***XQ***

# Əli Əsədov Beynəlxalq Su İdman Növləri Federasiyasının prezidentini qəbul edib



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov noyabrın 18-də Beynəlxalq Su İdman Növləri Federasiyasının prezidenti Hüseyn Əl-Müsəlləmlə görüşüb.**

Nazirlər Kabinetindən verilən məlumata görə, görüşdə Azərbaycanda bədən tərbiyəsinin və idmanın inkişafının dövlət siyasətinin prioritet istiqamətlərindən biri olduğu vurğulanıb, idmançıların dövlət tərəfindən yüksək diqqət və qayğı ilə əhatə olunduğu bildirilib.

Qeyd edilib ki, ölkəmizdə ən müasir standartlara cavab verən idman infrastrukturu qurulub, o cümlədən ayrı-ayrı regionlarımızda çoxsaylı olimpiya idman kompleksləri tikilib. Azərbaycan bir çox mötəbər beynəlxalq idman tədbirlərinə, dünya çempionatlarına uğurla ev sahibliyi edib.

Söhbət zamanı ölkəmizdə su idman növlərinin inkişafı və kütləviləşməsi məqsədilə həyata keçirilən tədbirlər barədə söhbət açılıb, Beynəlxalq Su İdman Növləri Federasiyası ilə əməkdaşlıq məsələləri müzakirə olunub.

***XQ***

# Azərbaycan və Ermənistan parlament heyətlərinin İstanbul görüşü



**Noyabrın 18-də ATƏT-in Parlament Assambleyasının İstanbulda keçirilən 23-cü payız sessiyası çərçivəsində Azərbaycan və Ermənistan parlament nümayəndə heyətləri arasında ikitərəfli görüş keçirilib.**

Görüş Azərbaycan və Ermənistan parlament sədrləri arasında 2025-ci il oktyabrın 21-də Cenevrədə aparılmış müzakirələr çərçivəsində əldə olunmuş razılaşma əsasında baş tutub.

Görüşdə Vaşinqton sammitinin müsbət rolu qeyd olunub, əldə edilmiş razılaşmalar və Azərbaycanla Ermənistan arasında sülhün möhkəmləndirilməsi istiqamətində atılan növbəti addımlar, habelə hər iki ölkənin parlamentlərinin bu prosesə dəstəyinin əhəmiyyəti barədə fikir mübadiləsi aparılıb.

Söhbət zamanı iki ölkə arasında həyata keçirilən etimadın artırılması tədbirlərində parlamentlərin roluna toxunulub, həmçinin parlament üzvləri arasında beynəlxalq təşkilatlar çərçivəsində konstruktiv dialoqun vacibliyi vurğulanıb.

***XQ***

# Azərbaycan–Koreya maliyyə əməkdaşlığı



**Noyabrın 18-də maliyyə naziri Sahil Babayev Koreya Fiskal İnformasiya Xidmətinin prezidenti Seok Ho Yoonun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Görüşdə Azərbaycan ilə Koreya arasında maliyyə idarəetməsi sahəsində əməkdaşlığın genişləndirilməsi imkanları, o cümlədən ölkəmizdə yeni İnteqrasiya olunmuş Maliyyə İdarəetmə İnformasiya Sisteminin (IFMIS) inkişafı, Koreyanın dövlət maliyyə sistemi olan "dBrain+" və hökumət subsidiyalarının idarəetmə sistemi olan "e-Naradoum" üzrə təcrübələrin öyrənilməsi barədə müzakirələr aparılıb. Bu kontekstdə Koreya nümayəndə heyətinin iştirakı ilə Maliyyə Nazirliyində IFMIS üzrə keçirilmiş birgə seminarın əhəmiyyəti qeyd olunub.

Görüşdə iki ölkə arasında maliyyə idarəetməsi sahəsində təcrübə mübadiləsinin genişləndirilməsi, xüsusilə "dBrain+" təcrübəsi əsasında proses və iş axınlarının təkmilləşdirilməsi, xarici vendor asılılığının azaldılması istiqamətində bilik və texnoloji transferin gücləndirilməsi, dataəsaslı qərarvermə mexanizmlərinin tətbiqi, audit və nəzarət infrastrukturunun, eləcə də kibertəhlükəsizlik çərçivəsinin inkişaf etdirilməsi kimi gələcək əməkdaşlıq istiqamətləri müzakirə olunub.

Sonda Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Rəqəmsal Maliyyə Mərkəzi ilə Koreya Respublikasının Fiskal İnformasiya Xidməti arasında Rəqəmsal Dövlət Maliyyə İnformasiya Sisteminin hazırlanması, tətbiqi və istismarı sahələrində əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb.

***XQ***

# Azərbaycan–Pakistan İKT işçi qrupu yaradılacaq



**Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev Azərbaycanda səfərdə olan Pakistan İslam Respublikasının informasiya texnologiyaları və telekommunikasiya üzrə federal naziri Şaza Fatima Xavaja ilə görüş keçirib.**

Görüşdə Azərbaycanda innovasiya və rəqəmsal inkişaf sahəsində həyata keçirilən yeniliklər haqqında müzakirələr aparılıb. İKT sahəsində normativ-hüquqi bazanın genişləndirilməsi və müvafiq sahədə birgə layihələrin icrası məqsədilə işçi qrupun yaradılmasına dair razılıq əldə olunub.

***XQ***

# Azərbaycan–ABŞ tərəfdaşlığının intellektual cəbhəsi





**Noyabrın 18-də Bakıda keçirilmiş Azərbaycan–ABŞ Beyin Mərkəzlərinin I Forumu iki ölkə arasında intellektual diplomatiyanın, strateji düşüncə mübadiləsinin və yeni geosiyasi koordinatların formalaşmasının mühüm platformasına çevrildi. Forum regional və qlobal güc balansının yenidən qurulduğu bir dövrdə Vaşinqton–Bakı xəttində strateji tərəfdaşlığın konturlarını müəyyən etmək baxımından xüsusi əhəmiyyət daşıyır.**

Forumun birinci sessiyası 8 avqust 2025-ci il Vaşinqton Bəyannaməsinin regional güc balansı üçün yaratdığı yeni strateji çərçivəni təhlil etməyə həsr olundu. Bəyannamə ABŞ–Azərbaycan münasibətlərini klassik enerji əməkdaşlığından kənara çıxarıb daha geniş geosiyasi məna daşıyan strateji tərəfdaşlıq mərhələsinə yüksəltdi. Forumda aparılan müzakirələr bir daha göstərdi ki, Vaşinqton sammitinin nəticələri regionda baş verən prosesləri tənzimləyən yeni siyasi, iqtisadi və təhlükəsizlik modelinin əsasını qoyur.

Sessiyanın mərkəzi sualı belə formalaşırdı: “Vaşinqton Sammitinin əsas siyasi, iqtisadi və təhlükəsizlik nəticələri hansılardır və bunlar ABŞ–Azərbaycan münasibətlərinin parametrlərini necə dəyişir?” Sual ətrafında aparılan təhlillər göstərdi ki, sammit Azərbaycanın regiondakı rolunun Vaşinqton tərəfindən strateji səviyyədə tanınması ilə nəticələndi. ABŞ ilk dəfə olaraq Cənubi Qafqazda dayanıqlı nizamın qurulmasında Azərbaycanın aparıcı mövqeyini açıq şəkildə qəbul etdi. Bütün bu amillər Bakının postmünaqişə dövründə regional lider kimi təsdiqlənməsinə, nəqliyyat-kommunikasiya dəhlizlərinin mərkəzi qovşağına çevrilməsinə və enerji təhlükəsizliyində etibarlı tərəfdaş kimi tanınmasına institusional xarakter verdi.

Siyasi nəticələr göstərir ki, Vaşinqtonla Bakı arasında tərəfdaşlıq strateji təməllərə söykənir. ABŞ-ın Azərbaycanla əməkdaşlığı regiondakı böyük güclər arasındakı rəqabət fonunda yeni bir balans yaradır və Cənubi Qafqazın gələcək təhlükəsizlik arxitekturasında Azərbaycanın mövqeyini gücləndirir. Məhz baxımdan forumda ikinci mühüm sual irəli sürülürdü: “ABŞ–Azərbaycan tərəfdaşlığı regionda sülh quruculuğuna və sabitliyə nə dərəcədə təsir göstərə bilər?”

Analitik qiymətləndirmələr göstərdi ki, Vaşinqtonun Bakıya verdiyi siyasi dəstək postmünaqişə dövrünün ən kritik məsələsi olan Ermənistan–Azərbaycan münasibətlərinin normallaşması prosesini daha institusional, qaydalara əsaslanan çərçivəyə salır. ABŞ-ın vasitəçilik fəallığının artması regionda Rusiya təsirinin azalması ilə paralel gedir və bu, yeni diplomatik dinamika yaradır. Mədəni-humanitar etimadın gücləndirilməsi, sərhədlərin açılması, iqtisadi kommunikasiyanın bərpası kimi məsələlər daha çox Qərb təhlükəsizlik parametrlərinə əsaslanan modelə uyğunlaşır.

Sessiyada vurğulanan digər mühüm məsələ iqtisadi müstəvidə yaranan yeni əməkdaşlıq konturları idi. ABŞ kapitalı Azərbaycana bərpaolunan enerji, rəqəmsal təhlükəsizlik, nəqliyyat şəbəkələri və strateji texnologiyalar kimi sahələrdə də daxil olur. Belə investisiyalar geoiqtisadi xarakter daşıyan siyasi kapital qoyuluşudur və Azərbaycan iqtisadiyyatında dərin modernizasiya prosesini təşviq edir.

Təhlükəsizlik sahəsində isə Vaşinqton Sammitinin nəticələri daha dərindir. Hərbi-texniki dialoqun genişləndirilməsi və terrorizmə qarşı koordinasiya Cənubi Qafqazda yeni təhlükəsizlik ekosistemi formalaşdırır. ABŞ-ın postmünaqişə reabilitasiyası sahəsində institusional dəstəyi isə Azərbaycanın öz suveren ərazilərində tammiqyaslı bərpa proqramını sürətləndirir və təhlükəsizlik risklərini azaldır.

Forum çərçivəsində səslənən üçüncü əsas sual belə idi: “Yeni strateji format regional dayanıqlılıq, davamlı inkişaf və təhlükəsizlik üçün hansı imkanlar və çağırışlar yaradır?” Analitik yanaşmalar göstərir ki, imkanlar çoxşaxəlidir: Azərbaycan üçün geosiyasi manevr sahəsi genişlənir, ABŞ regionun sabitlik mexanizmlərinin əsas təminatçılarından birinə çevrilir və böyük güclər arasındakı rəqabətdə Cənubi Qafqaz daha balanslı mövqeyə sahiblənir. Lakin bu yeni format eyni zamanda müəyyən çağırışlar da yaradır: bölgədə təsir imkanlarını itirən aktorlar bu dəyişikliklərə qarşı reaksiya göstərə bilər, kommunikasiya marşrutlarının təhlükəsizliyi yeni risklərə məruz qala bilər və sülhün institusionallaşdırılması uzunmüddətli siyasi iradə tələb edir.

Birinci sessiyada aparılan müzakirələr yekun olaraq göstərdi ki, Vaşinqton Bəyannaməsi ABŞ–Azərbaycan münasibətlərini köklü şəkildə yeniləyir. Əməkdaşlığın parametrləri artıq üç strateji sütun üzərində qurulur: təhlükəsizlik inteqrasiyası, iqtisadi modernizasiya və regional nizamın formalaşdırılmasında ortaq siyasi iştirak. Bütün bu amillər tərəfdaşlığı struktur səviyyədə dayanıqlı edir və ABŞ–Azərbaycan münasibətlərini gələcək onillik üçün regional sabitliyin əsas elementlərindən birinə çevirir.

*

Forumun ikinci sessiyası Cənubi Qafqazda son dövrdə baş verən geosiyasi dəyişikliklərin regiondakı qüvvələr balansına və Ermənistan–Azərbaycan sülh prosesinə təsirini təhlil etməyə həsr olunmuşdu. Sessiyada əsas diqqət Vaşinqton Sammitindən sonra formalaşan regional nizamın praktik aspektlərinə, sülhün davamlılığını təmin edən institusional mexanizmlərə və postmünaqişə dövründə yaranan risklərə yönəldi. Paneldə aparılan müzakirələr göstərdi ki, Vaşinqton Bəyannaməsi Cənubi Qafqazın geosiyasi çevikliyinin artırılması və uzunmüddətli sülhün dayanıqlılığının təmin olunması üçün də strateji çərçivə rolunu oynayır.

Sessiyada müzakirə olunan ilk sual belə formalaşırdı: “Vaşinqton Sammitindən sonra regional və qlobal güclər arasındakı geosiyasi dəyişikliklər Cənubi Qafqazdakı sabitliyə və güc balansına necə təsir göstərəcək?” Analitik təhlil göstərdi ki, ABŞ–Azərbaycan strateji tərəfdaşlığının rəsmiləşməsi Rusiya, Türkiyə və İran



daxil olmaqla bütün regional aktorlar üçün yeni parametrlər müəyyən edir. Dəyişikliklər böyük güclər arasında balansı incə şəkildə yenidən tənzimləyir: ABŞ-ın iştirakı regionun təhlükəsizlik mexanizmini möhkəmləndirir, Rusiya və İranın təsir dairəsi ilə uyğunlaşan taktiki addımlar atılır, Türkiyə ilə Azərbaycanın koordinasiyası isə regional sabitliyi gücləndirir. Deməli, Cənubi Qafqazda güc balansı daha çox çoxtərəfli əməkdaşlıq və Qərb standartlarına yaxınlaşma üzərində formalaşır, bu isə sülh prosesinə daha əlverişli şərait yaradır.

Sessiyada ikinci sualın müzakirəsi diqqəti Ermənistan–Azərbaycan sülh prosesinə yönəltdi: “Ermənistan–Azərbaycan sülh prosesi üçün yeni imkanlar və risklər hansılardır?” Analitik qiymətləndirməyə görə, Vaşinqton Bəyannaməsi sülh prosesinə həm institusional dəstək verir, həm də diplomatik manevr imkanlarını genişləndirir. Yeni imkanlar arasında hərtərəfli sülh sazişinin imzalanma perspektivi, sərhədlərin delimitasiyası, humanitar əməkdaşlıq və iqtisadi reinteqrasiya proqramlarının təşviqi var. Eyni zamanda, risklər də mövcuddur: regional aktorların maraqlarının toqquşması, böyük güclərin rəqabəti və prosesin gedişində hər hansı tərəfin ciddi kompromis etməməsi sülhün davamlılığına mənfi təsir göstərə bilər. Forum iştirakçıları vurğuladılar ki, sülhün dayanıqlı olması üçün Vaşinqtonun vasitəçiliyi regionun bütün əsas aktorlarını əhatə etməlidir.

Sessiyada üçüncü sual sərhəd təhlükəsizliyi, humanitar əməkdaşlıq və nəqliyyat əlaqələri ilə bağlı idi: “Sərhəd təhlükəsizliyi, humanitar əməkdaşlıq və nəqliyyat əlaqələri sülhün davamlılığına necə töhfə verə bilər?” Forum iştirakçılarının analitik baxışı göstərdi ki, sərhəd təhlükəsizliyinin gücləndirilməsi etimad və qarşılıqlı təhlükəsizlik mexanizmlərinin qurulması deməkdir. Humanitar əməkdaşlıq və sərhəd bölgələrində infrastrukturun bərpası insanların gündəlik həyatına təsir göstərir və sosial etimadın möhkəmlənməsinə xidmət edir. Nəqliyyat və kommunikasiya əlaqələrinin açılması isə iqtisadi inteqrasiyanı təşviq edir, regional bağları gücləndirir və tərəflər arasında davamlı əməkdaşlıq üçün konkret mexanizmlər yaradır. Forumda qeyd edildi ki, bu yanaşma sülhü praktik həyat səviyyəsində möhkəmləndirir və uzunmüddətli barış üçün strateji zəmin yaradır.

Sessiyanın yekununda bir da aydın oldu ki, Vaşinqton Bəyannaməsi və ABŞ–Azərbaycan strateji tərəfdaşlığı Ermənistan–Azərbaycan sülh prosesinə siyasi dəstək verməklə yanaşı, regionda dayanıqlı nizamın qurulması üçün institusional çərçivə yaradır. Sülhün real nəticəyə çevrilməsi üçün diplomatik mexanizmlər, sərhəd təhlükəsizliyi, humanitar əməkdaşlıq və infrastrukturun inkişafı bir-biri ilə inteqrasiya edilməli, regional aktorların maraqları incə tarazlıqla qorunmalıdır.

Azərbaycan–ABŞ strateji tərəfdaşlığı Cənubi Qafqazda uzunmüddətli sülhün, təhlükəsizlik balansının və iqtisadi inteqrasiyanın əsasını qoyan praktik institutlara çevrilə biləcək strateji mexanizmdir. Sessiyalarda iştirak edən müxtəlif beyin mərkəzlərindən beynəlxalq və yerli analitiklər, o cümlədən siyasi müşahidəçilər ABŞ-ın tərəfdaşlıq rolunun postmünaqişə dövründə sülh prosesinin institutlaşdırılmasında nə qədər həlledici olduğunu bir daha təsdiqlədi. Son olaraq qeyd edək ki, artıq Vaşinqton Bəyannaməsi çərçivəsində formalaşan yeni əməkdaşlıq mexanizmləri sərhəd təhlükəsizliyi, humanitar proqramlar, nəqliyyat-kommunikasiya dəhlizlərinin bərpası və regional etimadın gücləndirilməsi sahələrində konkret nəticələr doğurur.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Bakı Cənubi Qafqazda sabitliyin memarıdır

**Son illərdə nümayiş etdirilən siyasi dinamizm və strateji çeviklik ölkənin transatlantik müstəvidə mövqeyini nəzərəçarpacaq dərəcədə gücləndirib. Regional güc balansının dəyişdiyi, Cənubi Qafqazda müharibədən sonrakı gündəliyin yenidən qurulduğu bir vaxtda Bakı həm enerji təhlükəsizliyi xəttinin dayağı, həm də qlobal təsir gücləri arasında vacib əlaqə məntəqəsi statusunu möhkəmləndirib. ABŞ-la münasibətlərdə dialoqun intensivləşməsi, təhlükəsizlik məsələlərində daha praqmatik yanaşmanın formalaşması və Vaşinqtonun Azərbaycanı Cənubi Qafqazın sabitlik memarı kimi qiymətləndirməsi ikitərəfli münasibətlərdə real dəyişikliklərin xəbərçisinə çevrilib. Azərbaycanın enerji layihələri, antiterror siyasəti, regional inteqrasiyada lider rolu Vaşinqton tərəfindən də diqqətlə izlənilir və bu, siyasi əlaqələrdə yeni rasionallığın yaranmasına yol açır.**



Hazırkı fonda Azərbaycanın geniş tərkibli nümayəndə heyətinin ABŞ səfəri xüsusi siyasi yük daşıyır. Heyətin tərkibinə Milli Məclisin deputatları Səməd Seyidov, Anatoli Rafailov, Nigar Arpadarai, Tural Gəncəliyev, Xarici İşlər Nazirliyinin Beynəlxalq İnsan Hüquqları Təsisatları ilə Əməkdaşlıq İdarəsinin rəisi vəzifəsini icra edən Jalə İbrahimova, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin şöbə müdiri Vasif Hüseynov və Sefarad yəhudilərinin Bakı dini icmasının sədri ravvin Zamir İsayev daxildir. Səfərin siyasi çərçivəsi genişdir. Məqsəd Konqres üzvləri, administrasiya rəsmiləri, aparıcı beyin mərkəzləri və ABŞ-ın nüfuzlu yəhudi təşkilatları ilə Cənubi Qafqazdakı yeni mərhələ barədə açıq və faktlara söykənən dialoq qurmaqdır. Regionda gedən proseslər, sülh gündəliyində Azərbaycanın mövqeyi, regional təhlükəsizliyin konturlarında formalaşan yeni reallıqlar səfərin əsas istiqamətlərini müəyyənləşdirir.

Noyabrın 17-də başlanmış proqram çərçivəsində ilk görüş Nümayəndələr Palatasının Xarici İşlər Komitəsinin üzvü Cim Birdin ofisinin rəhbəri Sara Rosniklə keçirilib. Ardınca nümayəndə heyəti ABŞ-ın bir sıra aparıcı yəhudi təşkilatlarının, beyin mərkəzlərinin və Konqres üzvlərinin köməkçilərinin iştirakı ilə təşkil edilmiş dəyirmi masada çıxış edib. Görüşlərdə Azərbaycan tərəfi həm regiondakı hərbi-siyasi nizamı izah edib, həm də Vaşinqtonla münasibətlərdə yaranmış yeni müsbət dinamikanın səbəblərini detallı şəkildə təqdim edib. ABŞ siyasi çevrələri üçün xüsusilə 8 avqust Vaşinqton Sammitindən sonra müşahidə olunan canlanmanın konturları və tərəflər arasında əməkdaşlığın real istiqamətləri diqqət mərkəzində olub. Nümayəndə heyətinin növbəti günlərdə Dövlət Departamenti, Konqresin hər iki palatasının üzvləri, düşüncə mərkəzləri və Azərbaycan–ABŞ Ticarət Palatasında keçirəcəyi görüşlərin əsas məqsədi Vaşinqtonun regionla bağlı siyasətində rasionallığın gücləndirilməsi, ikitərəfli münasibətlərdə davamlı siyasi platformanın qurulması, eləcə də sülh gündəliyinin ABŞ siyasi institutlarında daha aydın anlaşılmasını təmin etməkdir. Səfərin noyabrın 21-dək davam etməsi həm intensiv diplomatik dialoqun göstəricisidir, həm də tərəflər arasında yeni siyasi fazanın formalaşdığına dair əlavə siqnaldır.

Vaşinqton–Bakı münasibətlərinin hazırkı mərhələsi son illərin çətinlikləri fonunda mühüm dönüş nöqtəsidir. Tərəflər uzun müddət bir sıra səhvlərin, yanlış informasiya kanallarının və lobbi qruplarının təzyiqinin nəticəsi olan anlaşılmazlıqlarla üzləşsələr də, regional dəyişikliklər geosiyasi məntiqi yenidən işə salıb. Xüsusilə Donald Trampın Ağ Evin rəhbəri olmasından sonra və 8 avqust görüşü tərəflər arasında strateji dialoqun bərpası yönündə mühüm siqnal sayılır. Bu görüş Bakının Vaşinqtona verdiyi açıq mesajların – sülh prosesinin irəliləməsi, kommunikasiyaların açılması, Cənubi Qafqazın militarizasiyasına qarşı Azərbaycan mövqeyinin – ABŞ tərəfindən daha obyektiv qiymətləndirilməsinə geniş imkan yaratdı.

İkitərəfli münasibətlərin müzakirəsində 907-ci düzəliş ayrıca yer tutur. Bu düzəliş ABŞ-ın Azərbaycana birbaşa yardımını məhdudlaşdırmaqla praktiki siyasətdə balanssızlıq yaratmış və Konqres səviyyəsində illərdir manipulyasiya alətinə çevrilmişdi. Məhz avqustun 8-də baş tutan görüşdən sonra ABŞ prezidenti Donald Tramp bu düzəlişin 1 il müddətinə dayandırılması barədə fərman imzaladı. Düzəlişin ləğvi regional sabitliyin yeni konsepsiyasına keçidin simvolu sayılır. Lakin düzəlişin tam qüvvədən salınması Konqresdən və onun iki palatasından asılıdır.

Təəssüf ki, hələ bu barədə yekun qərar verilməyib. Son dövrlərdə Bakı-Vaşqinton münasibətləridə müşahidə olunan aktiv dinamika ABŞ-da erməni lobbisini ciddi narahat edir. Axı 907-ci düzəlişin tam ləğvi ABŞ-Azərbaycan münasibətləri arasında sonuncu ciddi problemin həlli deməkdir. Bu isə, təbii ki, erməni icmasının “sonuncu qalası”dır. Lakin Donald Trampın qərarından sonra Konqresə yekun ləğv barədə çağırışlar artıb. Son olaraq ötən həftə ABŞ Müharibə Nazirliyinin (Pentaqon) “Stars and Stripes” nəşri Konqresi Azərbaycan əleyhinə olan 907-ci düzəlişi ləğv etməyə və TRIPP (Zəngəzur dəhlizi) layihəsinin uğurunu möhkəmləndirməyə çağırıb. Elə Azərbaycan nümayəndə heyəti Konqres ofislərində apardığı görüşlərdə bu məsələnin siyasi, təhlükəsizlik və strateji nəticələrini detallı şəkildə izah edib.

Bu mövzunun Vaşinqtonda doğurduğu rezonans nümayiş etdirir ki, ABŞ siyasi dairələri artıq regiondakı reallıqları daha obyektiv qiymətləndirməyə meyillidir. Düzəlişin aradan qaldırılması yalnız hüquqi addım deyil, həm də Azərbaycan–ABŞ münasibətlərində qarşılıqlı etimadın institusional bərpası üçün yeni bir mərhələnin başlanğıcıdır. Lakin 907-ci düzəlişin tam ləğvi əlaqələrin inkişafını mühüm dərəcədə sürətləndirəcək.

Azərbaycan–ABŞ münasibətlərinin hazırkı mərhələsi təkcə dövlətlərarası dialoqun intensivləşməsi ilə məhdudlaşmır. Proses artıq xalq diplomatiyası müstəvisinə keçid üçün də əlverişli şərait yaradıb. Vaşinqtonda aparılan müzakirələr, beyin mərkəzləri və ictimai institutlarla qurulan əlaqələr, eləcə də ABŞ yəhudi icmaları ilə məzmunlu təmaslar göstərir ki, iki ölkə arasında informasiya boşluqlarını aradan qaldırmaq, qarşılıqlı stereotiplərin təsirini zəiflətmək və cəmiyyətlərin bir-birini daha rasional şəkildə tanımasını təmin etmək üçün ciddi potensial formalaşıb. Rəsmi Bakı işğaldan sonrakı dövrdə yaratdığı yeni siyasi mühit, tolerantlıq modeli, multikultural ənənələri və müstəqil diplomatiyası ilə ABŞ ictimai rəyində daha obyektiv mövqeyə çıxmaq imkanına sahibdir. Bu da, öz növbəsində, dövlətlərarası dialoqu tamamlayan, qarşılıqlı etimadı geniş ictimai səviyyədə möhkəmləndirən uzunmüddətli əməkdaşlıq platformasının əsasını qoyur.

Son nəticədə Vaşinqton xəttində formalaşan yeni siyasi arxitektura Azərbaycanın yalnız bölgənin deyil, transatlantik münasibətlər sisteminin də mühüm strateji aktoruna çevrildiyini təsdiqləyir. Bakı sülh gündəliyini və multikultural dəyərlərini qlobal güc mərkəzlərinə real alternativ kimi təqdim edə bilir. ABŞ-la intensiv dialoq, xalq diplomatiyasına keçid üçün yaranmış geniş imkanlar və 907-ci düzəlişin ləğvi fonunda ortaya çıxan yeni etimad mühiti onu deməyə əsas verir ki, Azərbaycan öz xarici siyasət trayektoriyasını daha yüksək səviyyəyə qaldıran, regionun gələcəyinə təsir edən əsas oyunçulardan biri statusunu möhkəmləndirib.

Vaşinqtonda baş tutan müzakirələr həm Azərbaycanın prinsipial mövqeyinin qəbul edildiyini, həm də ölkənin artıq masa arxasında deyil, prosesləri yönləndirən tərəf kimi dəyərləndirildiyini nümayiş etdirir. Bu mərhələ Cənubi Qafqazın gələcək siyasi konturlarında Azərbaycanın aparıcı rolunun rəsmən tanındığı strateji dönüş nöqtəsi kimi tarixə düşür.

***Tacir SADIQOV***
***XQ***

# Azərbaycan Ordusunun qlobal reytinq yürüşü

## *145 ordu arasında 60-cı yerdə qərarlaşmağımız modern hərbi quruculuğun təsdiqidir*



**"Global Firepower" (GFP) agentliyi 145 ordunun 2025-ci il üzrə reytinq cədvəlini açıqlayıb. Azərbaycan ordusu dünyanın ən güclü orduları siyahısında 60-cı yerdə qərarlaşıb.**

Qeyd edək ki, dilimizə "Qlobal atəş gücü" kimi tərcümə olunan GFP hər il dünya ölkələrinin bütövlükdə götürülmüş hərbi gücünün reytinq cədvəlini tərtib edir. Agentliyə amerikalı bloger Daniel Puçek rəhbərlik edir. Reytinqin onun tərəfindən tərtib olunduğu bildirilir. Puçek hər bir ölkənin reytinqini hesablamaq üçün dəqiq formulu və təfərrüatları açıqlanmayan xüsusi düsturdan istifadə edir. Agentlik hər il ölkələrin silahlı qüvvələrini avadanlıq və personalın sayı, maliyyə vəziyyəti, resursların mövcudluğu və digər amillər daxil olmaqla 60-a yaxın göstərici üzrə müqayisə edir. Hərbi güc təkcə ordunun şəxsi heyətinin kəmiyyət göstəriciləri ilə deyil, həm də onun arsenalında olan təyyarə və helikopterlər, tanklar, zirehli maşınlar, özüyeriyən artilleriya, yedəkli artilleriya və reaktiv qurğular, dəniz donanmasında olan gəmilər və döyüş qayıqları, eləcə də hərbi büdcəsi və təbii sərvətlərə (yanacaq-sürtkü materialları, daş kömür və sair) çıxışı ilə müəyyən olunur. İndeks tərtib edilərkən demoqrafik, maliyyə, logistika və coğrafi amillərin də nəzərə alındığı iddia olunur.

"Qlobal atəş gücü" indeksi müxtəlif ölkələrin ənənəvi müharibə potensialını quru, dəniz və hava döyüş imkanları baxımından müqayisə edir. 2016-cı ildən bəri hər il yenilənən indeksdə ənənəvi müharibəyə diqqət yetirildiyi üçün nüvə arsenalları nəzərə alınmır.

Əlbəttə, Azərbaycan Ordusunun 145 ordu sırasında 60-cı yerdə qərarlaşması mühüm nailiyyət kimi qiymətləndirilməlidir. Bu göstərici təsadüfi nəticə deyil və ölkəmizdə ordu quruculuğuna ayrılan diqqətin bariz nümunəsidir. Reytinq həm ölkəmizin mövcud potensialının obyektiv dəyərləndirilməsi, həm də regional təhlükəsizlik arxitekturasında tutduğumuz mövqeyin beynəlxalq səviyyədə tanınması baxımından əhəmiyyət kəsb edir. Ümumiyyətlə, bu platformanın hazırladığı reytinqlər zaman-zaman müzakirələrə yol açsa da, onun əsas mahiyyəti ölkələrin hərbi hazırlıq səviyyəsinə dair ümumi təsəvvür formalaşdırmaqdır. Azərbaycan Ordusunun bu siyahıdakı mövqeyi də son illərdə aparılan modernləşmə siyasətinin, müdafiə sənayesinin inkişafının və hərbi əməliyyatlar zamanı nümayiş etdirilən yüksək planlaşdırma qabiliyyətinin nəticəsidir.

Qeyd etdiyimiz kimi, agentlik ölkələrin silahlı qüvvələrini 60-dan çox göstərici əsasında müqayisə edir. Bu göstəricilərin əksəriyyəti yalnız canlı qüvvə və texnikanın sayına deyil, həm də logistik imkanlara, müdafiə büdcəsinin davamlılığına, strateji resurslara çıxışa, sənaye-istehsal potensialına, coğrafi mövqeyə, hətta təbii sərvətlərin mövcudluğuna qədər geniş sahəni əhatə edir. Azərbaycanın reytinqdəki mövqeyi ölkəmizin yalnız hərbi arenada deyil, həm də iqtisadi və geosiyasi müstəvidə gücünü nümayiş etdirən kompleks yanaşmanı ortaya qoyur.

Ölkəmizin son onillikdə seçdiyi müdafiə strategiyası real şərtlərə uyğun şəkildə formalaşıb. Silahlı Qüvvələrimiz Ermənistanla uzun illər davam edən münaqişə fonunda həm genişmiqyaslı əməliyyatlara hazırlıq, həm də müasir döyüş konsepsiyalarına uyğunlaşmaq istiqamətində böyük dəyişikliklər yaşadı. Xüsusilə 2016-cı ildən sonra ordunun texnoloji üstünlük üzərində qurulması, pilotsuz uçuş aparatlarının tətbiqi, artilleriya və xüsusi təyinatlı qüvvələrin modernləşdirilməsi, yeni komando hərbi hissələrinin yaradılması Azərbaycanın müdafiə potensialını ciddi şəkildə artırdı. Hərbi reytinqlərdə belə göstəricilər mütləq nəzərə alınır, çünki bu elementlər döyüş meydanında həlledici rol oynayır.

Azərbaycanın hərbi büdcəsinin sabit artımı, müdafiə sənayesi sahəsinə edilən yatırımlar, beynəlxalq tərəfdaşlarla genişlənən əməkdaşlıq da indeksdə əhəmiyyətli yer tutur. Türkiyə, Pakistan, İsrail, İtaliya və Serbiya kimi ölkələrlə hərbi-texniki əməkdaşlıq çərçivəsində əldə olunan yeni sistemlər ordumuzun imkanlarını daha çevik və effektiv edib. Hazırda Azərbaycan Ordusunun arsenalında olan zərbə dronları, raket-artilleriya sistemləri, müasir tanklar və zirehli texnikalar, hava hücumundan müdafiə vasitələri Silahlı Qüvvələrimizi regionun ən hazırlıqlı ordularından birinə çevirib.

Bununla yanaşı, 2020-ci ildəki 44 günlük müharibə və 3 il sonrakı antiterror əməliyyatı Azərbaycan Ordusunun döyüş hazırlığının, əməliyyat planlaşdırma qabiliyyətinin və koordinasiya səmərəliliyinin dünyada ciddi şəkildə izlənməsinə səbəb oldu. Hərbi dairələr bu əməliyyatları XXI əsr müharibə modelinin yeni nümunələrindən biri kimi qiymətləndirmişdilər. Belə təcrübə istənilən ordunun reytinqdə mövqeyinə təsir göstərir, çünki real döyüş sınağı güc balansının ən dəqiq ölçülərindən sayılır.

Reytinqdə Azərbaycanı irəli çəkən mühüm amillərdən biri də ölkənin enerji resurslarına çıxışı, iqtisadiyyatın maliyyə dayanıqlılığı və müdafiə xərclərini uzunmüddətli perspektivdə təmin etmək imkanlarıdır. "Global Firepower" bu kimi faktorları birbaşa ordunun resurs təminatı, texnika yenilənməsi və uzunmüddətli hərbi layihələrə davamlı investisiya imkanı kimi qiymətləndirir. Azərbaycanın təbii sərvətlərdən əldə etdiyi gəlirlər təkcə iqtisadi inkişaf üçün deyil, həm də müdafiə sektorunun sabit maliyyələşməsi üçün strateji baza rolunu oynayır.

Əlbəttə, reytinqdə ilk sıralarda yer alan ölkələrlə müqayisə etmək doğru olmaz. ABŞ, Çin, Rusiya, Hindistan, Fransa və Böyük Britaniya kimi dövlətlər qlobal miqyasda hərbi-strateji güc mərkəzləridir və onların resurs potensialı ilə region ölkələrinin imkanları arasında fundamental fərqlər var. Lakin Azərbaycanın 60-cı pillədə qərarlaşması ölkəmizin öz bölgəmizdə əsas təhlükəsizlik oyunçularından biri olduğunu göstərir. Regionda hərbi-siyasi balansın dəyişdiyi bir dövrdə belə mövqe həm siyasi çəkini artırır, həm də diplomatik manevr imkanlarını genişləndirir. Onu da bildirək ki, Türkiyə Silahlı Qüvvələri 9-cu yerdə qərarlaşaraq qlobal 10 güc arasındadır. Qazaxıstan Ordusu isə 57-ci yeri özü üçün təmin etməklə Mərkəzi Asiya ölkələri arasında ən yaxşı nəticəyə malikdir.

*

Azərbaycan Ordusunun inkişaf strategiyası yalnız müasir hərbi texnikaların alınmasına deyil, həm də şəxsi heyətin peşəkarlığının yüksəldilməsinə əsaslanır. Dövlətimiz son illərdə hərbi təhsil sahəsində ciddi islahatlar həyata keçirib, Türkiyə modelinə uyğunlaşma dərinləşib, NATO standartlarına keçid sürətlənib. Hərbi akademiyaların təkmilləşdirilməsi, müasir təlim mərkəzlərinin qurulması, beynəlxalq sülhməramlı missiyalarda iştirakı silahlı qüvvələrin peşəkarlığını gücləndirir.

Yeni reytinq cədvəli həm də bir reallığı göstərir: Azərbaycan təkcə müdafiə qabiliyyətini artırmır, həm də postmüharibə dövründə yenidənqurma prosesləri ilə paralel şəkildə ordu quruculuğunda dayanıqlı model formalaşdırır. İşğaldan azad edilmiş ərazilərdə qurulan yeni hərbi infrastrukturlar, sərhəd xidmətinin modernləşdirilməsi, hava məkanının nəzarət mexanizmlərinin yenilənməsi ölkənin təhlükəsizlik sisteminin bütövlüyünü təmin edən uzunmüddətli layihələrdəndir.

Bu reytinq Azərbaycanın təhlükəsizlik siyasətində yeni mərhələni də əks etdirir. Ordu artıq yalnız müdafiə funksiyası daşımır, həm də regionda sülhün qorunması üçün dayaq mexanizmlərindən birinə çevrilir. Azərbaycan Zəngəzur istiqamətindən açılması nəzərdə tutulan kommunikasiyalar, Cənubi Qafqazda yeni əməkdaşlıq modelləri və iqtisadi inteqrasiya layihələri fonunda təhlükəsizlik arxitekturasında aparıcı rola iddialıdır. Bu iddianın əsas dayağı isə güclü ordu və davamlı hərbi-siyasi iradədir.

**Ehtiyatda olan polkovnik, hərbi ekspert Şair Ramaldanovun** fikrincə, Azərbaycan Ordusunun 60-cı pillədə yer alması



ölkəmizin mövcud imkanlarına adekvat göstəricidir. Onun qənaətincə, ordumuzun əsas üstünlüyü modern döyüş elementlərinə çevik adaptasiya qabiliyyətindədir. Xüsusilə zərbə dronları, yüksək dəqiqlikli raket kompleksləri, xüsusi təyinatlı qüvvələrin hazırlığı və real döyüş təcrübəsi Azərbaycanın regionda fərqlənməsinə səbəb olur.

Ekspertlər qeyd edir ki, Azərbaycan Ordusu postsovet məkanında ən çevik modernləşmə proqramlarından birini həyata keçirir. Türkiyə ilə hərbi əməkdaşlıq, birgə təlimlərin intensivliyi, komanda idarəetmə sisteminin yenilənməsi ordunun keyfiyyətcə yeni mərhələyə keçdiyini göstərir. Bu amillər döyüş qabiliyyətinə birbaşa təsir edir.

Hərbi mütəxəssis hesab edir ki, reytinqdə daha da irəliləmək üçün iki əsas istiqamət önə çıxacaq: müdafiə sənayesinin daxili istehsal imkanlarının genişləndirilməsi və hava-hava, hava-raket müdafiəsi sahəsində əlavə modernləşmə: "Azərbaycanda bu istiqamətlər üzrə artıq iş gedir və yaxın illərdə nəticələrin daha aydın görünəcəyi proqnozlaşdırılır. Mənim dəyərləndirməyimə görə, ölkəmizin əsas üstünlüyü hərbi gücə siyasi iradənin dəstək verməsidir. Çünki modern ordu təkcə texnika ilə deyil, vahid idarəetmə mərkəzinə malik strateji planlaşdırma ilə formalaşır. Azərbaycan bu baxımdan regionun təhlükəsizlik sistemində əsas aktor olaraq qalır".

***Səxavət HƏMİD***
***XQ***

# Karlsonun siyasi "diletantlığı"

## *Nikol Paşinyana xaricdən məqsədyönlü hücumlar təşkil edilir*

**Ermənistanın baş naziri Nikol Paşinyana qarşı yarıaçıq, yarıgizli şəkildə xaricdən müxtəlif platformalarda təzyiq kampaniyası davam etməkdədir. Parlament seçkiləri yaxınlaşdıqca, daha geniş vüsət alacağı şübhə doğurmayan bu kampaniyaya "ağır artilleriya"nın qoşulduğunu müşahidə edirik. Söhbət amerikalı tanınmış jurnalist, siyasi teledialoqların "ustası" sayılan Taker Karlsonun rusiyalı biznesmen Samvel Karapetyanın qardaşı oğlu Narek ilə müsahibəsindən gedir.**

Hazırda haqqında qaldırılan cinayət işi ilə bağlı istintaq altında olan Samvel Karapetyan Nikol Paşinyana qarşı siyasi hərəkat yaratmağa, bu yolla hakimiyyəti ələ keçirməyə cəhd edib. İntəhası, biznesmenin siyasi karyera qurmaq eksperimenti həbsxana kamerasında başa çatıb. Karlsonun siyasi tok-şousunun qəhrəmanı kimi niyə məhz Karapetyanın qardaşı oğlunu və nə üçün indi seçdiyi kimi təbii suallar doğurmaya bilməz. Doğrudanmı erməni əsilli rusiyalı oliqarxın yaxın qohumu Amerika auditoriyası üçün maraqlı persona ola bilər? Məgər ciddi ittihamlar irəli sürülmüş və həbsdə olan oliqarxın yaxın çevrəsindən daha təcrübəli və ağırçəkili bir fiquru tapmaq mümkün deyildimi? Amma məsələnin mahiyyəti heç də ekranda kimin göründüyündə və ya müsahibinin nəyi müzakirə etdiyində deyil. Problem çoxmilyonluq auditoriya qarşısında "teletamaşa"nın hansı məqsədlə və necə icra edilməsindədir.

Yeri gəlmişkən, nəzərə çatdıraq ki, Taker Karlson ənənəvi mənada peşəkar telejurnalist deyil. O, "podkastlara" (podkast– müxtəlif mövzularda hazırlanan, internet üzərindən audio və ya video formatında yayımlanan verilişlər seriyasıdır. İstənilən vaxt rəqəmsal cihazlarda rahatlıqla izlənilən bu proqramlarda daha çox siyasi mövzulara üstünlük verilir - red.) aparıcılıq edir. "Podkastinqin" isə ənənəvi jurnalistikaya çox az aidiyyatı var. Qərbdə son 30-40 ilin efir məhsulu kimi meydana çıxan bu janr hələ də müəyyən edilmiş elektron media standartlarından kənarda mövcuddur. Bu da təbiidir, çünki "podkastlar" nisbətən yeni, müasir dövrün fenomenidir. Məhz ona görə təəccüblü deyil ki, Karlson müsahibələrində sərbəst və inamlı şəkildə müdaxilələrə yol verir, bəzən opponent qismində çıxış edir. Axı, bu efir "fəndləri" tok-şounu baxımlı və maraqlı edən əsas amillər hesab olunur. Yəni, bu telelayihədə teleaparıcıdan intellektdən daha çox çeviklik, erudisiya və intriqa yaratmaq qabiliyyəti tələb olunur. Əgər ortada siyasi sifariş, korporativ mənafe və ya digər maraqlar varsa, bu halda söhbət əvvəldən axıradək əvvəlcədən düşünülmüş ssenari üzərində qurulur. Məqsəd isə auditoriyada lazımi rəyi, daha doğrusu, müzakirə obyekti olan personalar haqqında mənfi rəy formalaşdırmaqdır.

*

Taker Karlsonun bu dəfə əsas vəzifəsi Ermənistanın hazırkı hakimiyyətinə qarşı tamaşaçı və dinləyicidə müəyyən təsəvvür yaratmaq idi. Süjetdən də hiss olunduğu kimi, görünür, amerikalı teleulduzun ətrafındakılardan, həmkarlarından heç kim müsahibədən əvvəl ona "Taker, sən bu mövzuda heç nə bilmirsən, sus, qonağın danışsın" deyə bilməzdi. Əgər deyilsəydi, o zaman bu, Karlson olmazdı ki. Verilişdə hər şey sifarişçinin istədiyi kimi getdi: şablon, birtərəfli, ağıllı, praqmatik təhlilə zərrə qədər dəxli olmayan müsahibə.

Müsahibənin məzmunu İrəvan isteblişmentinə qarşı erməni diasporasının təbliğatının parlaq nümunəsi sayıla bilər. Cansıxıcı, darıxdırıcı, motivi hamıya məlum söhbətlər, sanki diplomatiyaya aid iyirmi il əvvəlki dərslikdən köçürmələr. Paşinyana ünvanlanan tənqidlər isə iyrənc dərəcədə bəsit və səviyyəsiz idi: kilsəyə qarşı hücumlar, LGBT, "ənənəvi dini əxlaqın məhv edilməsi" və s.

Verilişin ən gülməli tərəfi ondan ibarətdir ki, qardaşı oğlu Narek Samvel Karapetyanla Nikol Paşinyan arasında yaranmış münaqişənin əsl səbəbləri barədə bir kəlmə danışmadı. Üstəlik, teleaparıcı da nə erməni oliqarxın Moskva ilə isti əlaqələri, nə Ermənistan üçün revanşist kursun yeni nümayəndəsi kimi ortaya atılması, nə də Samvel Karapetyan kimilərin qələbəsinin real Ermənistandan utopik Ermənistana qayıdışın demək olacağı barədə danışdı. Qardaşoğlu isə qeyd etmədi ki, əgər bu gün Ermənistan Şimal qonşusunun qanadının altına qayıtsa, son illər əldə etdiyi bütün uğurları – Azərbaycanla sülh prosesindəki irəliləyişlər, Bakının nəqliyyat dəhlizlərinin açılması yönündə atdığı addım və normallaşma yoluna düşən ikitərəfli münasibətlər yenidən divara dirənəcək.

Aşkar görünən mənzərə onu deyir ki, bu gün Nikol Paşinyan azsaylı erməni liderlərindən biridir ki, ölkəsinin açıq, müasir və qonşuları ilə qarşılıqlı hörmət və etimada söykənən münasibətlər qurması üçün çalışır, hayların beynini xəyali və zərərli niyyət və planlardan təmizləməkdə israrlıdır. Çıxışlarında dünənə deyil, gələcəyə fokuslandığını müşahidə edirik. Təəssüf ki, Taker Karlsonun verilişində hər şey Paşinyan iqtidarına qarşı yönəldildi. Guya Hayastanın baş naziri inanca qarşı mübarizə aparır və erməni xalqına LGBT gündəmini sırıyır. Sanki danışmağa başqa mövzular yox imiş.



Narek Karapetyan Ermənistanın daxili işlərindən də danışdı. Amma elə danışdı ki, tamaşaçıların əksəriyyəti kimi, biz də qəti əmin olduq ki, əgər Avropanın hər hansı bir ölkəsində siyasətçi LGBT və din haqqında bu cür danışmağa başlasa, ən yaxşı halda onunla məsafə saxlayarlar. Görəsən, tamaşaçıların neçə faizi Samvel Karapetyanın LGBT gündəminə görə həbsdə olduğuna inanıb? Axı, gənc Narek haradan biləydi ki, həm erməni kilsəsi, həm də onun şiddətlə müdafiə etdiyi Moskva Patriarxlığının Ukrayna Kilsəsi çoxdan Rusiyanın maraqları üçün kanala çevrilib? Onları ən yumşaq formada "konduitlər" adlandırırlar.

"Xarakterinə görə avtoritar lider olan baş nazir Paşinyan kilsəyə qarşıdır", – deyən Karlson heç vaxt səfər etmədiyi və sözün əsl mənasında, haqqında heç bir məlumatının olmadığı ölkə və onun rəhbəri haqqında bu cür danışır və onu qınayır. Son nöqtəni isə qardaşoğlunun əvəzinə o, özü qoyur: "Paşinyan Ermənistanda pravoslav xristianlığın belini qırmaq istəyir".

Bundan sonrasını şərh etməyə lüzum görmürük. Sadəcə, onu mütləq qeyd etməliyik ki, qarşıdan gələn 2026-cı il parlament seçkilərində Paşinyanı ciddi mübarizə gözlədiyinə kiminsə şübhəsi var idisə, bu "podkastinqdən" sonra aydın olur ki, onu "ağır döyüşlər" gözləyir. Amma bir həqiqəti deməyə məcburuq: Nikol Paşinyan "xristianlığa qarşı mübarizədə" və "LGBT-yə lobbiçilikdə" ittiham olunursa, deməli, o, düz yoldadır. O, həqiqətən də xarici qüvvələrlə əməkdaşlıq edənləri, daşnak və revanşistləri daha aşağı salmağa davam etməlidir. Bu yol bütövlük və qətiyyət tələb edir. İstənilən yumşaqlıq və ya özündən razılıq Ermənistanın dövlətçiliyi üçün real təhlükənin yaranması deməkdir.

***İmran BƏDİRXANLI***
***XQ***

# Azərbaycan Prezidentinin Mərkəzi Asiya zəfəri

## I MƏQALƏ

### Siyasi və tarixi reallıq

Azərbaycan Prezidenti İlham Əliyevin Mərkəzi Asiya regionuna səfəri böyük rezonans doğurmuşdur. Dövlət başçısının əldə etdiyi nailiyyətin siyasi və geosiyasi izahını analitiklər hələ də tam mənasında verə bilməmişlər. Çünki məsələ yalnız bu günün siyasi-tarixi reallığı ilə məhdudlaşmır. XXI əsrin uğurlu liderlərindən olan Azərbaycan rəhbərinin fəaliyyətinin strateji anlamı çoxlu sayda faktorlarla sıx bağlıdır. Onların sistem halında və müasir elmi yanaşmalar əsasında təhlili gərəkdir.

Azərbaycanda, əlbəttə, dövlət başçısının triumfal səfərinin təhlili aparılır. Bununla yanaşı, daha geniş kontekstdə konseptual yanaşmaya ehtiyac duyulmaqdadır. Məsələ bugünkü siyasi reallığın tarixi ənənədən və dövlətçiliklə liderliyin ortaq dəyərlərindən qaynaqlanan bir sıra özəllikləri ilə sıx bağlıdır.

Prezident İlham Əliyevin Mərkəzi Asiya səfərinin siyasi reallığı ondan ibarətdir ki, həmin region uğrunda dünyanın bir neçə böyük geosiyasi gücü ciddi rəqabətə girişmişlər. Bu sırada ABŞ, Çin, Aİ, Rusiya, Yaponiya, Cənubi Koreya, İran və Türkiyənin adını hallandırırlar. Nədənsə, Hindistandan bəhs etmirlər, ancaq bu dövlətin də Mərkəzi Asiyada maraqlarının olduğuna şübhə yoxdur.

Deməli, indiki siyasi reallığın geosiyasi kontekstə proyeksiyası yetərincə mürəkkəb mənzərəni ortaya qoyur. Buradan gosiyasi konteksti maraqlı və aktual olan ikinci özəlliyi aydınlaşdırmaq olar. Biz, Mərkəzi Asiya uğrunda intensiv rəqabətin məntiqindən yarana biləcək yeni geosiyasi konfiqurasiyanın formulunu nəzərdə tuturuq. Bu formul hazırkı dönəmdə necədir?



### Yayğın konfiqurasiya

Bir sıra mütəxəssis müasir qlobal geosiyasəti "yayğın proses" kimi təqdim edirlər. Bütövlükdə dünyaya aid edilən bu qiymətləndirmə işığında Mərkəzi Asiya "lokal nümunə" təsiri bağışlayır. Çünki yuxarıda vurğulanan müxtəlif münasibətlər sisteminin eyni anda təsir göstərməsi regionun geosiyasi mənzərəsini son dərəcə yayğın etmişdir. Ancaq onların hamısını birləşdirən bir formul tapmışlar: "5+1"! Yəni regionun 5 dövlətinin birgə kənar dövlətlə əməkdaşlığı formulu. Bu formulun kim tərəfindən və hansı məqsədlə gündəmə gətirildiyini bilmədən Azərbaycan rəhbərinin hansı səviyyədə uğur qazandığı haqqında tam siyasi təsəvvür əldə etmək mümkün deyildir.

### "5+1": qısa tarixçə

Bu formul üzrə XXI əsrdə ilk dəfə Yaponiya 2004-cü ildə Mərkəzi Asiya ilə əməkdaşlıq etməyə başlamışdır. Yaponlar geosiyasətə deyil, əsasən iqtisadi, texnoloji, ticari, nəqliyyat-loqistika, sərmayə qoyuluşu və digər sahələrə üstünlük vermişlər. Bu istiqamətdə Yaponiya regiona geniş faydanı məhz "C5+1" formatı daxilində vermişdir. 2015-ci ildə tarixdə ilk dəfə olaraq yapon dövlət başçısı Mərkəzi Asiyaya səfər etmişdir. 2022-ci ildə isə 5 region dövlətinin xarici işlər nazirləri Tokioda yapon həmkarları ilə əməkdaşlığı müzakirə etmişlər. Hazırda Yaponiya bir sıra sferalarda, məsələn, kənd təsərrüfatı, maliyyə, vətəndaşlara dəstək, sərhədlərin möhkəmləndirilməsi və s. üzrə regionla əlaqələri gücləndirir. Bir sıra analitik hesab edir ki, bu istiqamətin perspektivi vardır (məsələn, S.Süzyun).

Yaponiyadan sonra Cənubi Koreya 2007-ci ildə öz variantında "C5+1" formuluna baş vurdu. Burada siyasi, sosial-iqtisadi, mədəni aspektlər üstünlük təşkil edir. Enerji, təbii resurslar, infrastruktur, informasiya texnologiyaları, kənd təsərrüfatı, elm və texnika, səhiyyə və s. sferalarda əməkdaşlıq inkişaf etdirilir. Beləliklə, Cənubi Koreyanın "C5+1" formulunda geosiyasi nüfuza sahib olmaq aspekti aparıcı deyildir (E.S.Alekseenkova).

Sonrakı dönəmlərdə "C5+1" formulu yeni məna çalarları almışdır və o, ABŞ-ın sayəsində olmuşdur. Bu məqam ayrıca vurğulanmaldır. Ancaq ABŞ-dan öncə Mərkəzi Asiyada "C5+1" formulu üzrə Rusiya və Çin fəaliyyət göstərməyə başlamışlar.

Rusiya son 300 ildə həmin regionda idi və oradan çıxmamışdı. Lakin XXI əsrdə rəsmi Moskva mürəkkəb geosiyasi vəziyyəti nəzərə alaraq region dövlətləri ilə xüsusi formul üzrə strateji əməkdaşlıq təklif etdi. Orada demokratiya və siyasi institutlaşmadan söhbət getmirdi. Lakin Rusiya xarici işlər naziri ilə 5 region dövlətinin xarici işlər nazirlərinin 2020-ci ildə onlayn görüşü artıq Moskvanın ABŞ ilə əməkdaşlıq formatına qayıtmaq istədiyini göstərdi. Onu deyək ki, 2020-ci il müzakirəsi Rusiya ilə region dövlətlərinin üçüncü görüşü idi. Burada əsas məqam Moskva üçün özünün geosiyasi maraqlarına tam önəm verməsi ilə bağlıdır. Analitiklər iqtisadi sferada tərəflər arasındakı əməkdaşlığın da məhz buna xidmət etdiyini vurğulayırlar (o cümlədən AİƏT tərkibində).

Çinin regiona gəlişi isə daha mürəkkəb və nəticəvericidir. Çin dövlət başçısı ilk olaraq 2013-cü ildə Mərkəzi Asiyaya səfər etmişdir. Ancaq qısa müddətdə Pekin regiona 50 milyard dollar həcmində sərmayə qoyaraq, bir çox sferalarda əməkdaşlıqda irəli çxımışdır. Belə hesab olunur ki, Çin əsas olaraq iqtisadi, energetik, informasiya, nəqliyyat loqistika və mədəniyyət sferaları üzrə əlaqələri qabartsa da, bunların arxasında strateji geosiyasi maraqlar dayanır.

### ABŞ-ın "C5+1" formulu

Amerika 2015-ci ildə Mərkəzi Asiya strategiyasını həyata keçirməyə başlamışdır. Yəni Çinin ora nüfuz etməsindən 2 il sonra. Rəsmi Vaşinqton Mərkəzi Asiyanı özünün milli təhlükəsizliyi baxımından mühüm geosiyasi region elan etmişdir. Bununla, ilk dəfə olaraq, Amerika Mərkəzi Asiyanı avtonom geosiyasi region statusuna yüksəltdi. Xatırladaq ki, Avropa İttifaqı həmin dönəmə qədər Mərkəzi Asiyaya strateji əhəmiyyəti olan region kimi baxmırdı. 2016-cı ildən başlayaraq ABŞ-ın "C5+1" formatı kontrterrorizm, biznes rəqabətqabiliyyəti, nəqliyyat dəhlizlərinin inkişafı, gələcəyin enerjisi, ekologiya üzrə milli və regional planlaşmanın adaptasiya olunması istiqamətləri üzrə əməkdaşlığı əhatə etmişdir.

Bununla Amerika maraqlı bir tendensiyanın əsasını qoydu. Rəsmi Vaşinqton geosiyasi aspektdə Mərkəzi Asiyanın region kimi bütövləşməsini aktuallaşdırdı. Bu əsasda vahid regional strateji tərəfdaşlığı konkret sferalar üzrə reallaşdırmağa başladı.

Onu deyək ki, Avropa İttifaqının Mərkəzi Asiya siyasəti əsas məqamlarda ABŞ-ın siyasəti ilə sinxronluq təşkil edir. Lakin bu iki yaxın müttəfiq geosiyasi güc rəqabətdədirlər. Aİ hazırda daha geniş geosiyasi məkanda Mərkəzi Asiya ilə əməkdaşlıq modelləri axtarır. Bu baxımdan 2025-ci ilin oktyabrında Brüsselin təklif etdiyi yeni əməkdaşlıq modeli ilə (Lüksemburq görüşü) ABŞ-ın təklif edtiyi "C5+1" formulu (Vaşinqton görüşü) arasında məzmun və məqsəd oxşarlığı mövcuddur (məsələn, əlvan metallar üzrə əməkdaşlıq və enerjinin nəqli istiqamətlərində).

### "C5+1" formatının geosiyasi anlamı

Yuxarıda bir neçə geosiyasi aktorun Mərkəzi Asiyaya sözün həqiqi mənasında, siyasi-diplomatik və təhlükəsizlik sferaları üzrə vahid format çərçivəsində "hücum" etməsi müasir geosiyasətdə yeni regionçuluq təlimi baxımından unikal hadisədir. Çünki format eyni olsa da, məqsədlər arasında fərqlər mövcuddur (yuxarıdakı müqayisələr bunu göstərir). Buna baxmayaarq, onların hamısı üçün ortaq olan və prinsipial əhəmiyyət daşıyan iki faktor vardır.

Birincisi, vurğulanan geosiyasi aktorlar Mərkəzi Asiyanın region kimi öz maraqları üzrə inkişafına çalışmamışlar. Əksinə, onlar region dövlətlərindən öz eqoist maraqları üçün maksimum istifadə etməyə cəhd göstərmişlər. Yaponlar və koreyalılar üçün bu, texnologiya və informasiya ilə bağlıdırsa, çinlilər daha geniş miqyasda enerji, nəqliyyat, loqistika, informasiya və digər sferalara nüfuz etməkdədirlər. Rusiyanı əsas olaraq özünün təhlükəsizliyi və regionda geosiyasi dominantlığı maraqlandırır. Onun iqtisadi planları da buna xidmət edir.

Avropa İttifaqı onlardan fərqlənmir. Xüsusilə, 2015-ci ildə Mərkəzi Asiya istiqamətində yeni qlobal strategiya hazırlayaraq, birbaşa Brüsselin geosiyasi maraqlarının təmin edilməsi istiqamətində fəallaşmışdır. Brüssel son olaraq Mərkəzi Asiyanı Qafqaz və Balkanlarla birgə eyni geosiyasi konfiqurasiyaya daxil etməyə çalışması həmin mövqenin təzahürlərindən biridir.

İkinci faktor praktiki siyasi-diplomatik fəaliyyətin nəzəri-konseptual bazası ilə bağlıdır.

### Riçard Dafın təşkilatlanma təlimi və Mərkəzi Asiya

İngilis professor Riçard Daf 2007-ci ildə təşkilatda liderliyin tədqiqi konteksitndə əməkdaşlıqda institutallaşma və inteqrasiya aspektlərinə önəm verən tezislər irəli sürmüşdür. Onun nəzəri qənaətinə görə, müasir mürəkkəb qlobal geosiyasi şərtlər daxilində institusional və inteqrativ xarakterli fəaliyyət qalıcı uğur gətirə bilər və dövlətin liderliyini təmin edər. Buradan Mərkəzi Asiya istiqamətində Qərbin mövqeyinin başlıca konseptual özəlliyi aydın olur: həmin regionla strateji tərəfdaşlıq yekunda Qərbin liderliyinin təmininə xidmət etməlidir. İndi də ABŞ və Aİ bu nəzəri-konseptual çərçivədən kənara çıxmırlar. Tədiqatçılar da vurğulanan iki parametr üzrə Mərkəzi Asiya ilə əməkdaşlığı təhlil etməyə çalışırlar.

Bu artıq konkret mövqedir və faktiki olaraq "C5+1" platformasının əsas geosiyasi mənasını aydınlaşdırır. Təbii ki, buna region dövlətlərinin öz reaksiyası olmalıdır və hazırda onu müşahidə edirik. Faktlar bu baxımdan nəyi göstərir?

Hər şeydən öncə, Mərkəzi Asiya dövlətləri vahid regional mövqe formalaşdırmağa üstünlük verirlər. Bunun üçün onlar "Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Toplantısı"nı yaratmışlar. 2025-ci ildə bu Toplantının sayca 7-cisini keçirmişlər. Azərbaycan Prezidentini isə 3-cü dəfədir ki, ora dəvət etmişlər.

İkincisi, region dövlətləri vahid fəaliyyət kursu əsasında "C5"in kənar "1"lə əməkdaşlığına açıq olduğunu nümayiş etdirirlər, lakin kimə üstünlük verəcəkləri məsələsi də açıqdır. ABŞ-ın dünyanın ən güclü dövləti olması, Mərkəzi Asiyanın məhz Vaşinqtona üstünlük vərcəyi anlamına gəlmir. Eyni fikri Aİ və ya Çinlə münasibətlərinə aid edə bilərik.

Üçüncüsü, Mərkəzi Asiya dövlətləri institutlaşma əsasında inteqrasiya strategiyasına daha çox diqqət yetirirlər. Lakin bu, yalnız və heç də ABŞ və ya Aİ istiqaməti ilə bağlı deyildir. Son zamanlar Türk Dövlətləri Təşkilatı (TDT) faktoru davamlı olaraq irəli çıxmaqdadır. Azərbaycanla əlaqələrin kəsintisiz inkişaf etdirilməsi yuxarıda vurğulanan faktlarla bərabər TDT məsələsi prizmasında olduqca əhəmiyyətli görünür.

Məhz həmin prizmada Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyevin "5+1" "6"ya çevrildi" ifadəsinin real siyasi və geosiyasi mənasını dərk etmək olar. Bu yeni tarixi və siyasi gerçəkliyin memarı Prezident İlham Əliyevdir.

*(ardı var)*

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

## "Dua səhəri": dini tədbir, yoxsa...

### *Paşinyan yeni müqəddəslik tapıbmı?*

**Ermənistanda ilk dəfə təşkil olunmuş "Dua səhəri" ABŞ-da uzun illərdir keçirilən "National Prayer Breakfast" formatına bənzər yeni tipli toplantıdır. Amma baş nazir Nikol Paşinyanın bu təşəbbüsü mahiyyət etibarilə sırf dini tədbir kimi qiymətləndirilə bilməz. Nikolun "duası" ictimai imicin formalaşdırılması ilə hakimiyyətin siyasi strategiyasının çulğalaşmasına hesablanıb.**

Bəli, N.Paşinyan mövcud dini formatı Ermənistandakı ənənənin davamı qismində deyil, həm daxili, həm də xarici auditoriya üçün hakimiyyətin legitimliyinin yeni əsaslarını yaratmaq naminə seçib. Heç şübhəsiz, bu seçim, eyni zamanda, siyasi-texnoloji alətdir. Diqqət yetirək, "Dua səhəri"ndə diplomatik nümayəndələr, Qərb ölkələrinin səfirləri, beynəlxalq QHT-lər və siyasi dairələrə yaxın şəxslər iştirak edirlər. Halbuki, onun orijinal Amerika formatı olan "National Prayer Breakfast" başqa motivlərə söykənir.

Həmin format əsasən iki partiyanın iştirakı ilə aparılan mənəvi dialoqdur. Başqa sözlə desək, siyasi və dini liderlərin bir araya gəlib mənəvi və ictimai dəyərlərlə bağlı söz açdığı platformadır. Erməni iqtidarı isə həmin modeli ölkənin daxili və xarici siyasət məqsədlərinə uyğunlaşdırmaqla, diplomatik immunitet qazanmaqla məşğuldur. Axı Paşinyanın "duasında" xristianlığın dəyərləri və mənəvi harmoniya mövzuları səslənsə də, tədbirin məzmununda siyasi mesajlar üstünlük təşkil edir.

Digər tərəfdən, Paşinyan hökumətinin "Dua səhəri" ilə vermək istədiyi konkret mesajlar var. Söhbət Qərbə yönəlik mesajlardan gedir. Təxminən belə: "Biz xristian, sülhpərvər və Qərb dəyərlərinə açıq ölkəyik". Yəni, Ermənistan təkcə Rusiyadan uzaqlaşmır, bunu həm də sivilizasiyalı seçim olaraq edir. Daxilə gəldikdə, Paşinyan dəfələrlə özünü yalnız siyasi lider kimi deyil, eyni zamanda, "mənəvi yenilənmə tərəfdarı", "sivilizasiyalı yolun nümayəndəsi" qismində təqdim etməyə çalışıb. Bu təqdimatların isə 2026-cı il seçkilərinə hazırlıq kontekstində əhəmiyyəti böyükdür. Çünki Nikolun mövqelərini sarsıtmağa çalışan Erməni Apostol Kilsəsi var.



O kilsə ki, əsasən müxalifəti dəstəkləyir. O kilsə ki, Paşinyan da öz növbəsində onu sıradan çıxarmağa cəhd göstərir, bu məqsədlə təzyiqlər edir, təqiblər həyata keçirir. Əlbəttə, belə bir durumda erməni iqtidarı üçün təhlükə də yaranır. "Dua səhəri" təhlükəni önləmək məqsədi güdür. Baş nazir başlatdığı təşəbbüslə erməni cəmiyyətinə belə bir mesaj verir: biz xristianlığa qarşı deyilik, sadəcə, onu qaranlıq təsirlərdən təmizləyirik.

Deməli, erməni iqtidarına yeni müqəddəslik lazımdır ki, "Dua səhəri"nin bu baxımdan mühüm rol oynaması nəzərdə tutulur. Başqa sözlə desək, Paşinyanın məqsədi, eyni zamanda, alternativ nüfuz mənbəyi qurmaqdır. Əlbəttə, bu məqsəddə cəmiyyətə 44 günlük müharibədəki məğlubiyyəti unutdurmaq istəyi də var. Nikol istəyini özünü mənəvi dirçəlişin simgəsi kimi göstərməklə həyata keçirmək niyyətindədir. O, təkcə dövlət hakimiyyətinə deyil, həm də dəyər və mənəvi iqtidara sahibliyinə dair rəy formalaşdırmaq əzmindədir. Ona görə də özünü adi siyasətçi kimi deyil, dövlət üçün çalışan ruhani-siyasi islahatçı obrazında təqdim edir. Tam mümkündür ki, Nikol tezliklə Eçmiədzinin təsirindən kənarda, daha idarəolunan alternativ ruhani platforma formalaşdırmağa da girişsin. Müəyyən mənada "Dua səhəri" də məhz belə bir platformadır. Yəni yumşaqdır, qlobaldır, ekumenikdir, ən əsası, siyasi baxımdan təhlükəsizdir.

***Ə.RÜSTƏMOV***
***XQ***

*Xuntaçıların məhkəməsi*

# Qarabağ müharibəsinin qurbanları ədalət istəyir





**Azərbaycan Respublikası Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə, müharibə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi noyabrın 18-də davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) prosedur müzakirələrindən sonra zərərçəkmiş şəxslərin ifadələri dinlənilib.

Zərərçəkmiş Cəmil Əliyev bildirib ki, Ağdərə rayonunun Çərəkdar kəndində özü, eləcə də Bəhram Allahyarov və Murad Verdiyev müxtəlif xəsarətlər alıblar, Şikar Hüseynov isə həlak olub. İntiqam Rüstəmli qeyd edib ki, Xocavənd rayonu ərazisində özü və daha bir nəfər xəsarət alıb. Etibar Əliyev bildirib ki, Kəlbəcər rayonunun Susuzluq kəndi ərazisində mina partlayışı zamanı Məhərrəm İbrahimov, Sirac Abışov və Arif Əliyev həlak olub, özü və daha üç nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri alıb.

Allahverdi Məmmədli və Nahid Əsədov bildiriblər ki, Xocavənd rayonu ərazisində yaralanıblar. Elşən Rüstəmov qeyd edib ki, Cəbrayıl rayonu ərazisində müxtəlif xəsarətlər alıb. Şahmar Cəlilov bildirib ki, Ağdərə rayonu istiqamətində özü xəsarət alıb, bir nəfər isə həlak olub. Ümüd Şükürov qeyd edib ki, Kəlbəcərdə özü və başqa bir neçə şəxs isə müxtəlif xəsarətlər alıb.

Novruz Əliyev bildirib ki, Kəlbəcər rayonunun Yellicə kəndində, Eynulla Nəsirli isə qeyd edib ki, Xocalı rayonu istiqamətində xəsarət alıblar. Yusif Yusifov isə bildirib ki, Ağdam rayonunun ərazisində İxtiyar Bayramov həlak olub, özü isə xəsarət alıb.



Ardınca məhkəmə prosesi sənədlərin və cinayət işi materiallarında olan digər sübutların tədqiqi ilə davam etdirilib.

Məhkəmənin növbəti iclası noyabrın 20-nə təyin olunub.

***XQ***

# Hərbi paraddan sonrakı baxış: Cənubi Qafqazın təhlükəsizlik arxitekturası

**Vətən müharibəsində Qələbənin beşinci ildönümü münasibətilə keçirilmiş paradın hərbi, siyasi, geosiyasi və başqa anlamlarının təhlili davam etdirilir. Ekspertlər burada yeni məqamlar axtarırlar. Həqiqətən də 8 Noyabr paradı müxtəlif aspektlərdə yeni məna çalarları ilə zəngin idi. Onun tədqiqi çox güman ki, davam edəcək. Biz burada parada Azərbaycan-Türkiyə-Pakistan üçtərəfli formatının perspektivləri və regional təhlükəsizlik arxitekturasının formalaşması kontekstində nəzər salmağa çalışacağıq.**



## Regional təhlükəsizlik: Böyük Zəfərin reallıqları fonunda

Azərbaycan Ordusunun növbəti hərbi paradında Azərbaycan, Türkiyə və Pakistanın dövlət başçılarının söylədiyi fikirlər və nümayiş etdirilən hərbi güc Azərbaycanı dünya miqyasında yenidən diqqət mərkəzinə gətirib. Bu dəfə hər kəsin mövqeyi birmənalı idi: Azərbaycanın əldə etdiyi hərbi qələbə onun siyasi və geosiyasi təsirinin Cənubi Qafqaz üçün aparıcı olduğuna şübhə yeri qoymur! Bu mövqenin tarixi və strateji əhəmiyyətini dərk edənlər az deyil, buna nail ola bilməyənlər isə yaxın zamanlarda tam əmin olacaqlar. Çünki beşinci hərbi parad, sözün həqiqi mənasında, Azərbaycanın dövlət kimi nailiyyətlərini həm bir daha təsbit etdi, həm də onun qlobal miqyasda qəbul edilməsinin rəmzinə



çevrildi. Bu fikir, digər məqamlarla yanaşı, Cənubi Qafqazın yeni təhlükəsizlik arxitekturasının formalaşmasına da aiddir. Məhz bu tezisin təsdiqi paradda çıxış edən hər üç dövlətin başçısının fikirlərində öz əksini tapıb.

## İlham Əliyev: “Üç ölkənin birliyinin təzahürü”

Azərbaycan Prezidenti paraddakı nitqində vurğulayıb: “Beş il bundan əvvəl Zəfər paradında da əziz qardaşım Rəcəb Tayyib Ərdoğan bizimlə bərabər idi. Bu gün isə bizimlə bərabər digər əziz qardaşım iştirak edir. Qardaş Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif bizim qonağımızdır. Pakistan dövləti və xalqı 44 günlük Vətən müharibəsi zamanı Azərbaycana dəstək və həmrəylik göstərmişdir. Bu gün ilk dəfə olaraq Azadlıq meydanında Pakistan hərbçiləri də bizimlə bərabər iştirak edirlər. Bu, üç ölkənin – Azərbaycan, Türkiyə, Pakistan xalqlarının, ordularının birliyinin təzahürüdür”.

Azərbaycan rəhbəri bununla ötən beş il müddətində Azərbaycan-Türkiyə-Pakistan strateji əməkdaşlıq formatının formalaşdığını ifadə edir. Bu müddət ərzində üç qardaş ölkə bütün sferalarda əlaqələri strateji səviyyəyə yüksəldərək, vahid gücə çevriliblər. Cənubi Qafqazın sabitliyi və təhlükəsizlik arxitekturasının yenilənməsi baxımından deyilənlərin əhəmiyyəti olduqca böyükdür.

## Rəcəb Tayyib Ərdoğan: “Bu Zəfər Qafqazda davamlı sülhə gedən yolun məhək daşı”dır

Qardaş Türkiyənin Prezidenti nitqində ifadə edib: “Qarabağ Zəfəri vicdanları qanadan böyük bir ədalətsizliyə son qoymaqla qalmadı. Eyni zamanda, bölgəmizdə yeni bir dövrün qapılarını açdı. Vətən müharibəsi Asiyada və Avropadakı geosiyasi balansı da dəyişdi. Biz nə kin saxlayarıq, nə də keçmişdəki zülmlərin yenidən yaşanmasına izn verərik. Beləliklə, bu Zəfəri bir son olaraq deyil, Qafqazda davamlı sülhə gedən yolun məhək daşı olaraq görürük. Qafqazda sülhün bərqərar olmasının Asiyadan Avropaya qədər bütün bölgənin rifahına xidmət edəcəyi qənaətindəyik. Bunu da burada xüsusilə vurğulamaq istəyirəm ki, biz davamlı sülh məsələsində son dərəcə ümidvarıq, nikbinik. İlham Əliyev qardaşımın davamlı sülhün bərqərar olması üçün göstərdiyi səmimi fəaliyyəti təqdir edirik”.

Göründüyü kimi, Türkiyə rəhbərliyi əmindir ki, hazırda Qafqazda müşahidə edilən sabitləşdirici və sülhyaradıcı proseslərin məhək daşı Azərbaycanın möhtəşəm Qələbəsidir. Ermənistanın Baş naziri Nikol Paşinyanın da sülhə meyil etməsinin təməlində məhz bu fakt durur. Türkiyə də bu anlamda üzərinə düşən hər şeyi edəcəkdir. Hazırda iki qardaş ölkə arasında əlaqələr müstəsna xarakter daşıyır. Türkiyənin dövlət başçısı bu xüsusda deyib: “Hazırkı nöqtədə Can Azərbaycanın həm bölgəsində, həm də kənarda əldə etdiyi irəliləyişlərdən böyük qürur duyuruq. Aramızdakı müstəsna əlaqələr konkret strateji layihələrlə hər gün daha da güclənir”.

Deməli, birincisi, Türkiyə üçün Azərbaycanın yerləşdiyi regionla yanaşı, ondan kənarda da qazandığı uğurlar qürur mənbəyidir və fəaliyyətində ona böyük önəm verir, ikincisi, Türkiyə konkret strateji layihələr həyata keçirməklə Azərbaycanla strateji müttəfiqliyinə regional miqyasla yanaşı, daha geniş geosiyasi məkanda yeni məna çalarları əlavə edir. Bunlar birlikdə iki qardaş ölkə arasındakı münasibətləri “müstəsna edir”!

## Məhəmməd Şahbaz Şərif: “Bacarıqlı diplomatiyanız sayəsində sülhü qazandınız”

Qardaş Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif nitqində vurğulayıb: “Qarabağda möhtəşəm hərbi Qələbəni qazandıqdan sonra, cənab Prezident, Siz indi də bacarıqlı diplomatiyanız sayəsində sülhü qazandınız. ... beş il əvvəl Azərbaycanın cəsur oğulları əziz qardaşım Prezident İlham Əliyevin qətiyyətli və uzaqgörən rəhbərliyi ilə tarixi mübarizəyə qalxdılar. Bütün dünya təəccüblə onun şahidi oldu ki, Azərbaycanın cəsur Silahlı Qüvvələri öz ata-baba yurdlarının tacı olan Qarabağı azad etdi. Torpaqların azadlığı uğrunda bütün mübarizə dövründə Pakistan qardaş Azərbaycanın yanında bir qaya kimi dayandı. Bundan sonra da belə olacaq”.

Məhəmməd Şahbaz Şərif postmüharibə mərhələsində Azərbaycan Prezidenti İlham Əliyevin siyasi-diplomatik fəaliyyətinin konkret məzmun aldığını və xüsusi məqsəd daşıdığını ifadə edib. Həmin siyasətin məzmunu Azərbaycanın regional təsirini artırmaqla dövlətlərarası münasibətləri yeni səviyyəyə yüksəltməkdən ibarətdir. Məqsəd isə Cənubi Qafqazda davamlı (qalıcı) sülhü bərqərar etməklə bağlıdır.

## “3+3”: üç liderin təhlükəsizliyə vahid baxışı

Cənubi Qafqazda regional təhlükəsizliyin arxitekturasında “3+3” əsas yeri tutur. Deməli, bu regionda təhlükəsizliklə əlaqəli hər hansı nümunədən danışarkən, ilk növbədə, məhz həmin format nəzərə alınmalıdır. Vətən müharibəsində Qələbənin beş illiyi münasibətilə hərbi paradda çıxışları zamanı Azərbaycan, Türkiyə və Pakistanın dövlət başçıları Cənubi Qafqazda təhlükəsizliyin təminində ortaq mövqedə olduqları bir neçə məqamı ifadə ediblər. Onlar aşağıdakı tezislərdə öz əksini tapıb:

- *Cənubi Qafqazda regional təhlükəsizliyin təminində yeni mərhələ Azərbaycanın Vətən müharibəsində əldə etdiyi tarixi Qələbədən başlayıb;*

- *Yeni təhlükəsizlik arxitekturasının formalaşmasında aparıcı rolu Azərbaycan oynayır;*

- *Türkiyə və Pakistan bu prosesi tam dəstəkləyir ki, bu da Azərbaycanın nüfuzetmə potensialını dəfələrlə artırır.*

Bu tezislərin fonunda Azərbaycanın üstünlük verdiyi “3+3” təhlükəsizlik və əməkdaşlıq formatının hansı məzmun aldığı məsələsinə diqqət yetirmək olar.

“3+3”ün region dövlətləri Azərbaycan, Gürcüstan və Ermənistandır. Onları təhlükəsizliyin təmini və əməkdaşlıq kontekstində üç böyük dövlət – Rusiya, Türkiyə və İran “əhatə edir”. Bəs bu formata Azərbaycan-Türkiyə-Pakistan əməkdaşlıq formulu necə daxil ola bilər? Bunun üçün real geosiyasi zəmin mövcuddurmu? “3+3”ün bir sıra xüsusiyyətlərinə hərbi paradda irəli sürülən tezislər kontekstində nəzər salmaq mümkündür.

## Pakistan gücləndirici faktor kimi: “3+3” daxilində yeni “üçbucaq”

Özlüyündə regional təhlükəsizlik arxitekturası baxımından coğrafi olaraq uzaqda yerləşən bir dövlətin prosesə daxil olması sadə ideya deyildir. Burada fərqləndirici cəhət Pakistanın “3+3”də ciddi yer tutan iki dövlətlə – Azərbaycan və Türkiyə ilə strateji tərəfdaş olması ilə bağlıdır. Bu baxımdan həmin təhlükəsizlik formulu çərçivəsində Azərbaycan-Pakistan-Türkiyə “mini-əməkdaşlıq formatı” yaranır.

Şərti olaraq “əməkdaşlıq üçbucağı” adlandırdığımız həmin format çərçivəsində Pakistan “3+3”ə yeni tərəf-dövlət kimi deyil, regional təhlükəsizliyi gücləndirəcək və eyni zamanda, həmin formulun təhlükəsizlik şərtlərindən zərrə qədər də kənara çıxmayacaq gücləndirici faktor olaraq daxil ola bilər. Başqa sözlə desək, Cənubi Qafqazda Pakistanın hərbi gücü Azərbaycan-Türkiyə strateji müttəfiqliyinin məntiqində “əriyərək” ortaq konstruktiv gücə töhfə verəcək.

Bu məqam, ümumiyyətlə, müasir geosiyasi proseslərdə müşahidə olunan yeni regionlaşma tendensiyası üçün bir qədər fərqli yanaşmanı ifadə edir. Bəlkə də ikinci belə praktika mövcud deyildir. Bütün hallarda hərbi parad Cənubi Qafqazın təhlükəsizlik arxitekturasının yeni özəlliyi baxımından “Pakistan sürprizi”ni ortaya qoydu! Bununla da parad mühüm tarixi hadisəyə çevrildi. Onun təsir dairəsi milli sərhədləri aşır. Bu kontekstdə, məsələn, Rəcəb Tayyib Ərdoğanın aşağıdakı tezisi olduqca maraqlıdır: “Azərbaycanın sarsılmaz dəstəyi ilə Şimali Kipr Türk Respublikasının Türk dünyası içərisindəki mövqeyinin güclənməsini arzu edirəm”.

Əlbəttə, bu tezis də bir fraqmentdir. Böyük mənada isə Azərbaycan mərkəzi mövqedədir!

***Kamal ADIGÖZƏLOV***

# QHT-lərin vətəndaş cəmiyyəti quruculuğu

**Prezident İlham Əliyevin 14 fevral 2024-cü ildə Milli Məclisdə andiçmə mərasimində bildirmişdi: “Biz bundan sonra da Azərbaycanda vətəndaş cəmiyyətinin yaradılması ilə bağlı addımlar atacağıq”. Azərbaycan Respublikasının Konstitusiyasında isə “vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq” müddəası xüsusi vurğulanıb.**



Ölkə Prezidentinin “Azərbaycan Respublikasında qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi sahəsində idarəetmənin təkmilləşdirilməsi”, “Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Nizamnaməsi”nin təsdiq edilməsi haqqında 19 aprel 2021-ci il tarixli fərmanı, Nazirlər Kabinetinin bu fərmanların icrasının təmin edilməsi ilə bağlı müvafiq qərarları QHT-lərin cəmiyyətdə yeri, rolu, vəzifələri, fəaliyyətinin tənzimlənməsi kimi məsələləri dəqiqliklə müəyyən edib. Bu hüquqi sənədlər QHT-lərin inkişafında, vətəndaş cəmiyyətinin formalaşmasında yeni mərhələnin əsasını qoydu.

Bu gün Azərbaycan QHT sektorunda böyük bir canlanma, yüksək əhvali-ruhiyyə, işgüzarlıq mühiti, proaktiv fəaliyyət müşahidə edilir. Artıq tədbir naminə tədbirlər deyil, hədəf auditoriyaya yönəlik işlər, ölçüləbilən nəticələr önə çıxır, hesabatlılıq artır. Dövlət–QHT münasibətləri “yardım modeli” çərçivəsindən çıxaraq, qarşılıqlı məsuliyyət, təsirlilik, etimad, şəffaflıq modeli üzərində qurulur. QHT Agentliyi son illər qəbul olunmuş 19 Dövlət Proqramı üzrə 67 tapşırığın icrasını 97 faiz göstərici ilə tamamlayıb və belə yüksək nəticə qurumun tarixində ilk dəfə əldə olunub. Agentlik dövlət–özəl–QHT əməkdaşlığının ilk nümunələrini yaradıb.

QHT-lərin KİV-lə əməkdaşlığının gücləndirilməsi həm də vətəndaş cəmiyyətinin inkişafına, şəffaflığın təminatına stimul verən amildir. Artıq media reyestrində adı olmayan sayt, qəzetlərin pullu xidmətlərindən imtina olunur, bu da QHT-lərin məsuliyyət hissini artıran amillərdən biri kimi təqdirəlayiqdir. QHT sektorunda aktuallıq kəsb edən çağırışlara konkret, uzunömürlü işlə cavab verilməsi ənənəyə çevrilir.

Vətən müharibəsindən sonrakı dövrdə müxtəlif beynəlxalq təşkilatların, ermənipərəst dövlətlərin ölkəmizə qarşı qərəzli yanaşmalarına operativ reaksiya, etiraz bəyanatları, qəbul edilən müraciətlərin yüzlərlə media qurumuna, ayrı-ayrı şəxslərə göndərilməsi təsirsiz qalmırdı. QHT sektorunun hazırkı fəaliyyətində şəhid ailələrinə mənəvi dəstək, mina təhlükəsinin aradan qaldırılması, işğaldan azad olunmuş ərazilərin dirçəlişi, Böyük Qayıdış proqramının icrası istiqamətində layihələr mühüm yer tutur.

Hazırkı tələbkarlıq, kəmiyyətdən keyfiyyətə keçid prosesində fəaliyyəti görünməyən, ictimai faydası olmayan QHT-lər öz-özünə sıradan çıxır, sağlamlaşdırma tədbirlərinin nəticəsi olaraq bu sektora süni axın xeyli daralıb.

QHT sektoru ölkəmizdə keçirilən beynəlxalq səviyyəli tədbirlərin də fəal iştirakçısına çevrilib. COP29 yönümlü fəaliyyətlərin Təşkilat Komitəsində QHT sektorunun xeyli nümayəndəsi təmsil olunub. COP29 dövründə 137 ölkədən BMT statuslu 1023 QHT-nin Azərbaycanın lehinə bəyanat verməsi tarixi hadisə idi.

2025-ci ilin aprelində isə Bakıda Qlobal Cənub QHT Platforması təsis olundu. Cənub QHT Platformasının yaradılmasına 116 ölkədən 120 nümayəndə şəxsən, 137 ölkədən isə 1023 nümayəndə imza ilə dəstək verib. Bu, Azərbaycan QHT-lərinə etimadın göstəricisi idi. Bakının Qlobal Cənub QHT Platformasının daimi mənzil-qərargahına çevrilməsi, rəhbərliyin Azərbaycan QHT-lərinə həvalə edilməsi tarixi nailiyyətdir. 2026-cı ilin mayında Qlobal Cənub QHT Platformasının Baş Assambleyası da Bakıda keçiriləcək.

Dövlət başçımızın qarşıya qoyduğu strateji xəttin əsasında dayanan – “Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz Türk dünyasıdır” – kəlamı QHT-lərin fəaliyyətində yeni istiqamətlər açıb. Bu ay Azərbaycanda Türk Dövlətləri Təşkilatına üzv ölkələrin QHT-lərinin Həmrəylik Forumu keçiriləcək.

QHT-lərə Dövlət Dəstəyi Agentliyi həm ölkə daxilində, həm də xaricdə kütləvi tədbirlərin bacarıqlı təşkilatçısı kimi qəbul olunur. Azərbaycan QHT-lərinin xaricdə keçirdiyi tədbirlərin sayı əvvəlki illərlə müqayisədə 4 dəfəyədək artıb. Bu günlərdə ilk dəfə BMT Baş katibi öz hesabatında “Bakı Təşəbbüs Qrupu”nun yaydığı hesabata istinad edib.

Bu gün QHT Agentliyinin fəaliyyətində süni intellekt və rəqəmsal həllər dövrünün tələblərinə müvafiq “rəqəmsal QHT” konsepsiyasının reallaşması yeni, fərqli müstəvidə iş aparılmasını, daha ciddi nəticələr əldə edilməsini, beynəlxalq ictimaiyyətin diqqətinin Azərbaycan həqiqətlərinə cəlb olunmasını, bütövlükdə regionun lider dövlətinin nüfuzuna uyğun layihələrin, tədbirlərin gerçəkləşməsini tələb edir.

Oktyabrın 20-də Xankəndidə “Konstitusiya və Suverenlik İli”nə həsr edilmiş Azərbaycan QHT-lərinin Əməkdaşlıq Forumunun iştirakçılarının Prezident İlham Əliyevə müraciətində vətəndaş cəmiyyəti təsisatlarının yeni çağırışlar dövründə dövlət başçımızın etimadına layiq olmaq üçün aydın hədəflərə aparan yolda çalışmalarını daha da gücləndirmək əzmi xüsusi vurğulanıb.

***Hacı ABDULLA,***
***tarix üzrə fəlsəfə doktoru***

# Xəzərdən Atlantikaya yeni güc axını

**(əvvəli 1-ci səhifədə)**

Lakin həmin bəyanatın strateji və uzaqgörən hissəsi Mərkəzi Asiyanın ABŞ üçün strateji prioritet bölgə olması və Vaşinqtonda keçirilən C5+1 sammitindən sonra məhz Bakıda forumun təşkil olunmasının təsadüfi olmadığına edilən işarədir. Herbstin platformanın yaxın gələcəkdə Azərbaycanın qoşulması ilə C6+1 formatına çevriləcəyini proqnozlaşdırması təkcə formatın riyazi genişlənməsi anlamını daşımır. Həmin proqnoz, əslində, ABŞ-ın bütün Xəzər–Qara dəniz hövzəsi və Mərkəzi Asiyanı əhatə edən yeni təhlükəsizlik, iqtisadiyyat arxitekturası qurduğunun və bu arxitekturanın təməl sütunu rolunun Azərbaycana həvalə etdiyinin etirafıdır. C6+1 formatının gündəmə gəlməsi Cənubi Qafqazda Zəfərlə yeni reallıqlar yaradan Azərbaycanın geostrateji çəkisinin Vaşinqton tərəfindən, nəhayət, tam miqyasda dərk edildiyini və Bakının artıq bütün geniş Avrasiya məkanının inteqrasiyasında əvəzolunmaz lider kimi qəbul olunduğunu təsdiqləyən tarixi hadisədir.

C6+1 formatı illərdir mövcud olmasına baxmayaraq, əsasən məsləhətləşmə mexanizmi, "yumşaq güc" diplomatiyası və mədəni-humanitar əlaqələrin müzakirə olunduğu platforma çərçivəsindən kənara çıxa bilmirdi. Coğrafi olaraq okeanlara birbaşa çıxışı olmayan, şimaldan Rusiya, şərqdən isə Çinlə əhatələnmiş Mərkəzi Asiya respublikaları üçün C5+1 formatı Vaşinqtonla dialoq üçün əhəmiyyətli olsa da, real geoiqtisadi və geostrateji nəticələr verməkdə çətinlik çəkirdi. Çünki Mərkəzi Asiyanın dünyaya açılan qapıları ya Moskvanın, ya da Pekinin nəzarət etdiyi kommunikasiya xətlərindən keçirdi. Bu isə region ölkələrinin xarici siyasət müstəqilliyini və iqtisadi şaxələndirmə cəhdlərini məhdudlaşdıran fundamental amil idi. Çinin "Bir kəmər, bir yol" təşəbbüsü isə iqtisadi faydalarla yanaşı, özü ilə "borc tələsi" və siyasi asılılıq risklərini gətirirdi. Məhz həmin şəraitdə Vaşinqton Mərkəzi Asiyaya münasibətdə strategiyasını kökündən dəyişdirmək və regiona real alternativ təklif etmək zərurəti ilə üzləşdi. C5+1 formatının reanimasiyası və onun daha funksional modelə çevrilməsi axtarışları da həmin zərurətdən qaynaqlandı. Lakin tezliklə aydın oldu ki, bu formatın həyat qabiliyyətli olması üçün çatışmayan fundamental element Mərkəzi Asiyanı Qərblə birbaşa, etibarlı və rəqib güclərin təsirindən azad şəkildə bağlaya biləcək coğrafi və siyasi körpüdür.

Məhz həmin strateji boşluğu Azərbaycan doldurur. Azərbaycanın C5+1 formatına potensial inteqrasiyası platformanın



mahiyyətini kökündən dəyişir və onu, sadəcə, müzakirə klubundan real geoiqtisadi və geostrateji təsir gücünə malik mexanizmə çevirir. Azərbaycanın platformaya qoşulması Mərkəzi Asiyanı Qərbə açan yeganə etibarlı və təhlükəsiz qapını təmin edir. Xəzər dənizi vasitəsilə Qazaxıstan, Türkmənistan limanlarına çıxan yüklər Bakı limanı və Azərbaycanın müasir dəmir yolu infrastrukturu vasitəsilə Gürcüstan, Türkiyəyə, oradan isə Avropa bazarlarına çatdırılır. 44 günlük Vətən müharibəsindəki Zəfər və işğala son qoyulması təkcə regional təhlükəsizlik məsələsi olmayıb, həm də bütün Avrasiyanın nəqliyyat xəritəsini dəyişdirən tarixi hadisə idi. Zəngəzur dəhlizinin açılması perspektivi isə Orta Dəhlizin potensialını dəfələrlə artıracaq və onu Çindən Avropaya qədər uzanan ən səmərəli marşruta çevirəcək. Tramp administrasiyasının Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanmasına xüsusi diqqət yetirməsinin arxasında dayanan əsas strateji məntiq məhz bu dəhlizin geosiyasi və iqtisadi əhəmiyyətidir. Sülh sazişi təkcə iki ölkə arasında münasibətləri normallaşdırmayacaq, həm də ABŞ-ın Mərkəzi Asiya siyasətinin şah damarı olan Orta Dəhlizin tam gücü ilə işləməsini təmin edəcək.

Azərbaycan onilliklərdir Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində həlledici rol oynayır. Bakı–Tbilisi–Ceyhan neft kəməri, Cənub Qaz Dəhlizi, TANAP və TAP kəmərləri ilə birlikdə Xəzərin enerji resurslarını birbaşa dünya bazarlarına çıxaran layihələrdir. Həmin infrastruktur gələcəkdə Trans-Xəzər kəməri vasitəsilə Türkmənistan və Qazaxıstan qazının da Avropaya nəqli üçün hazır platformadır. Bundan əlavə, Azərbaycan yaşıl enerji sahəsində də regional liderə çevrilməkdədir. Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında imzalanmış yaşıl enerjinin Qara Dənizin dibi ilə çəkiləcək kabel vasitəsilə Avropaya ixracını nəzərdə tutan layihə Azərbaycanın bərpaolunan enerji mənbələri sahəsində Avropa üçün nə qədər əhəmiyyətli olduğunu göstərir. C6+1 formatı ABŞ-ın dəstəyi ilə Mərkəzi Asiyanın zəngin enerji potensialını Azərbaycanın mövcud və gələcək infrastrukturu vasitəsilə Qərb bazarlarına inteqrasiya etmək üçün misilsiz imkanlar yaradır.

Azərbaycanın müasir ordu quruculuğu təcrübəsi hərbi sənaye kompleksinin inkişafı və hibrid müharibə şəraitində qazandığı unikal təcrübə C6+1 formatı çərçivəsində təhlükəsizlik sahəsində əməkdaşlıq üçün mühüm əsaslar yaradır. Vaşinqton anlayır ki, Mərkəzi Asiyada dayanıqlı sabitliyin təminatı üçün region ölkələrinin təhlükəsizlik potensialını artırması şərtdir və bu işdə Azərbaycanın təcrübəsi əvəzolunmazdır. Azərbaycan Mərkəzi Asiya ilə Türkiyə arasında təbii coğrafi və mədəni körpü rolunu oynayaraq regionun Qərb dünyasına inteqrasiyasını sürətləndirə bilər.

Donald Trampın özünü "sülh təsisçisi" kimi təqdim etməsi onun xarici siyasətinin sövdələşməyə əsaslanan mahiyyətindən irəli gəlir. Tramp üçün münaqişələrin həlli ABŞ-ın konkret iqtisadi və strateji maraqlarını təmin edən nəticələr əldə etmək vasitəsidir. Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanması təkcə Cənubi Qafqazda sabitliyin bərqərar olması demək deyil. Həmin saziş yuxarıda qeyd olunduğu kimi, bütün Avrasiyanı əhatə edən daha böyük strateji dizaynın – C6+1 formatının və onun əsasını təşkil edən Orta Dəhlizin işə düşməsi üçün həlledici şərtdir. Bakıda forumun keçirilməsi və Azərbaycanın platformaya inteqrasiyası Tramp administrasiyasının məhz həmin nəticəni əldə etmək üçün diplomatik səylərini intensivləşdirdiyini göstərir. Vaşinqton dərk edir ki, C5+1 formatının uğuru birbaşa Azərbaycanın həmin prosesdə iştirakından asılıdır.

C6+1 formatının gündəmə gəlməsi ABŞ-ın Avrasiya siyasətində baş verən paradiqma dəyişikliyinin ən bariz göstəricisidir. Köhnə, qeyri-effektiv dialoq formatları yerini konkret geoiqtisadi layihələrə və strateji hədəflərə söykənən yeni əməkdaşlıq arxitekturasına verir. Həmin yeni arxitekturanın mərkəzində coğrafi mövqeyi, enerji və nəqliyyat infrastrukturu, hərbi-siyasi gücü və balanslı xarici siyasəti ilə Azərbaycan dayanır. Con Herbstin bəyanatı Vaşinqtonun Azərbaycanı Mərkəzi Asiya və Cənubi Qafqazı vahid strateji məkanda birləşdirən əvəzolunmaz regional güc kimi qəbul etdiyini nümayiş etdirir. Prezident Trampın "sülh təsisçisi" missiyası çərçivəsində Azərbaycan–Ermənistan nizamlanmasına verdiyi önəm bütün Avrasiyanın gələcək inkişaf vektorunu müəyyən edəcək qlobal əhəmiyyətli prosesin tərkib hissəsidir. Azərbaycan həmin tarixi prosesdə layiqli yerini tutaraq XXI əsrin qlobal geosiyasi nizamının formalaşmasında həlledici rol oynayan dövlətlərdən birinə çevrilir.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# "Müqəddəs elita" sindromu Parisi ələ keçirir

## *Fransanın ədalət sistemi siyasi çəkili fiqurlara selektiv yanaşır*



**Fransanın sabiq prezidenti Nikola Sarkozi həbs olunduqdan cəmi 3 həftə sonra məhkəmə nəzarəti ilə azad edilib. Ona ölkəni tərk etmək qadağan olunub. Bundan öncə korrupsiya və qanunsuz seçki maliyyələşdirməsi ilə bağlı ayrıca ittihamlardan bəraət alan eks-prezident Parisdəki "La Sante" həbsxanasına göndərilmişdi. Həbsxanadan videobağlantı edən Sarkozi siyasi qisasın hədəfi olduğunu vurğulamışdı: "Yetmiş yaşımda həbsxana həyatı yaşayacağımı heç vaxt təsəvvür etməzdim. Bu sınaq mənə məcburən yaşadıldı və bunun öhdəsindən gəldim. Çətindir, çox çətindir. Hətta deyərdim ki, əzabvericidir. Heç vaxt etmədiyim bir işə görə etiraf etməyəcəyəm".**

50 dəqiqəlik dinləmə zamanı sabiq prezident bütün ittihamları rədd edib. Azadlığa buraxılma şərtlərinə əsasən, sabiq prezidentə ədliyyə naziri Jerald Darmanenlə əlaqə saxlamaq qadağan edilib. Fransa qanunvericiliyinə görə, təqsirləndirilən şəxslər yalnız qaçma riski və ya ictimai asayiş üçün təhlükə yaratdığı halda apellyasiya müddətində həbsdə saxlanılır. Xatırlatmaqda fayda var ki, prokurorlar Sarkozini seçki kampaniyası üçün maliyyə dəstəyi müqabilində Qəddafinin beynəlxalq imicinin bərpasına yardım göstərməkdə ittiham edirlər. Həmin dövrdə Liviya 1988-ci ildə təşkil etdiyi Lokkerbi faciəsinə (sərnişin təyyarəsinin partladılması nəticəsində 270 nəfər həyatını itirib) görə sərt şəkildə qınanılırdı. Məhkəmə Sarkozinin maliyyə əldə etmək üçün kriminal sui-qəsd qurduğunu müəyyənləşdirsə də, bu vəsaiti şəxsən aldığını, 2007-ci il kampaniyasında istifadəsini sübuta yetirə bilməyib. Keçmiş dövlət başçısı hazırda, guya, şahidlərə təsir göstərmək ittihamı ilə rəsmi istintaq altındadır.

Sarkozinin azadlığa buraxılması ölkədə geniş rezonans doğurub. Hadisə uzun illərdir "qüsursuz hüquqi model" kimi təqdim olunan Fransanın ədalət sistemindəki çatları, siyasi elitanın məsuliyyətdən yayınmaq vərdişlərini və demokratiyanın mahiyyətindəki ikili standartları bir daha üzə çıxarıb. Eks-prezidentin siyasi karyerası boyu buraxdığı səhvlər, o cümlədən korrupsiya ittihamları, Qəddafi rejimi ilə gizli razılaşmalar göstərir ki, bu ölkədə şəxsi mənafe bəşəri dəyərlərdən üstün tutulur. Görünür, dövlət qurumları qarşısında bərabərlik prinsipi deklarativ xarakter daşıyır, "müqəddəs elitanın" toxunulmazlığı hələ də qorunur. Qeyd etdik ki, qanuna görə, apellyasiyaya verilmiş şəxslər qaçma riski olmadığı halda azad edilə bilər. Bu, uzun illərdir yüksək vəzifəli fiqurlar üçün "norma" kimi tətbiq olunur. Daha dəqiq desək, aşağı təbəqədən olan vətəndaşlara sərt tətbiq edilən qaydalar elita üçün yumşaldılır. Özünü "qanunun aliliyinin mərkəzi" kimi təqdim edən ölkədə məhkəmə sisteminin belə asanlıqla siyasi jestlərə uyğunlaşması cəmiyyətin hökumətə olan etimadına xələl gətirir. Eyni zamanda, Fransa məhkəmə sisteminin uzun illərdir şəffaflıqdan uzaq fəaliyyəti, hakimlərin geniş diskresiya səlahiyyətinə malik olması və prokurorluğun bəzi hallarda siyasi hakimiyyətlə əlaqələri ədalət prinsipini formal prosedura çevirir. Şübhəli korrupsiya işlərinin çoxunun illərlə dondurulmuş vəziyyətdə qalması, rəsmi dairələrin toxunulmazlıq çərçivəsində müdafiə olunması da problemin genişmiqyaslı olduğunun əyani sübutudur. Bu gün Fransa cəmiyyətində davam edən narazılıqlar, sarı jiletlər hərəkatı, sosial böhranlar, polis zorakılığına qarşı aksiyalar məhz hökumətin "müqəddəs elita" sindromunun nəticəsidir. Sarkozinin işi ətrafında baş verənlərə ictimai reaksiya göstərir ki, xalq siyasi elitanın davranışını daha əvvəlki kimi susaraq qəbul etməyəcək. Hazırda Sarkozinin azadlığa buraxılması hüquqi arqumentlərlə əsaslandırılsa da, hadisənin rezonansı qərarın qərəzli qəbul edildiyini düşünənlərin sayını artırıb.

**ARAYIŞ:** *"Fransa İctimai Rəy İnstitutu"nun (IFOP) keçirdiyi sorğunun nəticələrinə görə, fransızların 73 faizi, gənc respondentlərin isə 82 faizi Sarkozinin azadlığına qarşıdırlar. Onlar hesab edirlər ki, bundan sabiq prezidentin siyasi səhnəyə geri dönməsi üçün istifadə oluna bilər. "Fransa Televiziyası 1" (TF1) tərəfindən aparılan sorğuya əsasən, əhalinin 64 faizi Sarkozinin "siyasi qurban" arqumentini qəbul etmir, hüquq sisteminin elitaya yumşaq davranmasını pisləyir.*

Bütün narazılıqların müqabilində Fransa məhkəmə sistemi əhəmiyyətli ictimai fiqurların həbsdə qalmasının cəmiyyət üçün destabilizasiya riski yaratdığı barədə köhnəlmiş yanaşmanı hələ də tətbiq edir. Sarkozinin həbsdən azad edilməsi bir çoxlarına "Fransada həbs siyasəti daha çox simvolik məna daşıyır" düşüncəsini xatırladır. Ehtimal ki, üç həftəlik qısa həbs cəzası, sadəcə, cəmiyyətin qəzəbini yumşaltmaq, siyasi elitanın toxunulmazlığını tam şəkildə sarsıtmadan prosesi balanslaşdırmaq məqsədi daşıyırdı.

Yeri gəlmişkən, Nikola Sarkozi həm də beynəlxalq platformalarda qeyri-obyektiv mövqeyi ilə tanınır. Onun anti-Azərbaycan ritorikası bunun aydın nümunələrindən biridir. Sabiq prezident 2010–2012-ci illərdə Fransa–Azərbaycan münasibətlərinin pozulmasında əsas fiqurlardan biri olub. Ermənistanın işğalçı siyasətinə baxmayaraq, o, Parisin Cənubi Qafqaz siyasətində bitərəfliliyin memarına çevrilmişdi. Ermənipərəst dairələrin təsirinə açıq olan sabiq prezident ATƏT-in keçmiş Minsk qrupundakı Fransa nümayəndəliyinin balanssız fəaliyyətini dəstəkləmiş, regionda status-kvonun qorunması üçün zəruri olan siyasi blokları gücləndirmişdi. Sarkozinin dövründə Fransa parlamentində anti-Azərbaycan qətnamələrinin sayının artması, işğal faktının gözardı edilməsi də təsadüfi deyildi. Sarkozi üçün Cənubi Qafqaz başlıca olaraq Parisin İrəvanla münasibətlərinin davam platforması idi. Bu isə Fransa diplomatiyasının obyektivlik prinsipinə zidd olmaqla yanaşı, Avropanın təhlükəsizlik arxitekturasına da zərbə vururdu. Buradan bir daha bəlli olur ki, əslində, Sarkozinin davranışları Fransanın siyasi elitası üçün xarakterik olan tendensiyanı nümayiş etdirir. Makron hakimiyyətinin yürütdüyü siyasətdə də bu sistemdəki köhnə aristokratik yanaşmanın qalıqları müşahidə olunur.

Sonda qeyd edək ki, Parisin illərlə dünyaya dərs keçdiyi "müstəqil hüquq sistemi"nin, əslində, siyasi elitanın maraqlarına uyğun hərəkət etməsi Sarkozi məsələsi ilə təsdiqləndi. Əgər sabiq prezident qanunun qarşısında imtiyazlı mövqeyini qoruyursa, o zaman Fransa cəmiyyətinin illərdir tələb etdiyi real bərabərlik siyasi ritorika kimi qalacaq. Vəzifəsi bitən prezident bir vətəndaş kimi məsuliyyət daşıyırmı? Bu sualı cavablamadan Fransa nə daxildə sosial etimadı bərpa edə, nə də beynəlxalq arenada "demokratiyanın beşiyi" kimi iddiasını davam etdirə bilər. Rəsmi Parisin iki seçimi var: hökumət ya köhnə sistemin çatlamış sütunlarını yamayıb eyni təcrübəni davam etdirəcək, ya da siyasi toxunulmazlığı sona çatdırıb hüququn həqiqi mənada üstün olduğu yeni bir mərhələyə keçəcək.

***Nəzrin ELDARQIZI***
***XQ***

### *Ekspert rəyi*



**Xəyal BƏŞİROV,**
**Siyasi və Hüquqi Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq**

Bu yaxınlarda Fransanın sabiq prezidenti Nikola Sarkozinin 5 il müddətinə azadlıqdan məhrum edilməsi və cəzasını təkadamlıq kamerada çəkməsi barədə "şou"ya şahidlik etdik. Şübhəsiz, bu addım siyasi xarakter daşıyırdı. Onun Liviyadan böyük məbləğdə rüşvət alması və bunu seçki kampaniyasına xərcləməsi barədə ciddi iddialar mövcuddur. Bu hallar həmin dövrdə keçirilən seçkiləri, onların nəticələrini və dövlət rəhbərinin fəaliyyətini şübhə altına salır. Hadisə, eyni zamanda, Fransa dövlətinin beynəlxalq aləmdəki nüfuzuna ciddi zərbə vurdu. Ümumiyyətlə, Liviyada baş verən proseslər və "Ərəb baharı"nın ölkəyə təsiri Fransa dövlətinin və rəhbər şəxslərin ikili siyasətini bir daha ortaya qoydu. Bu imici dəyişdirmək üçün Fransa belə bir "şou" təşkil etdi, lakin məhkəmə qərarı ilə Sarkozi azadlığa buraxıldı. Bu, həm Fransa hüquq sisteminin mahiyyətini, həm də şəxsi mənafeyə uyğun yanaşmanın mövcudluğunu göstərdi.

Bütün proseslərə eyni prizmadan yanaşmaq vacibdir. Lakin bəzi dövlətlərdə bu prinsiplər yalnız sözdə qalır. Fransa nümunəsində isə bu addımı "qaş düzəltmək əvəzinə göz çıxarmaq" kimi qiymətləndirmək olar. Bir tərəfdən görüntü yaradılır ki, Fransız hüquq sistemi ədalətlidir və hətta dövlətə rəhbərlik etmiş şəxsə qarşı da ədalətli davranır. Lakin proseslərin sonunda Sarkozi həbsdən azad olundu və bu, gizli şəkildə həyata keçirildi. Beləliklə, özünü "demokratiya bələdçisi" kimi qələmə verən Fransanın daxildə də ikili standartlar tətbiq etdiyini açıq şəkildə gördük.

# Azərbaycan-ABŞ Beyin Mərkəzlərinin birinci Forumunda Vaşinqton sammiti müzakirə olunub







**Bakıda Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin təşkilatçılığı ilə "Ortaq baxışlar: Strateji tərəfdaşlıq naminə Azərbaycan-ABŞ dialoqu" mövzusuna həsr edilən Azərbaycan-ABŞ Beyin Mərkəzlərinin birinci Forumu keçirilir.**



Açılışda Fərid Şəfiyev çıxış edərək forumun əhəmiyyətindən danışıb. O vurğulayıb ki, 8 avqust görüşü Azərbaycan-ABŞ əməkdaşlığı üçün yeni imkanlar açır. Son 30 il ərzində əməkdaşlığımız əsasən enerji sektorunda olub, lakin hazırda digər sahələrdə də tərəfdaşlıq üçün geniş perspektivlər mövcuddur.

ADA Universitetinin rektoru Hafiz Paşayev qeyd edib ki, səfirlərimiz Beyin Mərkəzləri ilə bağlı müzakirələri diqqətlə izləməlidir. "Vaşinqtona getdiyim ilk gündən ABŞ-da gördüyüm çoxsaylı maraqlı məqamlar diqqətimi çəkib. Məni ən çox təəccübləndirən isə Beyin Mərkəzlərinin geniş şəbəkəsi və onların intensiv fəaliyyəti olub. Həmin illər ərzində yeni dostlar qazandığımı və müxtəlif ölkələrin ABŞ-da özlərini necə təqdim etdiklərini xatırlayıram", - deyə H.Paşayev vurğulayıb.

Atlantik Konsul Beyin Mərkəzinin Avrasiya şöbəsinin Baş direktoru Con Herbst bildirib ki, ilk Azərbaycan-ABŞ Forumunun keçirilməsi gələcəkdə genişlənən əməkdaşlığa, Bakı-Vaşinqton qarşılıqlı işbirliyinə töhfə verəcək. "Azərbaycan Prezidenti İlham Əliyev və ABŞ Prezidenti Donald Tramp arasında keçirilmiş görüşlərin nəticələri həm Azərbaycan, həm də regionun qonşu dövlətləri üçün olduqca uğurlu hesab edilir. ABŞ-Azərbaycan münasibətlərində dönüş nöqtəsi isə Prezident İlham Əliyev, Prezident Donald Tramp və Baş nazir Nikol Paşinyan arasında imzalanan vacib sənəd oldu. Bu, Ermənistan ilə Azərbaycan arasında sülh sazişinin imzalanması üçün mühüm bir zəmin yaradıb", - deyə Con Herbst əlavə edib.

Daha sonra "AnewZ" media qurumunun baş redaktor müavini Orxan Amaşovun moderatorluğu ilə keçirilən sessiyada "Vaşinqton sammitinin qiymətləndirilməsi və ABŞ-Azərbaycan əlaqələrinə təsiri" mövzusu müzakirə olunub.

Avrasiya Təhlükəsizlik və Rifah Proqramının Baş direktoru Kamran Bokhari Cənubi Qafqazda güclər balansının ciddi şəkildə dəyişdiyinə diqqət çəkib: "Azərbaycanın müharibədə qazandığı Zəfər regionda yeni reallıqlar yaradıb. Artıq Cənubi Qafqaz özü geniş geosiyasi dəhlizə çevrilə biləcək potensiala malikdir. Bu isə olduqca mühüm məsələdir".

Milli Məclisin deputatı Fariz İsmayılzadə bildirib ki, ABŞ-ın Xəzər regionuna artan marağı müşahidə edilir. Vaşinqton sənədlərinin imzalanması ABŞ-ın artan marağının çox mühüm bir mərhələsi olub. "Artıq ikitərəfli dialoqda dinamika var. Azərbaycanda iqtisadiyyatın digər sahələrinə, o cümlədən bərpaolunan enerji, nəqliyyat-logistika, texnologiyalar sahələrinə sərmayə, yeni gəlir gətirə biləcək istiqamətlərə diqqət yetirir. Düşünürəm ki, burada ABŞ-ın rolu çox vacib ola bilər. Burada ABŞ texnologiyasını, texnologiyaların transferini, investisiyaları nəzərdə tuturam".

Cənubi Qafqaz Tədqiqatlar Mərkəzinin sədri Fərhad Məmmədov isə ABŞ-ın sabiq Prezidenti Co Bayden administrasiyasının fəaliyyətini xatırladaraq bildirib: "Baydenin regionla bağlı apardığı siyasət gözlənilən nəticələri vermədi". F.Məmmədov Tramp administrasiyasının məsələyə daha hüquqi balansla yanaşdığını qeyd edib.

Sessiya müzakirələrlə davam edib.

***

**Forum çərçivəsində "Vaşinqton sammitindən sonra Azərbaycan-Ermənistan sülh prosesi" mövzusunda da müzakirələr aparılıb.**

BMTM-in baş məsləhətçisi Yunis Qurbanovun moderatorluğu ilə keçirilən sessiyada son dövrdə baş verən geosiyasi dəyişikliklərin Cənubi Qafqaz və qonşu regionlarda qüvvələr balansına təsiri təhlil olunub.

Sessiyada çıxış edən "New Lines Institute"nun Analitik İnkişaf və Təlim üzrə baş direktoru Eugene Çausovski bildirib ki, geosiyasi kontekstdən başlamaq zəruridir, çünki Azərbaycan-Ermənistan sülh prosesində yalnız regional deyil, həm də qlobal güclər maraqlıdır. O qeyd edib ki, "Tramp marşrutu" (Zəngəzur dəhlizi) və enerji sahəsinin inkişafı Tramp administrasiyası tərəfindən dəstəklənən vacib təşəbbüslərdən biridir.

Atlantik Şuranın qeyri-rezident baş elmi işçisi və geosiyasi analitik Rich Outzenin fikrincə, ABŞ Prezidenti Donald Trampın qısa müddətdə əldə etdiyi nəticələr olduqca unikaldır. Mərkəzi Asiya-Qafqaz İnstitutunun (CACI) Avrasiya üzrə baş elmi işçisi Con DiPirro deyib ki, hazırda bir çox mühüm geosiyasi dəyişikliklərin baş verdiyini görürük. Cənubi Qafqaz Mərkəzi Asiya ilə Avropa arasında strateji körpü rolunu oynayır. O, həmçinin qeyd edib: "Əgər prosesi təhlil etsək, görərik ki, belə bir arxitekturanın formalaşması və davamlı olması üçün əvvəlcə TRIPP marşrutu inkişaf etdirilməlidir".

ADA Universitetinin Tədris işləri üzrə prorektorunun müşaviri, dosent Anar Vəliyevin sözlərinə görə, Azərbaycanın Orta Dəhlizin mərkəzində yerləşməsi ölkəyə regional logistika və iqtisadi layihələrdə daha fəal iştirak imkanı yaradır.

Topçubaşov Mərkəzinin direktor müavini Murad Muradov isə deyib ki, yeni dünyamızda əvvəlki yanaşmalar artıq səmərəli olmur, çünki qlobal reallıqlar və geosiyasi çağırışlar yeni strategiyalar və fərqli baxışlar tələb edir. Keçmişin modelləri bu günün dinamik və mürəkkəb dünyasında işləməyəcək. Bu baxımdan, Vaşinqton sammiti xüsusi əhəmiyyət kəsb edir. O, özlüyündə böyük bir uğurun və irəliləyişin nümunəsi kimi qiymətləndirilə bilər.

Sessiya işini mövzu ətrafında müzakirələrlə davam etdirib.

***

**Forum çərçivəsində "Enerji təhlükəsizliyi və bağlantılar" mövzusunda da müzakirələr aparılıb.**

ADA Universitetinin Siyasi tədqiqatlar, təhlil və nəşrlər üzrə direktoru Damjan Krnjevic Miškovicin moderatorluğu ilə keçirilən sessiyada Azərbaycanın enerji dəhlizləri, nəqliyyat marşrutları və formalaşan rəqəmsal şəbəkələr vasitəsilə Mərkəzi Asiya ilə Avropanı birləşdirən əsas rolu təhlil olunub.

Sessiyada çıxış edən Amerika Enerji Təhlükəsizliyi Təşəbbüsünün baş elmi işçisi və direktoru Brigam Makkoun (Brigham McCown) qeyd edib ki, qlobal enerji layihələrində ABŞ kimi dövlətlərin etimadını qazanmaq asan deyil. Lakin ABŞ-ın Trans-Xəzər nəqliyyat marşrutuna xüsusi maraq göstərməsi də məhz Azərbaycanın etibarlı tərəfdaş kimi formalaşması ilə bağlıdır.



İqtisadi və Sosial İnkişaf Mərkəzinin sədri Vüqar Bayramov qeyd edib ki, enerji təhlükəsizliyi region üçün strateji əhəmiyyət daşıyır. Cənub Qaz Dəhlizi Azərbaycan qazını Avropaya çatdıran və Avropanın enerji şaxələndirməsinə töhfə verən əsas xətdir. Bu dəhlizdən həm Azərbaycan, həm Avropa ölkələri, həm də tranzit iştirakçılar kifayət qədər faydalanır. Sülh razılaşması və sabitlik isə bu və digər enerji layihələrinin daha dayanıqlı şəkildə inkişafına imkan verəcək.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı deyib ki, Azərbaycan bu sinxron marşrut boyunca infrastrukturun yenilənməsinə rəhbərlik edir. Lakin biz anlayırıq ki, hər bir zəncir ən zəif halqası qədər möhkəmdir. Buna görə də infrastrukturun sinxron şəkildə yenilənməsi çox vacibdir.

"Danube Institute US"nin tədqiqat direktoru Carlos Roa enerji, texnologiya və kritik resurslara böyük tələbatın olduğuna diqqət çəkib. BMTM-in şöbə müdiri Şahmar Hacıyev isə qeyd edib ki, Azərbaycan bu prosesin mərkəzində dayanır və regionda strateji əhəmiyyətə malik bir enerji qovşağı funksiyasını daşıyır.

Sessiya müzakirələrlə davam edib.

***XQ***

# Gürcüstan – Aİ münasibətlərində gərginliyin son həddi

## *Zaman keçdikcə "qoca qitə"nin Tbilisiyə təzyiq imkanları zəifləyir*

**Avropa Komissiyası Gürcüstanı Brüsseldə keçirilən Aİ-nin genişlənmə forumuna dəvət etməyib. Dünən keçirilən bu tədbirdə vizasız rejimin dayandırılması prosedurunun sadələşdirilməsi müzakirə olunub.**





Avrokomissiyanın nümayəndəsi Giyom Mersye bildirib ki, Gürcüstan artıq yalnız "nominal namizəd" hesab olunur və ölkə demokratik normalardan, Avropa dəyərlərindən uzaqlaşır. Onun sözlərinə görə, Avrop İttifaqına (Aİ) üzvlük üçün tələb olunan islahatlardan geri addımlar atılır, demokratiyanın durumu isə pisləşib. Məhz buna görə Brüssel Gürcüstan hökuməti ilə siyasi təmasları minimuma endirib.

Qeyd olunur ki, 2024-cü ildə Gürcüstanın Aİ-yə üzvlüyü ilə bağlı danışıqlara başlamamaq qərarı Avropa inteqrasiyasından açıq uzaqlaşma kimi qəbul edilib. Bu addım həm Gürcüstan vətəndaşlarının Avropayönlü istəyinə, həm də Konstitusiyada əks olunan öhdəliklərə zidd sayılır. Hadisələrin fonunda Aİ-nin Gürcüstana təzyiq məqsədilə vizasız rejim üzrə yeni mexanizm tətbiq edə biləcəyi də istisna edilmir.

Beləliklə, Qərbin narazılığı bir neçə istiqamətdə cəmlənib. Birincisi, demokratik institutlarda geriləmə və son illər qəbul olunan bir sıra qanunların, o cümlədən "xarici agentlər" mahiyyəti daşıyan sənədlərin Avropa dəyərləri ilə uyğun gəlməməsidir. İkincisi, hökumətin Avropa təşkilatları ilə dialoqu məqsədli şəkildə zəiflətməsi, tənqidlərə sərt reaksiya verməsi və buna paralel olaraq daxili siyasi rəqiblərə qarşı sərtləşən təzyiq metodlarıdır. Üçüncüsü isə, Avropa Komissiyanın qeyd etdiyi antiAvropa xarakterli ritorikanın dövlət səviyyəsində normal hal almasıdır.

Brüssel üçün bu vəziyyət, sadəcə, fikir ayrılığı deyil, Gürcüstan hakimiyyətinin strateji istiqamət seçimində əsaslı dəyişiklik kimi dəyərləndirilir.

Bəli, rəsmi Tbilisi tamamilə fərqli mövqe sərgiləyir. Gürcüstan Xarici İşlər Nazirliyi bu açıqlamaları qərəzli adlandırır. Nazirliyin mövqeyinə görə, Gürcüstanın fəaliyyəti barədə əsassız neqativ qiymətləndirmələr verilir, Nazirlik hesab edir ki, Aİ Gürcüstanın üzvlüyü məsələsindən siyasi təzyiq vasitəsi kimi istifadə edir.

Hakimiyyətin vurğuladığına görə, Aİ-nin Gürcüstanla bağlı hesabatları qərəzlidir, ölkənin real vəziyyəti obyektiv göstərilmir və tənqidlər siyasi sifariş elementləri daşıyır. Bununla bağlı Baş nazir İrakli Kobaxidzenin açıqlaması da maraqlıdır. Baş nazir deyib ki, müəyyən "bürokratlar" Gürcüstanda "Kollektiv Milli Hərəkat"ın hakimiyyətə qayıtmamasını qəbul edə bilmir. Bu səbəbdən cəmiyyəti şantaj altında saxlamağa çalışırlar. Kobaxidze hesab edir ki, bu yanaşma effektiv deyil və Aİ sonda daha praqmatik qərar verəcək. Onun sözlərinə görə, kimsə belə siyasətlə nəyəsə nail olacağını və "Kollektiv Milli Hərəkatı" yenidən hakimiyyətə gətirəcəklərini düşünürsə, yanılır, bu, alınmayacaq.

Parlament sədri Şalva Papuaşvili də oxşar mövqe sərgiləyir. O bildirib ki, Brüssel Gürcüstandakı maliyyə xərclərinin şəffaflığının tələb olunmasına görə Gürcüstanın qarşısında yeni maneələr yaradır. Papuaşvili bunu Aİ-də "dəyər böhranı" kimi dəyərləndirir və qaydaların ayrı-ayrı ölkələrə uyğunlaşdırılmasını antidemokratik addım adlandırır. O, həmçinin Gürcüstanın Aİ-nin Genişlənmə Forumuna dəvət olunmamasını Brüsselin dialoq əvəzinə qarşıdurma yolunu seçməsi kimi qiymətləndirir.

Tərəflərin mövqeləri isə göstərir ki, Gürcüstan–Aİ münasibətləri son illərin ən böhranlı mərhələsinə daxil olub. Tərəflər arasında etimad çatışmazlığı artıq yalnız siyasi bəyanatlarla məhdudlaşmır, real nəticələr yaratmağa başlayır. Aİ-nin mesajlarından görünür ki, Gürcüstanın son addımları guya Avropa inteqrasiyasının mahiyyəti ilə ziddiyyət təşkil edir və bu xətt davam edərsə, münasibətlərin növbəti mərhələyə keçməsi qaçılmaz olacaq.

O da maraqlıdır ki, bu yanaşma Aİ tərəfindən Gürcüstan hökumətinin öz mövqeyini legitimləşdirmək cəhdi kimi dəyərləndirilir. Bu səbəbdən Aİ Gürcüstana qarşı bəzi addımlar atmağa qərar verib. Bunun konkret əlaməti vizasız rejim mexanizminin sərtləşdirilməsidir. Sənəd formal olaraq bütün vizasız ölkələrə şamil olunsa da, müzakirələrin tonu göstərir ki, bu dəyişikliklər Gürcüstanın hazırkı siyasi kursu ilə bağlıdır. Vizasız rejimin dayandırılması mexanizminin sadələşdirilməsi, müddətlərin artırılması və meyarların sərtləşdirilməsi Aİ-nin daha kəskin tədbirlər görməsi üçün hüquqi zəmin yaradır. Lakin vizasız səyahətin dayandırılması mexanizminin mürəkkəbliyini nəzərə alsaq, bu, yenidən diplomatik pasport sahibləri ilə məhdudlaşa bilər.

Yada salaq ki, Aİ-yə üzv ölkələrinə giriş üçün Gürcüstanın diplomatik və xidməti pasport sahibləri artıq viza almaq məcburiyyətində qalıblar. Bu belə əsaslandırılıb: "Diplomatik və xidməti pasportlara malik olan şəxslər üçün viza rejiminin tətbiqi beynəlxalq ictimaiyyətin, o cümlədən Avropa İttifaqının adi vətəndaşlara, nümayişçilərə və jurnalistlərə qarşı repressiyalarla, o cümlədən polisin cəzasız qalması və vətəndaş cəmiyyətinə qarşı təzyiqlərlə razılaşmadığını nümayiş etdirmək üçün növbəti addımdır". İndi isə Aİ Gürcüstan vətəndaşları üçün də vizasız rejimə məhdudiyyətlərin tətbiqi məsələsini nəzərdən keçirir. Ümumiyyətlə, Gürcüstan vətəndaşları üçün vizasız səyahətin bərpası istisna edilmir. Bunun nə qədər effektli ola biləcəyini isə gələcək göstərəcək.

*

Qeyd etmək lazımdır ki, Gürcüstan vətəndaşları əvvəllər də daha çətin iqtisadi dövrlərdə Aİ ölkələrinə səyahət etmək üçün viza alıblar və bu proses onlar üçün ciddi maneə yaratmayıb. Ölkənin iqtisadi vəziyyətinin yaxşılaşdığı, həyat səviyyəsinin yüksəldiyi hazırkı mərhələdə isə viza tələbinin bərpası Gürcüstan üçün əvvəlki qədər böyük problem olaraq görünmür. Əksinə, iqtisadi artım fonunda ölkədə yeni iş imkanlarının yaranması və əmək bazarının genişlənməsi miqrant işçilərin əhəmiyyətli hissəsini vətənə qayıtmağa zövq edir. Çünki artıq onlar öz ölkələrində layiqli və sabit gəlir əldə etmək üçün daha əlverişli şəraitlə qarşılaşırlar.

Bu arqumenti təsdiqləyən faktlar mövcuddur. Məsələn, cari ilin yanvar-may aylarında Gürcüstanda iqtisadi artım 9,3 faiz səviyyəsində qeydə alınıb və bu, region üçün yüksək göstəricidir. İşsizlik səviyyəsində də müəyyən azalma var. Hazırda bu göstərici 16,4 faizdir ki, əvvəlki illərlə müqayisədə daha yaxşı dinamikanı əks etdirir. Baş nazir İrakli Kobaxidze müsahibəsində ölkənin davamlı inkişaf perspektivlərini vurğulayaraq bildirib: "Gürcüstan eyni sürətlə inkişaf etməyə davam edərsə, yoxsulluğun səviyyəsi 2030-cu ilə qədər əhəmiyyətli dərəcədə azala bilər". Bu isə hökumətin sosial-iqtisadi siyasətinin yaxın illərdə daha pozitiv nəticələr verə biləcəyini göstərir. Bunu sübut edən faktlardan biri də son illərdə işləmək üçün Gürcüstana gələn xarici ölkə vətəndaşlarının sayının kəskin artmasıdır. Xüsusilə tikinti, ərzaq və xidmət sahələrində bu daha aydın görünür.

Mövzu ilə bağlı **Gürcüstan Azərbaycanlıları Ağsaqqallar Şurasının sədri İsak Novruzov** XQ-yə bildirdi ki, hazırda Gürcüstanda yüksəkmaaşlı və rəqabətədavamlı iş yerləri açılır, müxtəlif sahələrə investisiya axını davam edir: "Bu isə vətəndaşların ölkəni tərk etmədən sosial rifahlarını yaxşılaşdırmaq imkanlarını genişləndirir. İnsanlar artıq yalnız xaricdə işləməklə yox, öz ölkələrində də layiqli gəlir qazana və sosial vəziyyətlərini yüksəldə bilirlər. Belə şəraitdə Aİ ilə vizasız rejimin müvəqqəti olaraq ləğv edilməsi ölkə üçün təhlükəli deyil. Əksinə, mövcud iqtisadi sabitlik, sosial dəstək və inkişaf meyilləri fonunda bu addımın təsirləri minimal olacaq. Uzunmüddətli dövrdə ümumi miqrasiya dinamikasına mənfi təsir göstərməyəcək. Ümumiyyətlə, Qərbin iqtisadi təzyiqləri artıq effektli deyil. Ona görə də vizasız səyahətin ləğvi Gürcüstan üçün ciddi nəticələr verməyəcək. Sadəcə görüntü yaratmağa çalışırlar".

Bu arada qeyd edək ki, Aİ Şurası üçüncü ölkələrin vətəndaşları üçün vizasız gediş-gəlişin dayandırılmasını nəzərdə tutan yenilənmiş mexanizmi təsdiqləyib. Şuranın açıqlamasına görə, yeni qaydalar Aİ-yə vizasız səfərlərdən sui-istifadə halları və ya ittifaqın maraqlarına zidd vəziyyətlər yarandıqda daha sürətli və sərt tədbirlər görülməsinə imkan yaradacaq. Yenilənmiş mexanizm vizasız rejimin ilkin dayandırılma müddətinin 9 aydan 12 aya qədər artırılmasını nəzərdə tutur. Bundan başqa, bu müddət əlavə 24 ay da uzadıla bilər.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# “Azərbaycan dilini öyrənirik” kitabının təqdimat mərasimi

**Noyabrın 18-də "LIBRAFF" kitab mağazaları şəbəkəsinin “Park Akademiya” filialında Səbinə Əliyeva, Hüzurə Ağayeva və Gülarə Əmirovanın həmmüəllifi olduqları "Azərbaycan dilini öyrənirik" kitabının təqdimat mərasimi keçirilib.**







Tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva və Alena Əliyeva iştirak ediblər.

Təqdimat mərasimində çıxış edən kitabın həmmüəllifi Səbinə Əliyeva kitabın 4-6 yaşlı uşaqlar üçün nəzərdə tutulduğunu, ölkəmizdə fəaliyyət göstərən məktəbəqədər təhsil müəssisələrində yetişən uşaqlara, o cümlədən Azərbaycandan kənarda yaşayan balaca həmyerlilərimizə ana dilini öyrətmək, dilimizə qarşı sevgi oyatmaq, öz dilimizdə ünsiyyət qurmaq bacarıqlarını uşaq yaşlarından formalaşdırmaq məqsədi daşıdığını deyib: "Bu kitabı hazırlamaqda əsas hədəflərdən biri Azərbaycan dilini öyrətməklə yanaşı, ölkəmizin milli dəyərlərinə, mədəniyyətinə bağlılıq yaratmaqdır. Kitab ümumilikdə 8 bölmədən ibarətdir və müxtəlif mövzulara həsr olunub. Kitabın ən maraqlı xüsusiyyətlərindən biri şəkillər əsasında hazırlanmasıdır. Həmin yaş qrupunda olan uşaqlarda oxu-yazı bacarığı hələ formalaşmır. Ona görə də balacaların qavrama xüsusiyyətləri nəzərə alınaraq mövzular şəkillərlə izah olunub. Bir yandan da şəkillərlə öyrənmə prosesi daha əyləncəli və yaddaqalan edir. Ən maraqlı cəhətlərdən biri “dinləyək və öyrənək” rubrikasıdır. Burada Azərbaycan şairlərinin şeirləri audioformat şəklində, yəni QR kod vasitəsilə səsli versiyada oxutdurulur. Bununla yanaşı, kitaba uşaqların erkən yaşda ilkin ünsiyyət bacarıqlarını inkişaf etdirmək üçün ən zəruri olan ifadələr, sözlər, cümlələr daxil edilib ki, burada da məqsəd öyrənmə prosesini daha sistemli şəkildə həyata keçirməkdir. Məlum olduğu kimi, həmin yaş qrupundan olan uşaqlara yazılı söz və ifadələr, həmçinin şeirlər müəllimlər və valideynlər tərəfindən səsləndirilir və öyrədilir. Kitabda bir növ müəllim və valideynlərə istiqamət verilir".

Kitabın redaktoru professor Sevinc Əliyeva üçillik zəhmətin bəhrəsi olan həmin kitabın dilimizə sevgi, dəyərlərimizə bağlılığın ifadəsi olduğunu bildirib. O, nəşri xaricdə yaşayan və böyüyən azərbaycanlı uşaqların da sevimli kitabına çevriləcəyinə inamını ifadə edib.

Azərbaycan Dillər Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru Jalə Qəribova, yazıçı, şair, pedaqoq, professor Zahid Xəlil, Azərbaycan Yazıçılar Birliyinin üzvü, "Göyərçin" jurnalının baş redaktoru, professor Rafiq Yusifoğlu, Abdulla Şaiqin nəvəsi və ev-muzeyinin direktoru Ülkər Talıbzadə çıxış edərək Prezident İlham Əliyevin Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyinə həsr olunmuş yığıncaqda çıxışı zamanı nitqindən fikirləri xatırladıblar. Bildirilib ki, ölkə başçısının vurğuladığı kimi, Azərbaycan dilinin saflığının qorunması hər bir Azərbaycan vətəndaşının işi olmalıdır. Yəni dövlət, alimlər, dilçilər, yazıçılar, şairlər, jurnalistlər, siyasətlə məşğul olanlar bu məsələyə çox böyük diqqət verməlidirlər. Çıxış edənlər Azərbaycan dilinə dövlət səviyyəsində qayğı göstərildiyini qeyd edib, bu istiqamətdə atılan addımlardan bəhs ediblər.

Natiqlər "Azərbaycan dilini öyrənirik" kitabını tədris vasitəsi kimi yüksək qiymətləndirib, uşaqların doğma dilimizdə düşünüb-danışmağı sadə və anlaşılan şəkildə öyrənməsi üçün faydalı olacağına və bu cür layihələrin davamlı xarakter alacağına inamlarını ifadə ediblər.

Tədbir zamanı, həmçinin bədii hissə nümayiş etdirilib, kitaba daxil edilən şeirlərdən bir neçəsi QR kod vasitəsilə səsləndirilib.

***XQ***

# Akademik Musiqili Teatrda “Gülçöhrə və Əsgər” tamaşasının premyerası

***Tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, Arzu Əliyeva və Alena Əliyeva iştirak ediblər***



**Noyabrın 18-də Azərbaycan Dövlət Akademik Musiqili Teatrında Xalq yazıçısı Kamal Abdullanın eyniadlı pyesinin motivləri əsasında səhnələşdirilən “Gülçöhrə və Əsgər” tamaşasının premyerası olub. Tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, Arzu Əliyeva və Alena Əliyeva iştirak edib, tamaşanı izləyiblər.**



“Gülçöhrə və Əsgər” ikihissəli musiqili dramı dahi Üzeyir Hacıbəylinin “Arşın mal alan” əsərinin davamıdır.

Yeni səhnə əsərinin bəstəkarı Əməkdar incəsənət xadimi Cavanşir Quliyev jurnalistlərə açıqlamasında tamaşaya fərqli yanaşma olunduğunu diqqətə çatdırıb. “Bu əsər “Arşın mal alan”dan fərqli olaraq xoşbəxt sonluqla bitmir. Süjet gözlənilməzdir və tamaşaçını daim diqqətdə saxlayır. Bu səbəbdən həm maraqlı, həm də dəyərli təcrübə oldu”, - deyə bəstəkar əlavə edib.



Həm “Arşın mal alan”, həm də “Gülçöhrə və Əsgər” tamaşalarında Əsgər obrazının ifaçısı, Prezident mükafatçısı Səmədzadə Xasiyev vurğulayıb ki, rolların ikisi də xarakterikdir. Yaradıcı heyətin tamaşa üzərində uzun müddət çalışdığını bildirən aktyor deyib: “Əsgərin musiqili komediyadakı şən və romantik tərəfi və yeni əsərdəki dramatik taleyi aktyor kimi mənə geniş ifadə imkanları yaradır. Bu rol üzərində işləmək həm məsuliyyətli, həm də yaradıcı baxımdan dəyərlidir. Əsgər və Gülçöhrə tarixin qaranlıq və sərt dönəmlərində yaşadıqları sarsıntılar fonunda bütöv bir dövrün mənzərəsini yaradırlar. Əsgərin Sibirdə keçirdiyi məşəqqətli illər, Gülçöhrənin isə ümidsizlik içində onu gözləməsi təkcə nakam sevgi hekayəsi deyil, həm də bir xalqın yaddaşını, mübarizliyini və sarsılmaz ruhunu əks etdirən bədii salnamədir”.

İkihissəli musiqili dramda Telli obrazını canlandıran Elnarə Nağdəliyeva qeyd edib ki, o, mərhəmətli və şən qadındır. “Obrazın daxili gücünü və yumşaq xarakterini tamaşaçıya çatdırmağa çalışdım. Telli obrazı ağasına və xanımına sadiqliyi ilə seçilir. Bütün gərginliyə, təhlükələrə və çətinliklərə baxmayaraq, o, xanımını və bəyini tək qoymur, onlarla birlikdə İrana, İstanbula, sonra isə Fransaya qədər uzanan çətin yola çıxır”, - deyə aktrisa əlavə edib.

“Gülçöhrə və Əsgər”in tamaşaçısı, Əməkdar incəsənət xadimi Məryəm Əlizadə səhnə əsərindən təsirləndiyini deyib: “Tamaşa Azərbaycan Xalq Cümhuriyyəti dövründə baş verən siyasi və ictimai hadisələri, xüsusilə bolşeviklərin ölkəmizə vurduğu maddi və mənəvi zərbələrin acı nəticələrini incə ustalıqla əks etdirib. Gülçöhrə və Əsgərin mürəkkəb taleyi tamaşada yüksək sənətkarlıqla təqdim olunur və izləyicidə güclü emosional təəssürat yaradır”.



Tamaşanın quruluşçu rejissoru Əsgər Əsgərov, dirijoru Fəxrəddin Atayev, baletmeysteri Nigar Şahmuradova, xormeysteri Vaqif Məstanovdur.

Səhnə əsərində Əməkdar artistlər Əzizağa Əzizov, İlqar Salamov, Prezident mükafatçıları Səmədzadə Xasiyev, Mehriban Zaliyeva, Atilla Məmmədov, aktyorlar Faiq Mirzəyev, Gültac Əlili, Gülnarə Abdullayeva, Elnarə Nağdəliyeva, İbrahim Əlizadə, Elçin İmanov, Elxan İsmayılov, Əli Kərimov, Orxan Hüseynov, Kamil Cəfərov, Nicat Həbibov, həmçinin xor və balet artistləri iştirak ediblər.

***XQ***

# Haqsız rəqabətə görə cəza

**Agentliyə daxil olmuş şikayətlər əsasında aparılmış araşdırmalar nəticəsində altı təsərrüfat subyektinin rəqabət qanunvericiliyini pozduğu müəyyən edilib və onlar barəsində icrası məcburi göstərişlər verilib.**

Agentliyin məlumatına görə, aparılan ilkin araşdırmalar “Baku Electronics” MMC, “ABC Telecom” MMC, “Trust Lux” MMC, eləcə də fiziki şəxslər Quliyev Pərviz Məmmədhüseyn oğlu, Qurbanov Vüsal Nəriman oğlu və Vəliyev Dadaş Azadəli oğlu barəsində haqsız rəqabət əlamətlərini təsdiqləyib. Bununla əlaqədar qeyd olunan subyektlər üzrə rəqabət qanunvericiliyinin pozulması faktları əsasında işlər qaldırılıb və müvafiq qərarlar qəbul olunub.

Araşdırma nəticəsində məlum olub ki, “Baku Electronics” MMC “YOSHIRO” markalı məişət texnikası və elektronika məhsullarının reklamı və satışında istehlakçıları çaşdıra biləcək məlumatlardan istifadə edib. Məhsulların faktiki istehsalçısı Çin və Özbəkistan olsa da, reklam və qablaşdırmada “Yapon ənənəsi”, “Yapon keyfiyyəti” kimi ifadələrin işlədilməsi onların Yaponiyada istehsal olunduğu təsəvvürü yaradıb. Bu hal Rəqabət Məcəlləsinin tələblərinin pozulması kimi qiymətləndirilib.

Oxşar hal “ABC Telecom” MMC-nin satdığı “HOFFMANN” markalı elektrik qızdırıcılarında qeydə alınıb. Məhsullar Çində istehsal olunsa da, qablaşdırmada Almaniyaya aid təsvir və ifadələrdən istifadə olunaraq istehlakçılarda yanlış təəssürat yaradılıb.

“Trust Lux” MMC tərəfindən satılan “Y.A.Ş” markalı sanitar-texniki məhsulların qablaşdırılmasında da istehsal ölkəsi barədə yanlış məlumatlara yol verildiyi müəyyən edilib. Çin istehsalı olan bu məhsulların üzərində Türkiyəyə aid xəritə təsviri və ifadələrin yerləşdirilməsi onların Türkiyə istehsalı kimi təqdim olunmasına səbəb olub.

Fiziki şəxs Quliyev Pərviz Məmmədhüseyn oğlu fəaliyyət göstərdiyi obyekt və sosial şəbəkələrdə




reklam zamanı başqa sahibkara məxsus “ZAGAR BAKU” əmtəə nişanından qanunsuz istifadə edib. Bu hal da haqsız rəqabət kimi qiymətləndirilib.

Qurbanov Vüsal Nəriman oğlu tərəfindən satışa çıxarılan “AUXs” markalı kontrafakt kondisionerlərin üzərində Azərbaycan ərazisində qorunan “AUX” əmtəə nişanının qanunsuz istifadəsi müəyyən edilib. Məsələdə cinayət tərkibi əlamətləri olduğuna görə araşdırma materialları Baş Prokurorluğa göndərilib.

Digər sahibkar Vəliyev Dadaş Azadəli oğlu isə istehsal etdiyi süd məhsullarının etiketlərində “İVANOVKA” coğrafi göstəricisindən əsassız istifadə etməklə istehlakçılarda yanlış təsəvvür yaradıb və bununla rəqabət qanunvericiliyinin tələblərini pozub.

Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi rəqabət mühitinin pozulması hallarının qarşısının alınması üçün adıçəkilən təsərrüfat subyektlərinə icrası məcburi göstərişlər təqdim edib. Göstərişlərdə qanun pozuntularının dərhal aradan qaldırılması və gələcəkdə təkrarlanmaması tələb olunur.

Agentlik işgüzar münasibətlərdə şəffaflığın qorunması, ədalətli rəqabət mühitinin təmin olunması və istehlakçıların aldadılmasının qarşısının alınması ilə bağlı tədbirlərin davam etdiriləcəyini bildirib.

***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 330**

**Bakı şəhəri, 4 noyabr 2025-ci il**

***Naxçıvan şəhərinin inzibati ərazisində dövlət mülkiyyətində olan torpaq sahəsinin bərpa olunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilməsi haqqında***

"Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının 2021-ci il 31 may tarixli 339-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 iyul tarixli 1387 nömrəli Fərmanının 2.4-cü bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Qoyuluş gücü ilkin mərhələdə 50 MVt olan, sonrakı mərhələdə isə ixrac imkanlarından asılı olaraq genişləndiriləcək günəş elektrik stansiyasının tikintisi məqsədilə Naxçıvan şəhərinin inzibati ərazisində dövlət mülkiyyətində olan 688,0 hektar torpaq sahəsi bərpa olunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilsin (torpaq sahəsinin yerləşdiyi yeri, ölçüsünü və sərhədlərini göstərən yerquruluşu xəritəsi əlavə olunur).

**2** Azərbaycan Respublikasının Energetika Nazirliyi bu Qərarın 1-ci hissəsi ilə müəyyən edilmiş bərpa olunan enerji mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsi ilə bağlı tədbirləri Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 2 avqust tarixli 2285 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Bərpa olunan enerji mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsi Qaydası"nın tələblərinə uyğun olaraq həyata keçirsin.

**3.** Bu Qərar qüvvəyə mindiyi tarixdən elektrik enerjisinin istehsalı məqsədilə bərpa olunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilmiş 688,0 hektar torpaq sahəsində günəş elektrik stansiyasının tikintisinə icazə "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikası Qanununun 6.7-ci maddəsində nəzərdə tutulmuş müddətdə Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun olaraq alınır.

**4** Naxçıvan Şəhər İcra Hakimiyyəti bu Qərarın 3-cü hissəsinə uyğun olaraq, tikintiyə icazə verildikdə həmin gündən, müəyyən edilmiş müddətdə tikintiyə icazə verilmədikdə isə müddət başa çatdığı gündən üç gün müddətində bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**5** Bu Qərarın icrasına nəzarət Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Aqrar və ekologiya şöbəsinə həvalə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 331**

**Bakı şəhəri, 5 noyabr 2025-ci il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 30 oktyabr tarixli 386 nömrəli Qərarı ilə təsdiq edilmiş "Aviasiya təhlükəsizliyinin təmini sahəsində yoxlamaların həyata keçirilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Mülki aviasiya sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 21 fevral tarixli 341 nömrəli Fərmanının 5.5-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 30 oktyabr tarixli 386 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 10, maddə 1466 (Cild I) ilə təsdiq edilmiş "Aviasiya təhlükəsizliyinin təmini sahəsində yoxlamaların həyata keçirilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 1.2-ci bənddə "Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında" sözləri "Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində" sözləri ilə əvəz edilsin.

**2** 5.46-cı bəndin birinci cümləsi çıxarılsın və həmin bəndin ikinci cümləsinə "orqanlarını" sözündən sonra "(qurumlarını)" sözü əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 334**

**Bakı şəhəri, 7 noyabr 2025-ci il**

***"Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və hərbi qulluqçularının hərbi rütbəyə görə maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 25 aprel tarixli 138 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

"Azərbaycan Respublikasının Müdafiə Nazirliyi haqqında Əsasnamənin, Nazirliyin strukturunun, hərbi qulluqçularının və mülki işçilərinin ümumi say tərkibinin və Nazirlikdə ali hərbi rütbəli vəzifələrin siyahısının təsdiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 18 dekabr tarixli 54 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 19 iyun tarixli 417 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 25 aprel tarixli 138 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 4 (II kitab), maddə 425) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının aylıq vəzifə (tarif) maaşlarının məbləğləri"ndə dəyişikliklər təsdiq edilsin *(əlavə olunur).*

**2.** Bu Qərarın əlavəsinin 20-ci və 43-cü hissələri, 1.1-ci, 1.2-ci, 1.5-ci, 13.3-cü, 15.1-ci, 15.2-ci, 15.3-cü, 15.6-cı, 15.8-ci, 15.9-cu, 15.10-cu, 42.1-ci, 47.1-ci, 48.2-ci, 49.2-ci, 54.1-ci, 65.2-ci və 65.4-cü bəndləri 2025-ci il avqustun 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 335**

**Bakı şəhəri, 12 noyabr 2025-ci il**

***Paris Sazişi çərçivəsində istilik effekti yaradan qazların emissiyalarının azaldılması üzrə milli hədəfin və bu hədəfi ehtiva edən "Yenilənmiş, 3-cü Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələr" sənədinin təsdiq edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası ilə bağlı Tərəflərin 21-ci Konfransında qəbul olunmuş Paris Sazişinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2016-cı il 28 oktyabr tarixli 362-VQ nömrəli Qanununa uyğun olaraq, İqlim Dəyişmələri üzrə Dövlət Komissiyasının vəsatətlərini nəzərə alaraq, Paris Sazişindən irəli gələn öhdəliklərin yerinə yetirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** 1990-cı baza ili ilə müqayisədə 2035-ci ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 40 faiz azaldılmasını nəzərdə tutan milli hədəf və bu hədəfi ehtiva edən "Yenilənmiş, 3-cü Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələr" (NDC 3.0) sənədi təsdiq edilsin (əlavə olunur).

**2.** Bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş milli hədəfə nail olunmasının maliyyə resurslarının artırılması - əlavə beynəlxalq maliyyə dəstəyi (güzəştli kreditlər, özəl sektor investisiyası və s.), texnologiyanın mövcudluğu, texnologiyanın ötürülməsi, texnologiyanın inkişaf səviyyəsi, potensialın artırılması dəstəyinin əldə olunması, meşələrin və digər ekosistemlərin absorbsiyası şərtilə mümkünlüyü nəzərə alınsın.

**3.** Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi NDC 3.0 sənədini BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Katibliyinə təqdim etsin.

**4.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş milli hədəfə nail olunması məqsədilə energetika, neft-qaz, nəqliyyat, tullantıların idarə olunması, kənd təsərrüfatı, sənaye sektorları, həmçinin yaşayış və qeyri-yaşayış sahələri üzrə dekarbonizasiya tədbirlərinin dövlət proqramları, strategiyalar, milli fəaliyyət planları, konsepsiyalar və digər sənədlərdə inteqrasiyasını aidiyyəti qurumlarla əlaqələndirməklə təmin etsin.

**5.** Azərbaycan Respublikasının Energetika Nazirliyi enerji sektorunda, o cümlədən neft və qaz sənayesində istixana qazları emissiyalarının azaldılması istiqamətində tədbirlərin həyata keçirilməsini təmin etsin, bu sahədə bərpa olunan enerji mənbələrinin payının artırılması, enerji səmərəliliyinin yüksəldilməsi və karbon tutumlu texnologiyaların mərhələli şəkildə azaldılması ilə bağlı tədbirləri həyata keçirsin.

**6.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi NDC 3.0 sənədi ilə müəyyən edilmiş milli hədəfə nail olunması məqsədilə nəzərdə tutulan tədbirlərin maliyyələşdirilməsi üçün müvafiq tədbirlər görsün.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 333**

**Bakı şəhəri, 7 noyabr 2025-ci il**

***"Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, ölkədə aparılan struktur islahatlarının nəticəsində yaradılan yeni təşkilatların və xidmətlərin fəaliyyətə başlaması, bəzilərinin ləğv edilməsi və ya birləşdirilməsi ilə bağlı onların maliyyə təminatının həyata keçirilməsi, dövlət maliyyə inzibatçılığının və hesabatlılığın gücləndirilməsi, şəffaflığın artırılması, həmçinin büdcə vəsaitlərindən təyinatı üzrə istifadənin tam təmin edilməsi üçün vahid büdcə təsnifatının təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155 (Cild I); 2024, № 1, maddə 84, № 2, maddələr 209, 229, № 3, maddələr 307, 359, № 6 (II kitab), maddə 739, № 7, maddələr 920, 930, № 9, maddələr 1067, 1099, 1106, № 10, maddə 1167, № 12 (II kitab), maddə 1428; 2025, № 2, maddə 187, № 6, maddə 594; № 7, maddələr 706, 714, 716; № 8, maddə 800; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 10 sentyabr tarixli 257 nömrəli, 16 sentyabr tarixli 263 nömrəli, 17 sentyabr tarixli 270 nömrəli və 22 sentyabr tarixli 279 nömrəli qərarları) aşağıdakı dəyişikliklər edilsin:

**1.** "Azərbaycan Respublikasının büdcə xərclərinin funksional təsnifatı" üzrə:

1.1. "6.3.0. "Sosial müdafiə və sosial təminat sahələri üzrə tətbiqi tədqiqatlar" köməkçi bölməsi"ndə və "6.4.0. "Sosial müdafiə və sosial təminat sahələri üzrə digər müəssisə və tədbirlər" köməkçi bölməsi"ndə "6.3.0." və "6.4.0." rəqəmləri müvafiq olaraq "6.8.0." və "6.9.0." rəqəmləri ilə əvəz edilsin;

1.2. "9.3.0. "Meliorasiya" köməkçi bölməsindən sonra "9.4.0. "Balıqçılıq və balıq ovu" köməkçi bölməsi əlavə edilsin;

1.3. "10.6.0. "Balıqçılıq və ovçuluq" köməkçi bölməsinin adı aşağıdakı redaksiyada verilsin:

"10.6.0. Ovçuluq və heyvanların mühafizəsi";

1.4. "10.6.1. "Balıqartırma və balıq mühafizəsi" və "10.6.2. "Ovçuluq və heyvanların qorunması" paraqrafları ləğv edilsin.

**2.** "Azərbaycan Respublikasının büdcə xərclərinin funksional təsnifatına əlavə" üzrə:

2.1. "1.1.2. "Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının, Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən digər orqanların və icra səlahiyyətlərini həyata keçirən orqanın fəaliyyəti" paraqrafına "qurumlar," sözündən sonra "Azərbaycan Respublikası Prezidentinin Protokol Xidməti," sözləri əlavə edilsin;

2.2. "6.0.0. "Sosial müdafiə və sosial təminat" bölməsində "6.3.0." və "6.4.0." rəqəmləri müvafiq olaraq "6.8.0." və "6.9.0." rəqəmləri ilə əvəz edilsin;

2.3. "9.0.0. "Kənd təsərrüfatı" bölməsi"nə "9.3.0. Meliorasiya"," sözlərindən sonra "9.4.0. Balıqçılıq və balıq ovu"," sözləri əlavə edilsin;

2.4. "9.3.0. "Meliorasiya" köməkçi bölməsindən sonra aşağıdakı məzmunda yeni "9.4.0. "Balıqçılıq və balıq ovu" köməkçi bölməsi əlavə edilsin:

"9.4.0. "Balıqçılıq və balıq ovu" köməkçi bölməsinə balıqçılıq su obyektlərində həyata keçirilən fəaliyyət növləri, balıqçılıqla bağlı xidmətlərə rəhbərlik, balıq və digər su bioresurslarının mühafizəsi, artırılması, yetişdirilməsi, bərpası və səmərəli istifadəsi, balıq və digər su bioresurslarının ovlanması fəaliyyətinə nəzarət və onların tənzimlənməsi, balıqçılıq sahəsində məlumatların yayılması üzrə xidmətlər, həmin xidmətlərin idarə edilməsi, balıqçılıqla bağlı layihələrin hazırlanması, akvakulturanın davamlı inkişafı, balıqartırma müəssisələrinin yaradılması, saxlanması və bu qəbildən olan digər xərclər daxildir.";

2.5. "10.0.0. "Ətraf mühitin mühafizəsi" bölməsində "10.6.0. Balıqçılıq və ovçuluq" sözləri "10.6.0. Ovçuluq və heyvanların mühafizəsi" sözləri ilə əvəz edilsin;

2.6. "10.6.0. "Balıqçılıq və ovçuluq" köməkçi bölməsinin adı və mətni aşağıdakı redaksiyada verilsin:

"10.6.0. "Ovçuluq və heyvanların mühafizəsi" köməkçi bölməsinə ovçuluq (balıq və digər su bioresursları istisna olmaqla) sahəsində həyata keçirilən fəaliyyət növləri, ovçuluqla bağlı xidmətlərə rəhbərlik, vəhşi heyvanların mühafizəsi, çoxaldılması və səmərəli istifadəsi, vəhşi heyvanların ovlanmasına və ovçuluq fəaliyyətinə nəzarət və onların tənzimlənməsi, ovçuluq sahəsində məlumatların yayılması üzrə xidmətlər, ərazilərdə heyvanların məskunlaşması və ya seleksiya məqsədi ilə ov aparılması, həmin xidmətlərin idarə edilməsi, ovçuluq məsələləri ilə bağlı ümumi xarakterli məlumatların, layihələrin hazırlanması və bu qəbildən olan digər xərclər daxildir.";

2.7. "10.6.1. "Balıqartırma və balıq mühafizəsi" və "10.6.2. Ovçuluq və heyvanların qorunması" paraqrafları ləğv edilsin;

2.8. "11.9.1. "Dövlət əmlakının özəlləşdirməsinin təşkili və mülkiyyət hüquqlarının qorunması" paraqrafına "yardımla" sözündən sonra ", dövlət əmlakının satıcısının maddi-texniki bazasının möhkəmləndirilməsi ilə" sözləri əlavə edilsin.

**3.** "Azərbaycan Respublikasının büdcə xərclərinin iqtisadi təsnifatı" üzrə:

3.1. "222350. "Azərbaycan Respublikasının diplomatik və ticarət nümayəndəlikləri üzrə rabitə xidmətləri haqlarının ödənilməsi" maddəsindən sonra "222390. "Digər telekommunikasiya və rabitə xidmətləri haqlarının ödənilməsi" maddəsi əlavə edilsin;

3.2. "263300. "Dövlət hesabına ali təhsil müəssisələrində təhsil xərcləri" paraqrafından "ali" sözü çıxarılsın;

3.3. "311000. "Torpaq, tikili və avadanlıqlar" köməkçi bölməsinin adından "Torpaq," sözü çıxarılsın;

3.4. "311900. "Sair torpaq, tikili və avadanlıqlar" və "312900. "Sair torpaq, tikili və avadanlıqların əsaslı təmiri" paraqraflarından "torpaq," sözü çıxarılsın.

**4.** "Azərbaycan Respublikasının büdcə xərclərinin iqtisadi təsnifatına əlavə" üzrə:

4.1. "211300. "Diplomatik və ticarət nümayəndəliklərində çalışan işçilərin əməkhaqqı, təmsilçilik və birdəfəlik yerləşmə müavinəti" paraqrafına "xərcləri" sözündən sonra ", məzuniyyətə görə kompensasiyanın (istifadə edilməmiş məzuniyyətə görə kompensasiya daxil olmaqla) ödənilməsi ilə bağlı xərclər" sözləri əlavə edilsin;

4.2. "221100. "Dəftərxana və təsərrüfat xərcləri" paraqrafına "təmizlik" sözündən sonra ", təşkilatın təsərrüfat fəaliyyətində istifadə olunan antiseptik, dezinfeksiya" sözləri əlavə edilsin;

4.3. "221300. "Yanacaq və sürtkü materiallarının alınması" paraqrafına "və sürtkü materiallarının" sözləri " və sürtkü materiallarının və elektrik mühərrikli nəqliyyat vasitələri üçün enerji doldurma məntəqələrindən elektrik enerjisinin" sözləri əlavə edilsin;

4.4. "221400. "Dərman, sarğı ləvazimatlarının və materiallarının alınması" paraqrafından "təhsil müəssisələrində" sözləri çıxarılsın;

4.5. "221700. "Azərbaycan Respublikasının diplomatik və ticarət nümayəndəlikləri üzrə malların satınalınması" paraqrafına "sürtkü materiallarının," sözlərindən sonra "elektrik mühərrikli nəqliyyat vasitələri üçün enerji doldurma məntəqələrindən elektrik enerjisinin," sözləri əlavə edilsin;

4.6. "221900. "Digər malların alınması" paraqrafı üzrə "sayğacların alınması və quraşdırılması, yanğınsöndürən balonların alınması," sözləri çıxarılsın və "idman atları" sözlərindən sonra ", xidməti iş heyvanları və balıqlar" sözləri əlavə edilsin, həmçinin " bu qəbildən olan digər xərclər," sözləri "gübrə, pestisidlər və bitki mühafizə vasitələrinin alınması, təmizləyici qurğuların (su filtrasiyası və s.) sərfiyyatı üzrə məhlulların, duzların, qumların və bu qəbildən olan digər malların alınması," sözləri ilə əvəz edilsin;"

4.7. "222250. "İstilik enerjisi (yanacaq) haqqının ödənilməsi" maddəsinə "göstərilmiş" sözündən sonra ", o cümlədən mülki-hüquqi müqavilə əsasında qazanxananın istismarı üzrə" sözləri əlavə edilsin;

4.8. 222290. "Digər kommunal xidmətlərin haqqının ödənilməsi" maddəsinə "kommunal xətlərinin çəkilişi," sözlərindən sonra "kommunal xidmət şəbəkələrinə (su, qaz, elektrik enerjisi və s.) qoşulma (sayğacların quraşdırılması)," sözləri əlavə edilsin;

4.9. "222300. "Telekommunikasiya və poçt rabitəsi xidmətləri haqqının ödənilməsi" paraqrafında "222330. İnternet xidməti haqqının ödənilməsi" sözlərindən sonra "və" bağlayıcısı vergül işarəsi ilə əvəz olunsun, habelə "maddələrinin" sözündən əvvəl "və "222390. "Digər telekommunikasiya və rabitə xidmətləri haqlarının ödənilməsi" sözləri əlavə edilsin;

4.10. "222311. "Ölkədaxili telefon danışıq haqlarının ödənilməsi" yarımmaddəsi aşağıdakı redaksiyada verilsin:

"222311. "Ölkədaxili telefon danışıq haqlarının ödənilməsi" yarımmaddəsinə ölkənin daxilindəki telefon, faks, teleqraf xidmət haqlarının, abunə haqlarının, SMS xidmətlərinin dəyərinin ödənilməsi xərcləri və bu qəbildən olan digər xərclər daxildir.";

4.11. "222350. "Azərbaycan Respublikasının diplomatik və ticarət nümayəndəlikləri üzrə rabitə xidmətləri haqlarının ödənilməsi" maddəsindən sonra aşağıdakı məzmunda 222390-cı maddə əlavə edilsin:

"222390. "Digər telekommunikasiya və rabitə xidmətləri haqlarının ödənilməsi" maddəsinə 222310-222350-ci maddələrində nəzərdə tutulmayan digər telekommunikasiya və rabitə xidmətləri haqlarının ödənilməsi, habelə fiber - optik və optik kanallarının abunəsi və icarəsi haqlarının, kabel televiziyasının abunə haqqının, "Trank" radiorabitəsi və VLAN xidmətlərinin, mobil xüsusi dövlət rabitəsi cihazlarının GSM şəbəkəsinə qoşulma və abunəlik haqlarının, elektron poçt sistemindən istifadəyə və GPS/GSM nəzarət qurğusuna görə xidmət haqlarının ödənilməsi və bu qəbildən olan digər xərclər daxildir.";

4.12. "222920. "İstehlakyönlü müxtəlif xidmətlər" maddəsinə "əmlakın sığortalanması ilə bağlı xərclər," sözlərindən sonra "lövhələrin hazırlanması xərcləri," sözləri əlavə edilsin;

4.13. "222990. "Sair xərclər" maddəsinə "ödənilən məbləğlər," sözlərindən sonra "utilizasiyaya verilən nəqliyyat vasitəsi üçün tətbiq edilən güzəştin və birdəfəlik ödənişlərin məbləğləri, tibbi tullantıların invertarlaşdırılması və pasportların alınması xərcləri," sözləri əlavə edilsin;

4.14. "253300. Hüquqi şəxslərə digər subsidiyalar" paraqrafı aşağıdakı redaksiyada verilsin:

"253300. "Hüquqi şəxslərə digər subsidiyalar" paraqrafına məhsulların istehsalı ilə bağlı əvəzsiz verilən maliyyə vəsaiti, habelə lizinqə verilən və lizinq yolu ilə satılan kənd təsərrüfatı texnikası, suvarma sistemləri, damazlıq heyvanlara görə dövlət büdcəsinin vəsaiti hesabına verilən güzəştlər, həmçinin hüquqi şəxslərə dövlət dəstəyi ilə bağlı verilən digər subsidiyalar daxildir.";

4.15. "263000. "Dövlət sifarişi, dövlət öhdəlikləri və bu qəbildən olan digər öhdəliklərin ödənilməsi" köməkçi bölməsində hər iki halda "ali" sözü çıxarılsın;

4.16. "263300. "Dövlət hesabına ali təhsil müəssisələrində təhsil xərcləri" paraqrafın adından və mətnindən "ali" sözü çıxarılsın;

4.17. 271200. "Müavinət" paraqrafının birinci cümləsinə "üzrə" sözündən sonra ", habelə hərbi qulluqçuların və xüsusi rütbəsi olan əməkdaşların müalicə olunmaları ilə əlaqədar" sözləri əlavə edilsin;

4.18. "271290. "Digər müavinətlər" maddəsinə "maddəsinə" sözündən sonra "hərbi qulluqçuların və xüsusi rütbəsi olan əməkdaşların müalicə olunmaları ilə əlaqədar verilən pul müavinəti, habelə" sözləri əlavə edilsin;

4.19. "272000. "Sosial yardım" köməkçi bölməsində birinci halda "müavinət," sözündən sonra "hərbi təhsilə qəbul edilənlərin ailələrinə ödənilən aylıq müavinət," sözləri əlavə edilsin;

4.20. "272290. "Digər müavinətlər" maddəsinə "maddəsinə" sözündən sonra "hərbi təhsilə qəbul edilənlərin ailələrinə ödənilən aylıq müavinət, habelə" sözləri əlavə edilsin;

4.21. "272990. "Digər ödənişlər" maddəsinə "maddəsinə" sözündən sonra "hərbi təhsilə qəbul edilən heyətə birdəfəlik ödənişlər, yığım əmanət hesabına pul köçürmələri, ipoteka ödənişləri üzrə xərclər, habelə" sözləri əlavə edilsin;

4.22. "279900. "Digər müavinətlər" paraqrafına "paraqrafına" sözündən sonra "hərbi qulluqçulara tərxis olunarkən verilən birdəfəlik müavinətlər və xüsusi rütbəsi olan əməkdaşlara xidmətdən tərxis olunmaya görə ödənişlər, habelə" sözləri əlavə edilsin;

4.23. "311100. "Tikili və avadanlıqlar" və "312100. "Tikili və avadanlıqların əsaslı təmiri" paraqraflarının birinci cümləsinə "ötürücü qurğular" sözlərindən sonra "və onların struktur komponentləri" sözləri əlavə edilsin;

4.24. "311150. "Maşın və avadanlıqlar" maddəsinə "kassa aparatları" sözlərindən sonra ", sayğaclar" sözü əlavə edilsin;

4.25. "310000. "Qeyri-maliyyə aktivləri" bölməsinin ikinci cümləsindən və "311000. "Torpaq, tikili və avadanlıqlar" köməkçi bölməsinin adından və mətnindən "torpaq," sözü çıxarılsın;

4.26. "311900. "Sair torpaq, tikili və avadanlıqlar" paraqrafının adından və mətnindən "torpaq," sözü çıxarılsın və mətninə "hərbi təyinatlı inventarların" sözlərindən sonra ", yanğınsöndürən balonların, məişət tullantıları və həmçinin tibbi tullantıların saxlanılması üçün konteynerlərin" sözləri əlavə edilsin;

4.27. "312000. "Əsaslı təmir" köməkçi bölməsinin, "311130. "Qurğular (tikintilər)" və "311140. "Ötürücü qurğular" maddələrinin birinci cümləsinə, "312130. "Qurğuların (tikintilərin) əsaslı təmiri" və "312140. "Ötürücü qurğuların əsaslı təmiri" maddələrinə, "311141. "Ötürücü qurğuların" və "311142. "Ötürücü qurğuların tikilməsi" yarımmaddələrinə "qurğuların" sözündən sonra "və onların struktur komponentlərinin" sözləri əlavə edilsin;

4.28. "311131. "Qurğuların (tikintilərin) alınması" və "311132. "Qurğuların (tikintilərin) tikintisi" yarımmaddələrinə "qurğuların (tikintilərin)" sözlərindən sonra "və onların struktur komponentlərinin" sözləri əlavə edilsin;

4.29. "312000. "Əsaslı təmir" köməkçi bölməsindən və "312900. Sair torpaq, tikili və avadanlıqların əsaslı təmiri" paraqrafının adından "torpaq," sözü çıxarılsın.

**5.** Həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə xərclərinin inzibati təsnifatı" yeni redaksiyada verilsin *(əlavə olunur).*

**6.** Bu Qərarın 4.1-ci, 4.3-cü, 4.5-ci bəndləri və 5-ci hissəsi 2025-ci ilin 1 yanvar tarixindən, 1.1-1.4-cü, 2.1-2.8-ci, 3.2-ci, 4.2-ci, 4.6-4.8-ci, 4.12-4.24-cü, 4.27-ci, 4.28-ci bəndləri 2026-cı ilin 1 yanvar tarixindən tətbiq edilir, digər bəndləri 2027-ci ilin 1 yanvar tarixindən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

***Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.az saytlarında tanış ola bilərsiniz.***

# Strateji tərəfdaşlıq naminə Azərbaycan–ABŞ dialoqu

*İki ölkənin beyin mərkəzlərinin ilk forumunda ortaq hədəflər müzakirə edildi*



**Noyabrın 18-də Bakıda keçirilən Azərbaycan–ABŞ Beyin mərkəzlərinin I Forumu strateji tərəfdaşlığın aktuallığını bir daha nümayiş etdirdi. "Ortaq baxışlar: Strateji tərəfdaşlıq naminə Azərbaycan–ABŞ dialoqu" mövzusundakı tədbirdə Vaşinqton sammitinin nəticələri, Azərbaycan–Ermənistan sülh prosesi və enerji təhlükəsizliyi kimi mövzular ətrafında müzakirələr aparıldı.**

Forumda çıxış edən nüfuzlu amerikalı ekspert Con Herbst qeyd etdi ki, Vaşinqtonda C5+1 sammitindən dərhal sonra Bakıda toplaşmağımız təsadüfi deyil – tezliklə Azərbaycanın da bu platformaya qoşulması ilə format "C6+1" adlanacaq və iki ölkə arasındakı münasibətlərin əhəmiyyəti daha da artacaq.

Doğrudan da, Mərkəzi Asiya ölkələri ilə ABŞ-ın əməkdaşlıq formatı olan C5+1-ə Azərbaycanın cəlb edilməsi artıq gündəmdədir. Hətta Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev belə, Azərbaycanı "Böyük Mərkəzi Asiyanın təbii parçası" adlandıraraq Vaşinqtonda keçirilən sammitdə ölkəmizin iştirakını arzuladığını bəyan edib. Bu kimi mesajlar göstərir ki, Azərbaycan–ABŞ dialoqu təkcə ikitərəfli deyil, geniş regional çərçivədə yeni mərhələyə qədəm qoyur.

ABŞ Mərkəzi Asiyanı prioritet region kimi görür və Azərbaycan da bu məkanın açar ölkələrindən biri kimi nəzərdən keçirilir. Son illərdə Azərbaycan ilə Mərkəzi Asiya arasında artan təmaslar yeni bir regional inteqrasiya modelinin formalaşdığını göstərir. Artıq Azərbaycan Prezidenti Orta Asiya dövlət başçılarının konsultativ görüşlərində daimi iştirak edir və bu "C5 (və ya C6) formatı" dayanıqlı regional əməkdaşlığın effektiv mexanizminə çevrilməkdədir. Beləliklə, Azərbaycan faktiki olaraq Mərkəzi Asiya ilə ABŞ arasındakı dialoqa inteqrasiya olunur ki, bu da strateji tərəfdaşlığın coğrafi və siyasi əhatəsini genişləndirir.

ABŞ rəsmiləri də bu inteqrasiyanın önəmini qeyd edir. Vaşinqtonda C5+1 formatının onilliyinə həsr olunmuş son sammitdə Amerikanın yüksəkvəzifəli diplomatları Azərbaycanın görüşlərdəki fəallığını xüsusi vurğulayaraq, platformanın artıq ölkəmizin iştirakı ilə institusionallaşa biləcəyini bildiriblər. Keçmiş səfir Riçard Hoqlandın sözləri ilə desək, "Azərbaycan artıq C5 ölkələrinin bütün görüşlərində fəal iştirak edir" və formatın rəsmi C6 kimi təsis olunması məqsədəuyğundur. Bu, Azərbaycan–ABŞ tərəfdaşlığının regional səviyyəyə yüksəldiyini təsdiqləyən növbəti göstəricidir.

Azərbaycan ilə ABŞ arasında iqtisadi əlaqələr son dövrdə nəzərəçarpacaq dərəcədə genişlənib. Rəsmi rəqəmlərə görə, 2024-cü ildə iki ölkə arasında ümumi ticarət dövriyyəsi 1,75 milyard ABŞ dollarına çatıb ki, bu da əvvəlki illə müqayisədə 1,9 dəfə artım deməkdir. Xüsusilə, Azərbaycandan ABŞ-a ixracat 8 dəfədən çox artaraq 135 milyon təşkil edib və ölkənin ümumi ixracında ABŞ bazarının payı cüzi də olsa yüksəlib. İdxal istiqamətində isə ABŞ-dan Azərbaycana idxal 1,8 dəfə artaraq 1,62 milyard olub, nəticədə Azərbaycanın ümumi idxalında ABŞ məhsullarının payı 5 faizdən 7,7 faizə yüksəlib. Bu göstəricilər ABŞ-ın Azərbaycan üçün ən önəmli ticarət tərəfdaşlarından birinə çevrildiyini göstərir. İdxalda ABŞ-ın payının artması ölkəmizin yüksək texnologiyalı avadanlıqlar, nəqliyyat vasitələri və digər məhsullar üzrə Amerika bazarına daha çox üz tutduğunu göstərir.

Enerji sektoru ənənəvi olaraq Azərbaycan–ABŞ əlaqələrinin təməl daşı olub. ABŞ Azərbaycanda həyata keçirilən böyük enerji layihələrinin ardıcıl dəstəkçisi qismində çıxış edib. Vaşinqton ilk illərdən Bakı–Tbilisi–Ceyhan neft kəmərinin reallaşmasına siyasi dəstək verməklə Azərbaycanın öz resurslarını dünya bazarına çıxarmasına yardımçı oldu. Son onillikdə isə Cənub Qaz Dəhlizi (CQD) layihəsi iki ölkə arasındakı enerji tərəfdaşlığının zirvə nailiyyətlərindən birinə çevrilib. ABŞ və Avropa İttifaqı Cənub Qaz Dəhlizinin gerçəkləşməsini davamlı şəkildə təşviq edib, bununla həm Azərbaycanın müstəqilliyini və iqtisadi dayanıqlılığını gücləndirməyi, həm də Avropanın enerji təhlükəsizliyinə töhfə verməyi hədəfləyiblər.

Azərbaycanın coğrafi mövqeyi onu Şərq–Qərb və Şimal–Cənub ticarət axınlarının kəsişməsində təbii tranzit qovşağı edir. Son illərdə qlobal geosiyasi gərginliklər fonunda Avrasiya yük daşımalarında alternativ marşrutlara tələbat kəskin artıb. Nəticədə, Çin və Mərkəzi Asiyanı Avropa ilə birləşdirən Orta Dəhliz strateji əhəmiyyət kəsb etməyə başlayıb. Məhz Azərbaycan və tərəfdaşlarının yatırımları hesabına inkişaf edən bu marşrut Rusiyanın "Şimal dəhlizi"nə rəqib yeni yol kimi diqqət çəkir. Artıq real nəticələr də özünü göstərir. Ötən il Orta Dəhlizlə Xəzər üzərindən daşınan yüklərin həcmi 4,5 milyon tona çatıb ki, bu, əvvəlki ilin göstəricisini 62 faiz üstələyir. 2023-cü ildə bu rəqəm daha da artıb, daşıma həcmlərinin ikiqat artacağı gözlənilir. Dünya Bankının proqnozlarına görə, 2030-cu ilədək Orta Dəhliz vasitəsilə illik yük axını 11 milyon tona çata bilər. Bu dinamika göstərir ki, Azərbaycan üzərindən keçən tranzit trafikin həcmi sürətlə yüksəlir və ölkəmiz bölgədə logistika mərkəzinə çevrilməkdədir.

Hazırda Azərbaycan ərazisindən keçən əsas beynəlxalq nəqliyyat dəhlizləri – Şərq-Qərb (Orta Dəhliz), Şimal–Cənub və Şimal–Qərb istiqamətləri üzrə infrastruktur genişləndirilir. 2025-ci ilin ilk üç rübündə ölkə ərazisindən dəmir yolu ilə 10,5 milyon ton, avtomobil yolu ilə 8 milyon ton, dəniz yolu ilə 5,6 milyon ton yük daşınıb. ABŞ, regionda əlaqələrin inkişafına strateji maraqla yanaşaraq, yeni tranzit təşəbbüslərinə dəstək verir. Xüsusilə Ermənistan-Azərbaycan sülh prosesinin tərkib hissəsi olan "Trump Route for International Peace and Prosperity (TRIPP)" – xalq dilində "Tramp marşrutu" layihəsi diqqət çəkir. Vaşinqtonun vasitəçiliyi ilə razılaşdırılan bu layihə Azərbaycanın qərb regionları ilə Naxçıvanı Ermənistan üzərindən birləşdirəcək nəqliyyat-kommunikasiya yolunun açılmasını nəzərdə tutur. TRIPP çərçivəsində mövcud dəmir yolu və avtomobil yollarının bərpası, bəlkə də gələcəkdə neft-qaz kəmərləri və fiber-optik xətlərinin çəkilməsi planlaşdırılır. ABŞ bu "sülh marşrutu"nun reallaşmasına böyük əhəmiyyət verir, çünki Cənubi Qafqazda iqtisadi əlaqələrin normallaşması Mərkəzi Asiya ilə Avropa arasındakı böyük inteqrasiya zəncirinin son halqasını tamamlaya bilər.

Vaşinqtonda keçirilən son C5+1 sammitinin nəticəsində qəbul edilən birgə bəyanatda da TRIPP marşrutunun regional tranzit bağlantılarının inkişafındakı rolundan bəhs edilir. ABŞ, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan və Özbəkistan liderlərinin imzaladığı həmin sənəddə tərəflər Trans-Xəzər Ticarət Marşrutunun (Orta Dəhlizin) tam potensialını inkişaf etdirmək və onu TRIPP dəhlizi ilə birləşdirərək yük, informasiya və enerji axınlarının təhlükəsiz hərəkətini təmin etmək kimi hədəfləri qəbul ediblər. Həmçinin gömrük prosedurlarının uyğunlaşdırılması, C5 ölkələri arasında birbaşa avia əlaqələrin genişləndirilməsi kimi tədbirlər planı da bəyanatda yer alıb. Bu, göstərir ki, ABŞ-ın təşəbbüsü ilə Mərkəzi Asiya və Cənubi Qafqaz arasında vahid nəqliyyat məkanı formalaşdırmaq istiqamətində siyasi iradə mövcuddur. Azərbaycanın bu prosesə qoşulması isə təbii olaraq ölkəmizin tranzit imkanlarını daha da artıracaq, yeni investisiyalar cəlb edəcək.

Nəticə etibarilə, Azərbaycan ilə ABŞ arasındakı iqtisadi perspektivlər son dərəcə ümidvericidir. İki ölkə ortaq strateji maraqlar – enerji təhlükəsizliyi, regional sabitlik, ticarət yollarının açılması – naminə daha sıx əməkdaşlığa hazır olduğunu nümayiş etdirir. Azərbaycanın C5+1 formatına qoşulması rəsmiləşərsə, bu, Bakı-Vaşinqton xəttində iqtisadi inteqrasiyanı yeni institutional baza üzərinə qaldıracaq, Orta Asiyadan Avropaya uzanan geniş bir coğrafiyada Azərbaycan-ABŞ tərəfdaşlığını möhkəmləndirəcək.

Belə bir inkişaf həm ölkəmizin milli maraqlarına, həm də Birləşmiş Ştatların regionda uzunmüddətli strategiyasına xidmət edir. Geniş ictimaiyyət üçün bu, ilk növbədə, yeni iş imkanları, artan tranzit gəlirləri və iqtisadi rifah deməkdir. Amerika investisiyalarının və texnologiyalarının cəlbi sayəsində Azərbaycan iqtisadiyyatı modernləşir, rəqabət qabiliyyəti yüksəlir. Ümumən, strateji tərəfdaşlığın dərinləşməsi hər iki tərəf üçün qazan-qazan ("win-win") nəticələr vəd edir – həm Azərbaycanın bölgədə güclənməsi və iqtisadi şaxələndirilməsi üçün, həm də ABŞ-ın Avrasiya boyunca sabit və firavan tərəfdaşlar qazanması baxımından.

Göründüyü kimi, Azərbaycan–ABŞ əlaqələrinin yeni mərhələsi daha çox ticari-iqtisadi məzmun daşıyır və bu, regional inteqrasiya prosesləri ilə birbaşa bağlıdır. Qarşıdakı dövrdə istər enerji sahəsində, istər tranzit-kommunikasiya sektorunda, istərsə də yüksək texnologiyalar və innovasiyayönümlü layihələrdə bu iki ölkənin "ortaq baxış"ının real nəticələrini görəcəyimiz gözlənilir. Bu perspektivlər hər iki xalqın mənafeyinə xidmət etməklə yanaşı, geniş Avrasiya regionunda sabitlik və inkişafın təmin olunmasına da töhfə verəcəkdir.

***Nurlan ABDALOV***
***XQ***

### Ekspert rəyi



**Elman SADIQOV,**
**iqtisadçı**

Yeni yaranmış altılıq formatı, əslində, Azərbaycana yad deyil. Bu formatdan əvvəl də ölkəmiz Orta Asiya dövlətləri ilə siyasi, iqtisadi və humanitar sahələrdə əməkdaşlığı ardıcıl şəkildə genişləndirirdi. Lakin bu platformanın formalaşmasını qaçılmaz edən, onu labüd edən bir neçə əsas amil mövcuddur.

Birinci amil ondan ibarətdir ki, Azərbaycan və 5 Orta Asiya ölkəsi dünyada ticarət və tranzit xəritəsini yenidən formalaşdıran Orta Dəhlizin ən mühüm hissələrini təşkil edir. Bu dövlətlər dəhlizin aparıcı həlqələri olmaqla, Avrasiya məkanında yeni iqtisadi-siyasi nizamın formalaşmasında açar rol oynayır.

Azərbaycan Prezidenti dəfələrlə qeyd edib ki, Xəzər dənizi ayıran yox, birləşdirən dənizdir. Bu gün Orta Asiyadan Avropaya uzanan yük axınının böyük hissəsi məhz Azərbaycanın üzərindən keçəcək. Çindən Avropaya daşınan yüklər də Orta Dəhliz vasitəsilə ölkəmizdən tranzit olunacaq. Azərbaycan həm bu coğrafiyanın mərkəzi qovşağıdır, həm də Orta Asiyanı Türkiyə və Avropa bazarları ilə birləşdirən əsas qapıdır. Başqa sözlə, Azərbaycan Orta Asiya üçün ən qısa, ən əlverişli və ən etibarlı yol deməkdir.

Perspektivlər isə daha genişdir. Artıq Xəzər üzərindən yüklərin daşınması intensivləşib, Ələt Beynəlxalq Dəniz Ticarət Limanının dövriyyəsi sürətlə artır. Zəngəzur dəhlizinin açılması Orta Dəhlizin tam formalaşmasına zəmin yaradacaq və tranzit həcmində kəskin artım baş verəcək. Bunun ardınca Azərbaycanda dəyər zəncirinin genişlənməsi, emal və istehsal müəssisələrinin yaradılması, beynəlxalq şirkətlərin ölkəyə cəlb olunması üçün yeni imkanlar yaranacaq.

Nəticə etibarilə, Azərbaycanın C5+1 formatında iştirakı onun həm regional nüfuzunu gücləndirir, həm də iqtisadi perspektivlərini genişləndirir. Bu format ölkəmizə yalnız tranzit qovşağı kimi deyil, həm də istehsal və logistika mərkəzi kimi yeni imkanlar açır. Azərbaycanın Mərkəzi Asiya ilə əməkdaşlığının dərinləşməsi və bu platformada fəal iştirakı gələcəkdə həm regionun ümumi iqtisadi inteqrasiyasına, həm də ölkəmizin qlobal iqtisadi sistemdə mövqeyinin möhkəmlənməsinə ciddi töhfə verəcək.

# IX Beynəlxalq Bankçılıq Forumu

**Bakıda IX Beynəlxalq Bankçılıq Forumu keçirilir. 2 günlük məclisdə müzakirələr "Etibarlı, Təhlükəsiz və Dayanıqlı Bankçılıq" devizi altında baş tutur.**

Forum nağdsız iqtisadiyyat, rəqəmsal transformasiya, süni intellekt, kibertəhlükəsizlik, açıq bankçılıq, kapital bazarları və yeni ödəniş ekosistemləri kimi sahələrdə aktual trendlərin geniş araşdırılmasına həsr olunub.

Forumda dövlət qurumları, bank və maliyyə institutları, fintex ekosistemi, beynəlxalq təşkilatlar və aparıcı şirkətlərin nümayəndələri iştirak edirlər.

***XQ***




# Xəzərətrafı ölkələrlə əməkdaşlığın önəmi artır

**Bu günlərdə İranın Gilan vilayətinin Rəşt şəhərində Xəzəryanı ölkələrin sahilyanı regionlarının rəhbərlərinin görüşü keçirilir və bu toplantı 5 Xəzəryanı dövlət – Azərbaycan, Rusiya, İran, Qazaxıstan və Türkmənistan arasında iqtisadi əməkdaşlığın gücləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Noyabrın 18–19-da keçirilən iclasda qarşılıqlı ticarət əlaqələrinin genişləndirilməsi, nəqliyyat-tranzit imkanlarının artırılması, balıqçılıq və bioresursların qorunması, qarşılıqlı sərmayə yatırımı, ekoloji təhlükəsizlik və xüsusən də Şimal–Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişafı əsas müzakirə mövzularıdır. Məclisdə rəsmi şəxslərlə yanaşı, Xəzəryanı ölkələrin İranda akkreditə olunmuş diplomatları, iş adamları və biznes strukturlarının nümayəndələrinin iştirakı regional iqtisadi əməkdaşlığa işgüzar dinamika əlavə edir. Azərbaycan görüşdə Xəzər sahilində yerləşən rayonların rəhbərləri vasitəsilə təmsil olunur.**

Rəşt görüşü Xəzər regionunda iqtisadi əməkdaşlıq üçün koordinasiya platforması funksiyasını yerinə yetirir. Müzakirələr ticarət dövriyyəsinin artımını, tranzit dəhlizlərinin səmərəli istifadəsini və ekoloji risklərin azaldılmasını hədəfləyir. Azərbaycanın bu cür toplantılarda aktiv iştirakı ölkəni regional nəqliyyat-logistika mərkəzinə çevirir və yaxın illərdə Şimal-Cənub dəhlizi, Rəşt–Astara dəmir yolu, yeni sərhəd keçidi və Ələt limanı vasitəsilə Xəzər iqtisadiyyatına daha böyük töhfə verilməsi gözlənilir. Bu isə ölkənin ticarət və tranzit imkanlarını strateji səviyyədə artırır.

Azərbaycanın Dövlət Gömrük Komitəsinin verdiyi məlumata əsasən, Rusiya ilə ticarət dövriyyəsi yanvar–sentyabr aylarında 3,659 milyard ABŞ dolları olub ki, bu ötən ilin eyni dövrü ilə müqayisədə 4,6 faizlik artım deməkdir. Hesabat dövründə Rusiya ilə ticarət əməliyyatları Azərbaycanın ümumi xarici ticarət dövriyyəsinin 10,34 faizini təşkil edib. Bununla da Rusiya Azərbaycanla ən böyük ticarət dövriyyəsinə malik ölkələr arasında 3-cü yeri tutub. Cari ilin yanvar-sentyabr aylarında Azərbaycandan Rusiyaya ixracın həcmi 883,6 milyon ABŞ dolları olub. Bu, 2024-cü ilin eyni dövrü ilə müqayisədə 24,3 milyon ABŞ dolları və ya 2,8 faiz çoxdur. Eyni zamanda, göstərilən dövrdə Rusiyadan Azərbaycana idxalın həcmi 2,775 milyard ABŞ dolları təşkil edib ki, bu da illik müqayisədə 135 milyon ABŞ dolları və ya 5,1 faiz çoxdur.

2025-ci ilin yanvar-sentyabr aylarında Azərbaycan ilə İran arasındakı ticarət əlaqələrində Rusiyadan fərqli olaraq azalma müşahidə olunub. Dövlət Gömrük Komitəsinin hesabatlarında qeyd olunub ki, bu dövrdə Azərbaycanın İslam Respublikasına ixracı 7 milyon 212,53 min ABŞ dolları olub. Eyni dövrdə Azərbaycanın İrandan idxalı 450 milyon 401,50 min ABŞ dolları təşkil edib. Ötən ilin ilk 9 ayında İrana ixrac 10 milyon 40,2 min ABŞ dolları, İrandan Azərbaycana idxal isə 453 milyon 355,79 min ABŞ dolları olmuşdu. Bu isə o deməkdir ki, 2025-ci ilin yanvar–sentyabrında Azərbaycanla İran arasındakı ticarətində ixrac təxminən 28 faiz, idxal isə təxminən 0,65 faiz azalıb.

Xəzər sahilində yerləşən Qazaxıstanın Azərbaycan ilə ticarətinin həcmi bu ilin yanvar-sentyabr aylarında 358,2 milyon dollar və ya hesabat dövründə Qazaxıstanın ümumi ticarət dövriyyəsinin 0,3 faizini təşkil edib. Qazaxıstan Milli Statistika Bürosunun yaydığı məlumata görə, Azərbaycana ixrac 302,5 milyon dollara çatıb ki, bu da ümumi ixracın 0,5 faizini təşkil edir. Azərbaycandan malların idxalı isə 55,7 milyon dollar və ya ümumi ixracın 0,1 faizini təşkil edib.

Azərbaycan Dövlət Gömrük Komitəsinin məlumatına görə, 2025-ci ilin birinci yarısında Türkmənistan və Azərbaycan arasında ticarət dövriyyəsi 140,2 milyon ABŞ dolları təşkil edib. Altı ay ərzində Azərbaycanın ümumi xarici ticarətinin 0,57 faizi Türkmənistanın payına düşüb. Azərbaycanın Türkmənistana ixracı 30,3 milyon ABŞ dolları, Türkmənistandan idxalı isə 109,8 milyon ABŞ dolları təşkil edib. Qeyd edək ki, Azərbaycandan Türkmənistana qeyri-neft ixracı 29,5 milyon dollara çatıb və ölkənin ümumi qeyri-neft ixracının 1,68 faizini təşkil edib. Türkmənistan Azərbaycanın qeyri-neft məhsullarının ilk 10 idxalçısı sırasında yer alıb.




Xəzər iqtisadi inteqrasiyasının əsas sütunlarından biri Şimal–Cənub Beynəlxalq Nəqliyyat Dəhlizidir. Hazırda dəhliz hissə-hissə işlək vəziyyətdədir. Azərbaycan ərazisində dəmir yolu seqmenti fəaliyyət göstərir, İran–Azərbaycan sərhədində Astarada tikilən yük terminalının işləri 75 faiz tamamlanıb. Rəşt-Astara dəmir yolu xəttinin uzunluğu 162 kilometrdir və son yeddi ay ərzində 70 kilometrlik hissəsi istifadəyə verilib, hazırda yalnız 70 kilometrlik seqment qalıb ki, İran hökuməti yaxın dörd ay ərzində xəttin tam istifadəyə verilməsini planlaşdırır. Layihə mərhələli şəkildə icra olunur, rels qurğusunun quraşdırılması üçün hazırlıq işləri paralel aparılır və Rusiya ilə müqavilə bağlamış podratçı şirkət xəttin tam istifadəyə verilməsindən sonra növbəti mərhələyə keçəcək. Bu tikinti layihəsinin ümumi müddəti üç il olaraq planlaşdırılıb və Şimal–Cənub dəhlizi çərçivəsində yük daşımalarının sürət və xərclərinin optimallaşdırılmasına xidmət edəcək.

Azərbaycan və İran arasındakı digər strateji layihə isə Kələlə–Ağbənd sərhəd keçididir. İranın Azərbaycandakı səfiri Müctəba Dəmirçilu bildirib ki, körpü 2025-ci ilin sonuna qədər başa çatacaq və 2026-cı ilin mart ayında istifadəyə veriləcək. Yeni sərhəd keçidi gömrük və sərhəd mühafizə binası ilə birlikdə işləyəcək, iqtisadi mübadiləni asanlaşdıracaq, ticarət trafikini artıracaq və sərhədyanı bölgələrin iqtisadi imkanlarından daha effektiv istifadəni təmin edəcək. Səfir, həmçinin Rəşt–Astara dəmir yolu layihəsinin tamamlanmasının Şimal–Cənub dəhlizi çərçivəsində yük daşımalarını sürətləndirəcəyini, Çabahar limanı və Qəzvin–Rəşt–Astara marşrutunun isə Hindistan və Cənub–Şərqi Asiyadan malların Şimali Avropaya daşınmasında əhəmiyyətli rol oynayacağını vurğulayıb.

Azərbaycanın Ələt Beynəlxalq Dəniz Ticarət Limanı Xəzərdə ən böyük və müasir yük mərkəzi kimi çıxış edir. Limanın illik yük aşırma qabiliyyəti hazırda 15 milyon ton, gələcəkdə isə 25 milyon ton diapazonuna yüksəldilməsi planlaşdırılır. Ələt limanı Şimal–Cənub dəhlizinin kritik həlqəsi olaraq həm Rusiya və İran, həm də Mərkəzi Asiya ilə Azərbaycanı birləşdirir.

***Musa BAĞIRLI***
***XQ***

### Ekspert rəyi



**Azər BADAMOV,**
**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini**

İranın Gilan vilayətinin Rəşt şəhərində Xəzəryanı ölkələrin sahilyanı regionlarının rəhbərlərinin görüşü keçirilir. Görüşdə Xəzəryanı dövlətlər olan Azərbaycan, Rusiya, İran, Qazaxıstan və Türkmənistan nümayəndələri iştirak edirlər. Görüşün məqsədi qarşılıqlı ticarət əlaqələrinin genişləndirilməsi, Şimal–Cənub nəqliyyat və tranzit dəhlizində daşımalar, Balıqçılıq və Xəzər dənizinin ekosistemi, ekologiya problemləri, Qarşılıqlı sərmayə yatırımları və sairə məsələləri müzakirə etməkdir.

Xəzər dənizi Xəzəryanı ölkələri birləşdirir. Dəniz yolu vasitəsilə daşımalar gündən-günə artmaqdadır. Rusiya ilə İran arasında daşımaların müəyyən hissəsi dəniz vasitəsilə həyata keçirilir. Azərbaycanla Qazaxıstan və Türkmənistan arasında da daşımaları dəniz donanması vasitəsilə həyata keçirməklə Orta dəhlizin gücünü artırır. Təbii ki, müzakirə olunan mövzulardan biri də Xəzər dənizin dayazlaşması ilə bağlı problem olacaqdır. Çünki Xəzər dənizin dayazlaşması dəniz gəmiçiliyin naviqasiyasını çətinləşdirir. Belə ki, ağır tonnajlı gəmilərin sahilə yan almasında problemlər yaranır. Ona görə də Xəzəryanı ölkələr Xəzər dənizinin dayazlaşmasının qarşısının alınması üçün səfərbər olunmalıdırlar.

Digər bir məsələ Xəzərin ekosisteminin qorunmasıdır. Xəzərə təsirlərin artması və həm də dayazlaşması ekosistemini pozur. Bu da Xəzərdə balıqların populyasiyasına öz mənfi təsirini göstərir. Son vaxtlar Xəzərdə nərə balıqların kəskin azalması, suitilərin və balıqların kütləvi tələf olunması halları tez-tez baş verir. Bu baxımdan, Xəzərin ekosisteminin qorunması sahilyanı ölkələri narahat edən məsələdir və bu məsələ müzakirə olunaraq ümumi qərarların qəbul edilməsi vacibdir.

Təbii ki, digər bir məsələ Şimal–Cənub nəqliyyat dəhlizində quru yolla daşınmaların həyata keçirilməsidir. Bu dəhlizin üzərində əsas aktor Azərbaycandır. Azərbaycan Xəzəryanı ölkə olaraq həm dəniz, həm də quru yolla dəhlizlərin formalaşmasında və nəqliyyat tranzit daşımaların həyata keçirilməsini formalaşdıraraq yeni imkanlar açmışdır. Xəzər dənizi həm də Mərkəzi Asiya ilə Azərbaycan arasında rəqəmsal və yaşıl dəhlizlərin yaradılmasını aktuallaşdırıb. Ümumi şəkildə qeyd edə bilərik ki, Azərbaycan Xəzəryanı ölkələr üçün yük, rəqəmsal və enerji dəhlizləri yaratmaqla haba çevrilmişdir. Rəştdə baş tutan görüşdə əməkdaşlıq imkanlarının genişləndirilməsi məsələləri müzakirə olunacaqdır. Təbii ki, burada ticari-iqtisadi əməkdaşlıq da vacib istiqamətdir. Təəssüf ki, Xəzəryanı ölkələr öz aralarında geniş ticari iqtisadi əməkdaşlıq qura bilməyiblər. Amma potensial çox böyükdür. Bu baxımdan, belə görüşlər keçirilməklə yeni əməkdaşlıq potensialları üzə çıxarılır və ölkələrin bir-birinə inteqrasiyanı artırmaqla qarşılıqlı fayda və hörmət əsasında münasibətlər dərinləşdirilir. Bu baxımdan, Xəzər dənizi sahilyanı ölkələr qarşısında dayanmış yeni çağırışlar və imkanların reallaşdırılması bütün tərəflərə faydalar gətirir.

# Bakıda qlobal rəqəmsal gələcək müzakirəsi




**Bakı qlobal rəqəmsal gündəmin mərkəzinə çevrilir. Birləşmiş Millətlər Təşkilatının ixtisaslaşmış qurumu olan Beynəlxalq Telekommunikasiya İttifaqının (BTİ) ən nüfuzlu tədbirlərindən biri – Ümumdünya Telekommunikasiya İnkişaf Konfransı (WTDC-25) ilk dəfə olaraq MDB məkanında Azərbaycanda keçirilir.**

Bu mötəbər məclis təkcə telekommunikasiya sahəsinin inkişafı baxımından deyil, həm də ölkəmizin artan qlobal rolunun göstəricisi kimi böyük əhəmiyyət daşıyır. Dünyada informasiya və kommunikasiya texnologiyalarının sürətlə dəyişdiyi bir vaxtda belə bir platformaya ev sahibliyi etmək Azərbaycanın rəqəmsal gələcəyə verdiyi önəmin bariz nümunəsidir.

Konfransın 2-ci günündə müzakirələrdə, ABŞ, Almaniya, Türkiyə, Rusiya, Fransa, İsrail, Yaponiya, Çin, Tailand, İsveçrə, Yunanıstan, Malayziya, Slovakiya, Qazaxıstan daxil olmaqla, 160-dan artıq ölkədən 2 min 500 nəfər iştirak edib. Onların arasında 60 ölkədən nazir və nazir müavini səviyyəsində nümayəndələr var. Konfransın gündəliyində olan Rəqəmsal inkişaf üçün qlobal yol xəritəsinin (2026–2029) qəbul edilməsi; qlobal səviyyədə razılaşdırılmış Bəyannamə və Fəaliyyət Planının hazırlanması; yeni regional təşəbbüslərin müəyyənləşdirilməsi; qlobal səviyyədə telekommunikasiyanın inkişaf prioritetlərinin müəyyən edilməsi; ən az inkişaf etmiş ölkələrin (LDCs), dənizə çıxışı olmayan inkişaf etməkdə olan ölkələrin (LLDCs) və kiçik ada və inkişaf etməkdə olan dövlətlərin (SIDS) rəqəmsal inkişaf ehtiyaclarının həll edilməsi kimi məsələlər diqqət mərkəzində olacaq.

Qlobal görüşə 500-dən artıq gənc də qatılıb. Paytaxtdakı konfransda həm beynəlxalq, həm də yerli gənclərin iştirakı onlara qlobal texnoloji tendensiyalarla tanış olmaq və beynəlxalq tərəfdaşlıqlar qurmaq üçün imkanlar yaradır.

Son illər ölkəmizdə həyata keçirilən ardıcıl siyasət nəticəsində rəqəmsal transformasiya dövlət inkişaf strategiyasının əsas sütunlarından birinə çevrilib. Təsdiqlənmiş rəqəmsal inkişaf konsepti çərçivəsində İKT infrastrukturu gücləndirilir, startap ekosistemi dəstəklənir, rəqəmsal xidmətlərin əhatəsi genişlənir. Genişzolaqlı sabit internet şəbəkələrinin qurulması, regionlarda internetin əhatə dairəsinin artırılması, kənd və ucqar ərazilərdə xidmət keyfiyyətinin yüksəldilməsi istiqamətində irəliləyiş göz önündədir. Bu addımlar, rəqəmsal dünyaya inteqrasiya prosesini daha da sürətləndirir və ölkəni beynəlxalq texnoloji xəritədə mühüm mövqeyə daşıyır.

WTDC-25 Azərbaycanın beynəlxalq əlaqələrini genişləndirəcək, ölkəmizi qlobal telekommunikasiya gündəminin mühüm iştirakçısına çevirəcək. Dünyanın aparıcı şirkət və qurumlarının Bakıya gəlməsi yerli İKT sənayesinin imkanlarını dünya ictimaiyyətinə təqdim etmək, yeni tərəfdaşlıqlar qurmaq üçün unikal imkandır.

WTDC-25 çərçivəsində diqqət mərkəzində olacaq məsələlərdən biri də rəqəmsal bərabərlikdir. Gənclər, qadınlar və sosial cəhətdən həssas qruplar üçün rəqəmsal bacarıqların artırılması, regionlarda internet xidmətlərinin genişləndirilməsi, "rəqəmsal uçurum"un azaldılması üzrə qlobal təcrübənin paylaşılması Azərbaycan üçün mühüm dəyər kəsb edir. Bu istiqamətdə ölkəmizin son illərdə atdığı addımlar, "ağıllı kənd", "yaşıl texnologiyalar", innovativ nəqliyyat sistemləri kimi layihələr WTDC-25-in müzakirə mövzuları ilə tam uzlaşır.

WTDC-25 Azərbaycanın rəqəmsal inkişaf yolunda mühüm dönüş nöqtəsidir. Bu tədbir ölkəmizin texnoloji sahədə qlobal söz sahibi olmaq iddiasını gücləndirir, yeni əməkdaşlıqların, investisiya imkanlarının və strateji tərəfdaşlıqların qapısını açır. Azərbaycan bu gün artıq rəqəmsal transformasiyanın fəal iştirakçısıdır. Bakıda keçirilən bu mötəbər beynəlxalq konfrans ölkəmizi qlobal rəqəmsal gələcəyin formalaşmasında aparıcı mərkəzlərdən birinə çevirə bilər.

***Ekspert rəyi***



**Bəhruz ƏLİYEV,**
**İnformasiya Texnologiyaları üzrə mühəndis-tədqiqatçı, Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının (AKTA) eksperti**

**Ümumdünya Telekommunikasiya İnkişaf Konfransı 2025, qısaca WTDC 25 adlanan tədbir International Beynəlxalq Telekommunikasiya İttifaqının (BTİ) təşkil etdiyi 4 ildən bir keçirilən yüksək səviyyəli konfransdır. Beynəlxalq Telekommunikasiya İttifaqı (BTİ) Birləşmiş Millətlər Təşkilatının (BMT) sisteminə daxil olan ixtisaslaşmış agentliyidir. 2025-ci il Ümumdünya Telekommunikasiyanın İnkişafı Konfransının 17-28 noyabr 2025-ci il tarixlərində Bakıda keçirilməsi əlamətdardır.**

Konfransın məqsədi ölkələrin, beynəlxalq təşkilatların və sənaye tərəfdaşlarının bir araya gəlməsi, telekommunikasiya və İKT sahəsində strateji prioritetləri müəyyən etmək, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında əlçatanlıq məsələlərini müzakirə etməkir. Bu baxımdan, tədbir texnoloji trendləri, ölkələrin rəqəmsal hazırlıq səviyyələrini və gələcəkdə hansı istiqamətdə irəliləyəcəklərini müəyyənləşdirmək üçün çox önəmlidir.

Dövlətimiz tərəfindən rəqəmsal inkişaf konsepti təsdiqlənib, bu konseptə əsasən, İKT infrastrukturu gücləndirilir, startap ekosistemi dəstəklənir və vətəndaşlara rəqəmsal xidmətlər genişlənir. Ölkədə internetin daha geniş əhatəli olmasına, sabit genişzolaqlı internet şəbəkələrinin qurulmasında uğurlu addımlar atılıb.

MDB məkanında bu cür tədbir ilk dəfə olaraq Azərbaycanda keçirilir. Bu, ölkəmizin regional liderlik mövqeyini daha da gücləndirir. Ev sahibliyi diplomatik baxımdan böyük imkandır. Ölkə adının qlobal rəqəmsal və telekommunikasiya gündəmini müəyyən edən platformada görünməsi, beynəlxalq əlaqələri artırması üçün fürsətdir.

Tədbir inkişaf strategiyalarını beynəlxalq təcrübə ilə uzlaşdıra bilər, bu isə ölkənin rəqəmsal transformasiyasını sürətləndirə bilər. Yerli sənaye və xidmət sahələrini beynəlxalq nümayəndələrə təqdim etmək, xarici investisiyaları cəlb etmək üçün fürsətlər təqdim edə bilər.

Tədbirdə müzakirə ediləcək bir çox mövzular var. Kibertəhlükəsizlik, rəqəmsal bacarıqların inkişafı, startap və innovasiya ekosistemi, infrastuktur və spektrin idarə edilməsi, kəndlərdə və az imkanlı bölgələrdə internetin yayılması kimi məsələlər, ITU-nun sənədlərinə görə, WTDC-nin fəaliyyət sahələridir. Ona görə də regionlara internet və xidmətlərin çatdırılmasını sürətləndirmək, rəqəmsal uçurumu azaltmaq, gənclərə, qadınlara və sosial cəhətdən az imkanlı qruplarda rəqəmsal bacarıqlar formalaşdırmaq, yerli startap və innovasiya şirkətlərini beynəlxalq arenaya çıxarmaq, potensial investisiyaları cəlb etmək əhəmiyyətlidir.

***Nurlan ABDALOV***
***XQ***

# Sağlam qida sağlam cəmiyyət deməkdir

## *Bəs zay məhsullar piştaxtalara necə çıxarılır?*



**Müasir dövrdə ərzaq təhlükəsizliyi hər bir dövlətin milli təhlükəsizlik sisteminin ayrılmaz hissəsidir. Çünki vətəndaşların sağlamlığı, ölkədə ictimai sabitlik, eləcə də iqtisadiyyatın dayanıqlılığı təhlükəsiz qida istehsalı və dövriyyəsi ilə birbaşa bağlıdır. Azərbaycanda bu sahədə həyata keçirilən layihələrin miqyasının getdikcə genişləndirilməsi, nəzarət mexanizmlərinin təkmilləşdirilməsi bunun bariz ifadəsidir.**

Lakin görülən genişhəcmli işlərə baxmayaraq, istehlakçı hüquqlarının tez-tez pozulması ciddi narahatlıq yaradır. Məsələn, ticarət müəssisələrində bəzən vaxtı keçmiş məhsulların paketlərdən torbalara doldurularaq çəki ilə satıldığı kimi hallar müşahidə edilir. Qida ekspertlərinin fikrincə, bu, insan sağlamlığı baxımından riskli hal sayılır.

Düzdür, məhsul ticarət məntəqələrinə verildikdə istehsalçı ilə satış şəbəkəsi arasında qarşılıqlı razılaşma olur: məhsulların son istifadə müddəti bitdikdə və ya müddətindən əvvəl keyfiyyət göstəriciləri pozulduqda, onlar istehsalçıya və ya distribütor firmalara qaytarılır. "Yeyinti məhsulları haqqında" Qanunun 16-cı maddəsində də bildirilir ki, standartlara və tələblərə cavab verməyən, yararlılıq müddəti sona çatan yeyinti məhsulları qanunvericilikdə nəzərdə tutulmuş qaydada götürülərək zərərsizləşdirilir və ya məhv edilir.

Bununla bağlı qərar məhsulun müvafiq müayinəsi və ekspertizası aparıldıqdan sonra bu sahədə dövlət nəzarəti funksiyalarını həyata keçirən müvafiq icra hakimiyyəti orqanları tərəfindən qəbul olunur. Eyni zamanda, zərərsizləşdirilməsi və ya məhv edilməsi, heyvanlara yemlənməsi barədə qərar verilən yeyinti məhsulları xüsusi uçota alınır və ayrıca saxlanılır. Bu məhsulların saxlanmasına və nəzərdə tutulmuş qaydada istifadəsinə məsuliyyəti məhsul sahibi daşıyır.

Ticarət müəssisələrində vaxtı keçmiş məhsulların paketlərdən torbalara doldurularaq satılması barədə isə "Yeyinti məhsulları haqqında" Qanunun 11-ci maddəsində deyilir ki, yeyinti məhsullarının qablaşdırılması və etiketləşdirilməsi onların keyfiyyətinin, eləcə də qidalılıq dəyərinin yararlılıq müddətində təhlükəsiz saxlanmasını və istifadəsini təmin etməlidir. Müvafiq icra hakimiyyəti orqanlarının icazəsi olmadan yeyinti məhsuluna "müalicəvi", "pəhriz", "ekoloji təmiz" və onlara bərabər tutulan adların verilməsinə və reklam xarakterli digər məlumatların etiketdə yerləşdirilməsinə yol verilmir.

Yeyinti məhsullarının istehsalçıları tərəfindən istehsal edilən məhsullar Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq normativ sənədlərə və ticarət qaydalarına uyğun qablaşdırmalı və etiketləşdirilməlidir. Qanunvericilikdə digər hal nəzərdə tutulmamışdırsa, etiketdə məhsulun adı, növü və tərkibi, istifadə sahəsi və qaydaları, istehsal tarixi və yararlılıq müddəti, saxlanma şərtləri, istehsalçının adı, ünvanı və normativ sənədlərdə tələb olunan digər məlumatlar olmalıdır. Ekoloji təmiz kənd təsərrüfatı və ərzaq məhsullarının markalanması qaydası müvafiq qanunvericiliklə tənzimlənir.

Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) Daxili İşlər Nazirliyi (DİN) əməkdaşları ilə ticarət şəbəkələrində mütəmadi keçirdiyi birgə əməliyyatlar da məhz bu baxımdan strateji önəm daşıyır. Bu əməliyyatlar zamanı mənşəyi məlum olmayan, baytarlıq-sanitariya qaydalarına uyğun gəlməyən, insan sağlamlığı üçün təhlükəli sayılan yararsız məhsulların üzə çıxarılması problemin arxasında həm sistem xarakterli, həm də sahibkarlıq məsuliyyəti ilə bağlı ciddi məsələlər dayandığını göstərir.

Birgə əməliyyatların nəticələrindən aydın olur ki, mənşəyi bilinməyən ət və digər qida məhsullarının satışına səbəb olan amillər çoxşaxəlidir və bir-biri ilə sıx bağlıdır. Bu məsələdə "kölgə" iqtisadiyyatına meyil və gəlir əldə etmək üçün məsuliyyətsizlik daha çox diqqət çəkir. Belə ki, bəzi sahibkarlar minimum xərc, maksimum gəlir prinsipi ilə hərəkət edərək, nəzarətsiz şəraitdə kəsilən heyvanların ətini və ya vaxtı ötmüş ərzağı daha ucuz qiymətə alıb satmağa çalışırlar. Bu isə həm qanunsuz fəaliyyət, həm də ictimai təhlükə yaradır.

Bu sahədə gigiyena və istehsal standartlarına əməl edilməməsi də ciddi narahatlıq doğurur. Bir sıra anbar və ticarət məntəqələrində temperatur, saxlanma şəraiti, sanitar norma kimi əsaslı tələblərin pozulması nəticəsində tez xarab olan məhsullar isə gizlədilərək müəyyən müddət sonra satışa çıxarılır. Bundan başqa, qida məhsullarının harada istehsal edilməsinin, necə daşınmasının, hansı şəraitdə saxlanmasının tam izlənilə bilməməsi də hüquqi pozuntulara şərait yaradır.

Respublikamızda bu sahədə vəziyyəti ağırlaşdıran səbəblərdən biri də istehlakçı davranışı və maarifləmə səviyyəsi ilə bağlıdır. Belə ki, bəzi alıcıların ucuz qiymət naminə məhsulun keyfiyyətinə diqqət yetirməmələri, istehlakçı hüquqlarından xəbərsiz olmaları problemin uzun müddət davam etməsinə şərait yaradır. Nəticədə təhlükəli məhsullara tələb formalaşır. Kiçik sahibkarlıq subyektlərində məsuliyyət hissinin arxa plana keçməsi isə zay və keyfiyyətsiz məhsulların piştaxtalara yolunu qısaldır. Xüsusilə kiçik ət satışı məntəqələrində peşəkar heyətin olmaması, qida təhlükəsizliyi üzrə elementar biliklərin çatışmaması da risk amili kimi ciddi narahatlıq doğurur.

***Ekspert rəyi***



**Eyyub HÜSEYNOV,**
**Azad İstehlakçılar Birliyinin sədri**

**Ticarət müəssisələrində yararlılıq müddəti keçmiş paketli məhsullar ildən-ilə azalır. Çünki market sahibləri üçün vaxtı keçmiş məhsulun piştaxtada satışının aşkarlanması 1500 manata qədər cərimə ilə nəticələnə bilər. Ölkədə külli miqdarda markalanmamış ərzaq malları mövcuddur. Bu məhsullar əsasən ara marketlərdə və bazarlarda satılır, əksər şikayətlər isə məhz paketlənməmiş məhsullar haqqındadır.**

Bütün məsələlərin həlli üçün Nazirlər Kabineti 10 il əvvəl 94 saylı qərar qəbul edib. Qərara görə, ölkədəki bütün mallar paketlənməli, üzərində buraxılma tarixi, son istifadə müddəti, saxlanma şəraiti və digər məlumatlar göstərilməlidir. Bu qərar qismən yerinə yetirilir, amma təkrar tətbiq olunsa, vəziyyət düzələ bilər.

Əhalinin ən çox şikayət etdiyi məhsullar isə ət və ət məhsulları, tərəvəzlər və çərəzlərdir. Çərəzlər əksər hallarda qurdlanır və sağlamlığa mənfi təsir göstərir. İstehlakçılar belə hallarla qarşılaşdıqda fəal olmalı və şikayətlərini gecikdirmədən müvafiq qurumlara bildirməlidirlər.

Məhsulların yararlılıq müddəti keçdikdən sonra onlar qablarından çıxarılıb etiketsiz halda satılır. Belə mallar şübhəli mallardır və "Azərbaycan Respublikasında ticarət, ictimai iaşə, məişət və digər növ xidmət Qaydaları"nın təsdiq edilməsi haqqında Nazirlər Kabinetinin 94 saylı qərarının pozulması deməkdir. Bu cür mallar təkcə yararlılıq müddəti keçmiş mallar deyil, eyni zamanda, saxlanma şəraiti pis olan məhsullardır. Biz açıq şəkildə bir çox məhsulların – balığın, qəndin, düyünün və s. açıq satılması halları ilə qarşılaşırıq. Bunlar yolverilməzdir və dövlətin qanunlarının pozulması deməkdir.

Bəs mövcud problemin tam aradan qaldırılması üçün hansı zəruri addımlar atılmalıdır? Ekspertlər bu suala cavablarında bildirirlər ki, Azərbaycan hökuməti bu istiqamətdə mühüm tədbirlər görsə də, məsələ sistem xarakterli yanaşma tələb edir. Problemin köklü həlli üçün bir neçə istiqamət önə çıxır. Birincisi, hər bir ət və ərzaq məhsulu istehsaldan satışa qədər rəqəmsal şəkildə qeydiyyata alınmalı, barkod sistemi (müəyyən informasiyanı texniki vasitələrlə rahat oxunacaq şəkildə reallaşdıran qara və ağ zolaqların ardıcıllığı), eləcə də elektron müşayiət sənədləri geniş tətbiq edilməlidir. Bu, həm nəzarəti gücləndirir, həm də sahibkarın məsuliyyət zonasını dəqiq müəyyənləşdirir.

Mənşəyi məlum olmayan, baytarlıq-sanitariya qaydalarına uyğun gəlməyən, insan sağlamlığı üçün təhlükəli sayılan yararsız məhsulların satışının qarşısını almaq üçün cərimə və sanksiyaların sərtləşdirilməsinə də zəruri amil kimi yanaşılmalıdır. Belə ki, qida təhlükəsizliyi qaydalarını pozanlarla bağlı cəzaların sərtləşdirilməsi, xüsusilə təkrar hal baş verən müəssisələrin fəaliyyətinin dayandırılması preventiv təsirə malikdir.

**Qida eksperti Salman Hüseynov** keyfiyyətsiz ət məhsullarının ticarət müəssisələrində satışının qarşısının alınması üçün, ilk növbədə, baytarlıq nəzarətinin daha da gücləndirilməsinə zəruri ehtiyac duyulduğunu vurğulayıb. O, eyni zamanda, kəsim məntəqələrinin sertifikatlaşdırılmasının, qeyri-leqal kəsimlərin qarşısının alınmasının, mobil yoxlama qruplarının fəaliyyətinin genişləndirilməsinin vacibliyini də bildirib.

S.Hüseynov daha sonra deyib: "Bu məsələdə sahibkarların maarifləndirilməsinə və mütəmadi təlimlərin keçirilməsinə xüsusi diqqət yetirilməlidir. Başqa sözlə, kiçik və orta sahibkarlar üçün qida təhlükəsizliyi üzrə təlimlər reallaşdırılmalı, zəruri standartlar izah edilməli və praktik nümunələr göstərilməlidir. İstehlakçıların maarifləndirilməsi üzrə kampaniyaların təşkili də unudulmamalıdır. Televiziya, sosial şəbəkələr və maarifləndirmə platformalarında təhlükəsiz qidanın seçilməsi qaydaları haqqında proqramlar hazırlanmalıdır.

Ekspertə görə, birgə nəzarət mexanizminin davamlığının təmin edilməsi də bu məsələdə əsas şərtlərdən biridir. AQTA və DİN əməkdaşlarının mütəmadi reydləri, eləcə də digər qurumların (İqtisadiyyat Nazirliyi, Dövlət Vergi Xidməti və s.) bu prosesə qoşulması monitorinq sistemini daha səmərəli edir.

**Qida mütəxəssisi Vüqar Qasımovun** fikrincə, sözügedən problemin aradan qaldırılması üçün bu istiqamətdə mövcud qanunvericilik beynəlxalq standartlara uyğunlaşdırılmalı, bu zaman Avropa təcrübəsinə xüsusi diqqət yetirilməlidir. Yeri gəlmişkən, Avropa İttifaqı (Aİ) ölkələrində qida təhlükəsizliyi sahəsində çox inkişaf etmiş nəzarət sistemi mövcuddur. Bununla belə, Avropa da daxil olmaqla dünyanın hər bir ölkəsində müəyyən pozuntular aşkarlanır. Əsas fərq isə pozuntuların miqyasının az olması və nəzarət mexanizmlərinin daha sərt işləməsi ilə bağlıdır.

Aİ ölkələrində hər bir məhsulun mənşəyi, daşınması və satışı barədə məlumat vahid elektron sistemdə toplanır. Sahibkarların məlumatı gizlətməsi mümkün deyil. Ət satışına gəldikdə isə bu sahədə elə bir ciddi problem nəzərə çarpmır. Çünki kəsim prosesi tam nəzarət altındadır, baytarlar tərəfindən hər heyvan yoxlanılır, uyğun olmayan məhsul dərhal məhv edilir. Qeyri-leqal kəsim faktları isə demək olar ki, yoxdur. Qida təhlükəsizliyinə dair qaydaların pozulması həm müəssisələr, həm də müəssisə rəhbərləri üçün çox ağır sanksiyalarla nəticələnir.

Bu ölkələrdə istehlakçı maariflənməsi də yüksək səviyyədədir. Belə ki, avropalı alıcı məhsulun etiket məlumatına, mənşəyinə, sertifikatına diqqətlə baxır. Eyni zamanda, ucuz və şübhəli məhsula tələbin olmaması amili bazarı sağlamlaşdırır. Bundan başqa, inkişaf etmiş ölkələrdə məhsulun geri qaytarılması sistemi var. Yəni satış prosesində hər hansı uyğunsuzluq aşkarlanarsa, ticarət müəssisələri dərhal məhsulu geri qaytarır, ictimaiyyəti məlumatlandırır. Bu, həm satış şəbəkəsinin nüfuzu, həm də sağlamlıq baxımından ciddi mexanizmdir.

V.Qasımov qeyd edir ki, Azərbaycanda son illər qida təhlükəsizliyi sisteminin təkmilləşdirilməsi istiqamətində mühüm addımlar atılıb və həm qanunvericilik, həm idarəetmə, həm də ictimai nəzarət baxımından xeyli irəliləyiş qeydə alınıb. Lakin bu, kifayət etmir, rəqəmsallaşma və izləniləbilərlik bütün zəncir boyu təmin olunmalı, sahibkar məsuliyyəti artırılmalı, yüksək sanksiyalar və şəffaf nəzarət mexanizmi tətbiq olunmalıdır.

Azərbaycanda bütün bu layihələrin həyata keçirilməsi həm təhlükəsiz qida mühitinin formalaşmasına, həm də insan sağlamlığının tam təmin olunmasına xidmət edir. Qida təhlükəsizliyi yalnız dövlət qurumlarının yox, həm də cəmiyyətin hər bir üzvünün məsuliyyətidir. Dövlətin nəzarət tədbirləri ilə yanaşı, sahibkarın dürüstlüyü və istehlakçının diqqəti birləşdikdə bu sahədə qarşıya çıxan problemlərin birdəfəlik həllinə nail olmaq mümkündür.

***Vaqif BAYRAMOV***
***XQ***

# Lerikdə badamçılıq

## *Zuvand ərazisində bu bağlar elmi əsaslarla becərilir*

**Zuvand ərazisi uca dağların, sıldırım qayaların əhatəsində yerləşir. İqlimi rayonun digər ərazilərindən tamamilə fərqlənir. Yayı mülayim quru, qışı soyuq keçir. Bu yerlərdə yayın ən qızmar dövründə temperatur 15-20 dərəcədən yuxarı qalxmır. Kəndin münbit torpağı, quru iqlimi bağçılığın inkişafı üçün əlverişlidir.**

Sovet dönəmində görkəmli torpaqşünas alim, akademik Həsən Əliyev dəfələrlə Zuvandda olmuş, bu yerlərin torpaq örtüyünü tədqiq etmişdir. Akademikin tövsiyəsi və məsləhətləri əsasında ilk dəfə rayonun Zərinqala kəndində 10 hektar sahədə badam bağları salınmışdır.

O dövrdə uzun illər rayonda rəhbər vəzifələrdə işləmiş, el ağsaqqalı Həmzə Şıxəliyevin oğlu, tanınmış tibb alimi, bacarıqlı səhiyyə təşkilatçısı **Alim Şıxəliyev** akademik Həsən Əliyevin Lerikdə kənd təsərrüfatının inkişafına göstərdiyi əvəzsiz xidmətlərindən danışaraq dedi:

–Yaxşı xatırlayıram, 1970-ci illərin ortalarında Həsən müəllim tez-tez Lerikə gələrdi. Məhz onun təşəbbüsü ilə rayonumuzda üzüm və badam bağları salındı. Həsən müəllim yaxın dostu, bacarıqlı təsərrüfatçı kimi ad çıxarmış Həmzə müəllimə Zuvandın təbiətinin, iqliminin Ordubad rayonunun iqliminə çox oxşadığını deyərək ərazidə badam ağaclarının əkməsini tövsiyə edib. Beləcə, Zuvandda badam bağları salınıb. Yeri gəlmişkən, təkcə Zuvandda deyil, o illərdə qonşu Qosmalian, Yuxarı Anburdərə və digər kəndlərdə də badam bağları salınıb.

Alim Şıxəliyev sonra vurğuladı ki, Azərbaycan təbiətinin vurğunu olan görkəmli akademik hər dəfə Lerikə gələndə yolunu badam bağlarına salır, agacların vəziyyəti, inkişafı ilə yerindəcə maraqlanırdı. O vaxt ildə orta hesabla bağlardan 30 tondan artıq məhsul yığılırdı.

**Böyük təbiətşünas alimin yadigarı olan badam bağları bu gün Lerikdə necə qorunur? Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Genetik Ehtiyatlar İnstitutunun Zuvand Dayaq Məntəqəsinin müdiri Elxan Nurullayev sualımızı belə cavablandırdı:**

–Üstündən yarım əsr keçsə də, hörmətli Həsən müəllimin təşəbbüsü ilə salınan badam bağlarını qiymətli yadigar kimi qoruyub saxlayırıq. Artıq şəxsi təsərrüfatlarda da badam ağacları əkilir, meyvəçiliyin







bu gəlirli sahəsinin inkişafına böyük önəm verilir.

Yeni salınan badam bağları ilk illər əsasən 5-6 ildən sonra məhsul verməyə başlayır. Tam məhsula düşmüş bir badam ağacından 5-7 kiloqram, bir hektar badam bağından isə 3 tondan 4,2 tona kimi məhsul toplamaq mümkün olur. Badamın bir kiloqramı 5-7 manata satıldıqda, hektardan 2500-2800 xalis gəlir əldə etmək mümkündür.

Şirin badam əsasən təzə halda yeyilir. Acı badamdan badam və efir yağları alınır. Bu məhsullar ətriyyat, əczaçılıq sənayelərində kamfora, məlhəm, emulsiya istehsalı üçün istifadə olunur. Acı badam ləpəsində olan amiqdalin alkaloidin mədə, bronxial astma, ciyər və qulaq xəstəliklərinin müalicəsində səmərəli nəticələr verir.

Bəli, bu gün Lerikdə badamçılığa maraq çox artıb. Şəxsi təsərrüfatlarda yeni bağların salınmasına, onların intensiv şəkildə becərilməsinə önəm verilir.

***Əlisəfa HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

# Çalxanqalanın "Dərələyəz" nişanlı məhsulları



**Çalxanqala kəndi Naxçıvanın qədim yaşayış məntəqələrindən biridir. Kəngərli rayonunun inzibati ərazi dairəsinə aid olan bu kənd Dərələyəz silsiləsində, dağətəyi zonada yerləşir. Sakinlərin çoxu Dərələyəz mahalının Naxçıvanla həmsərhəd olan yaşayış məntəqələrindən buraya pənah gətiriblər.**

Çalxanqala həm əkinçilik, həm də heyvandarlıq üçün əlverişli şəraitə malikdir. Kənd camaatı zəhmətsevər insanlardır. Onlardan biri də nəinki Kəngərli rayonunda, eləcə də muxtar respublikada yaxşı tanınan **Mətləb Dünyamalıyevdir.** O deyir ki, buraya gələndə 27 yaşı var idi, indi isə 61 yaşında olub. Həyatı boyu təsərrüfatla məşğul olub. Necə deyərlər, çörəyi bundan çıxır.

Qeyd edək ki, Çalxanqalada üzüm tinglərini qışda torpağa basdırmağa ehtiyac olmur. Belə ki, kəndin sıx dağlarla əhatə olunması sərt küləyin, çovğunun qarşısını alır. Kənddə ən çox becərilən üzüm sortları "Qara mələyi", "Xindoqnı" və müəyyən qədər Bayanşiradir. Bu da onunla əlaqədardır ki, kənddə üzüm sahələri olan insanların çoxu ondan şərab istehsal edirlər.

Mətləb Dünyamalıyev uzun illərdir bu işlə məşğuldur. Həm də işinin peşəkarı olduğundan hazırladığı məhsullar da çox yerdə tanınır. Mətləb kişi bu sahə ilə bir neçə il bundan əvvəl ailə təsərrüfatı qurmağa başlayıb. Yetişdirdiyi üzümdən bir neçə növ şərab məhsulları hazırlayaraq yaxşı təcrübə qazanıb. Alıcılar onun istehsal etdiyi məhsulların (qırmızı və ağ şərab, konyak, xum çaxırı) keyfiyyətindən razı qalıblar. Sahibkar muxtar respublikada 2023-cü ildə keçirilmiş festivallarda mükafatlara layiq görülüb. Ötən il Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Əmək" ordeni ilə təltif olunub.

Mətləb Dünyamalıyev kənddə yaşadığı həyətin bir hissəsində şərab sexi də yaradıb. Məlumat verdi ki, bu istehsal sahəsi 124 kvadratmetrdir. Girişdə emal çənləri ilə qarşılaşırıq. Bu çənlərdən ikisi 3 tonluq, biri 2 tonluq, biri isə 1 tonluqdur. Üzüm isti havalarda 6-7 gün, soyuq günlərdə isə 10 gün bu çənlərdə saxlanılır. Sonra isə fərqli üzüm sortlarından sıxılaraq alınmış üzüm suyu xumlara – müxtəlifölçülü saxsı küpələrə doldurularaq "vegetasiya" dövrünə buraxılır.

Öyrənirik ki, təbii gil məhsulun təbii dadının saxlanılmasına müsbət təsir göstərir. 60 gün müddətində hazır olan xum çaxırı müxtəlif ölçülərdə qablaşdırılaraq etiketlənir və satışa çıxarılır. Bununla yanaşı, şərab məhsulları buradakı 30 və 250 litrlik palıddan hazırlanmış ağac çəlləklərdə də saxlanılır. Burada istehsal olunan məhsullar "Dərələyəz" əmtəə nişanı ilə satışa təqdim olunur.

Mətləb Dünyamalıyevin uğur hekayəti göstərir ki, zəhmət, inam və dövlət dəstəyi bir araya gələndə, kiçik bir ailə təsərrüfatı belə yaxşı nailiyyətlərə imza ata bilir. Belə insanların fəaliyyəti bir daha sübut edir ki, zəhmətə sevgi və əməyə hörmət varsa, uğur da gec-tez qapını döyəcək.

***Səbuhi HƏSƏNOV,***
***XQ-nin Naxçıvan müxbiri***

# Cəbrayılda uşaqlara sevgi-sayğı



**Bu günlərdə Cəbrayıl rayonunda "Uşaqlarımızı hüquqları ilə qoruyaq" adlı maarifləndirmə toplantısı keçirilib.**

İ.Tahirov adına Mehdili kənd tam orta məktəbində keçirilən yığıncaqda Cəbrayıl Rayon İcra Hakimiyyəti başçısının müavini Fəridə İbayeva, Uşaq Səfirlər Məclisinin rayon üzrə nümayəndələri Aynur Məmmədova, Tunar Süleymanov, ictimai fəallar, məktəblilər, valideynlər, məktəbin müəllim və şagird kollektivi iştirak ediblər.

Toplantıda çıxış edənlər bildiriblər ki, uşaqlar hər bir xalqın, dövlətin qiymətli sərvətidir. Bu baxımdan, hər kəs onların hüquqlarının və maraqlarının qorunmasını, uşaqlara qayğısını əsirgəməməlidir.

Aylığın keçirilməsində məqsəd də uşaqlara diqqət və qayğının daha da artırılması, uşaq hüquqlarının həyata keçirilməsinin və onların daha effektiv müdafiəsinin təmin olunmasıdır.

Tədbir Uşaq Səfirlər Məclisinin mövzu ilə bağlı hazırladığı videoçarxın nümayişi ilə davam etdirilib.

***XQ***

# Əsl bağban odur ki...




**Son illər Qubada öz pay torpaqlarında dədə-baba meyvə sortlarını əkib-becərənlərin sayı artıb. Səbəbi isə budur ki, belə meyvələr çox ətirli və dadlı olur. Təbii ki, müştərilər ağızlarının dadlarını bilirlər. Kim təbii məhsulu qoyub hibrid meyvə alar?!**

Uzun illər Birinci Nügədi kəndində meyvəçiliklə məşğul olan Firuz Babayev dedi ki, sovet dönəmində kolxoz və sovxozlara yuxarıdan qeyri-real planlar göndərilirdi. Ona görə də keyfiyyət arxa plana keçmişdi. İndi vəziyyət dəyişib. Fermerlər özləri imkanlarına və bazarın tələblərinə uyğun sərbəst qərarlar verirlər. Hamı istəyir ki, orqanik meyvələr yetişdirib daha çox gəlir əldə etsin. Axı şəhərlərdə alıcıların çoxu artıq geni dəyişdirilmiş meyvələrdən imtina edir.

65 yaşlı bağban Firuz Babayev kənddə səriştəli bağbanlardan sayılır. Mənə həyətyanı sahəsindəki alma, armud, heyva və zoğal ağaclarını bir-bir göstərib, böyük həvəslə onların bir çoxunun tingini haradan və nə vaxt tapıb gətirdiyini söylədi. İndi onun 30 sotdan bir qədər yuxarı olan həyətyanı sahəsində "Qəndi sinab", "Cırhacı", "Sarı turş" və sair qədimi alma ağacları var.

Ev sahibi sonra bir neçə armud ağacını göstərib şəstlə dedi ki, bunların çoxu hazırda rayonun kəndlərində az təsadüf edilən meyvə növləridir. Firuz kişi armud ağaclarının bir-bir göstərərək dedi:

– Buradakı "Abbasbəyi", "Qorxmazı", "Sarıarmud", "Quşbudu" kimi nadir sortlarını öz əllərimlə əkib-becərmişəm. Hər birinin üstündə əsirəm ki, ömürləri uzun olsun, bol məhsul versinlər.

Bağban yaxınlıqdakı qollu-budaqlı tut ağacının yanına aparıb dedi:

– Bu ağac bizim çörək ağacımızdır. Yalan olmasın, bu il bundan 30 litrdən çox əla doşab hazırlamışıq. Bir hissəsini satmışıq, qalanını da özümüz üçün saxlamışıq.

Firuz Babayev sonra məni 10-15 metr irəlidəki şitilliyə apardı. Burada bəlkə yüzlərlə ting vardı.

Həmsöhbətim qeyri-ixtiyari olaraq özünü öymək vərdişindən də vaz keçmədi:

– Əsl bağban odur ki, özü məhsuldar tinglər becərsin, qohum-qonşunun, el-obanın işinə yarasın.

... Hacıbaba kişi də Birinci Nügədi kəndində yaxşı tingçi kimi ad çıxarıb. Onunla da görüşmək qərarına gəldim. Gəlişimə çox sevindi. Əslində, biz çoxdanın tanışlarıdik. Kəndimizdəki orta məktəbdə məndən bir sinif yuxarıda oxumuşdu. Sonra Qubada yerləşən sovxoz-texnikumda aqronom peşəsi üzrə təhsil aldı, uzun müddət kəndimizdəki meyvəçilik sovxozunda aqronom işlədi. Hazırda ən nadir meyvə növlərinin tinglərini yetişdirir. Onun sözlərinə görə, ata-baba meyvə ağaclarının tinglərinə tələbat ilbəil artırılır.

Şıxbabanın həyətində olarkən qonşu kənddən bir nəfər ting üçün gəlmişdi. Şıxbaba dedi ki, hələ ki, ağaclar yarpaqlarını tam tökməyib, 5-10 gündən sonra ağac əkməsi məsləhətdir. Sonra həm məni, həm də ting almaq üçün müştərini pürrəngi çay içməyə dəvət etdi. Hər üçümüz bir stəkan çay içib ayrıldıq.

Son illər, həqiqətən, Qubada tingçilik peşəsinə maraq artıb. Təkcə Birinci Nügədi kəndində onlarla tingçinin fəaliyyət göstərdiyini biləndə təəccüblənmədim. Öyrəndim ki, rayonun digər kəndlərində də bu peşəyə maraq göstərənlərin sayı artmaqdadır.

***Məsaim ABDULLAYEV***
***XQ***

# Oğuzun bol taxılı

## *Əkinlər genişlənir, məhsuldarlıq artır*

**Oğuz rayonunda əhalinin məşğul olduğu aparıcı sahələrdən biri taxılçılıqdır. Burada məhsuldar buğda növləri yetişdirilir, zəhmət və bərəkətin vəhdəti sayəsində kəndlilərin güzəranı lazımınca təmin edilir.**

Son illərdə Oğuzda bu sahə daha da inkişaf edib. Məsələn, rayon üzrə 2024-cü ilin məhsulu üçün 17 min 271 hektar sahədə payızlıq taxıl əkilmişdir ki, bunun 10 min 646 hektarını buğda, 6 min 625 hektarını isə arpa təşkil etmişdir. Sahələrdən 57 min 298 ton taxıl istehsal olunmuşdur. Rayon üzrə orta məhsuldarlıq 33,1 sentner olmuşdur. Cari ilin məhsulu üçün 17 min hektar sahədə payızlıq əkin proqnozlaşdırılmış və həyata keçirilmişdir.

Hazırda rayonda 5 min 500 hektar sahədə payızlıq əkin aparılıb. Sahənin



1500 hektarında buğda, 3 min 900 hektarında arpa əkilib. Taxıl sahələrində 440 ton gübrədən istifadə olunub. Fermerlər taxıl sahələrindən yüksək məhsul əldə etmək üçün sertifikatlı toxumlardan istifadə edirlər. Əkilmiş taxıl sahələrinə mütəmadi olaraq baxış keçirilir. Ziyanvericilərə qarşı mübarizə tədbirləri aparılır.

Rayon ərazisində 2 toxumçuluq təsərrüfatı fəaliyyət göstərir. Toxumçuların hər biri 2024-cü ilin məhsulu üçün hektardan 50-60 sentner olmaqla yüksək məhsul əldə edib. Rayon ərazisində yüksək məhsul əldə edən tanınmış fermerlər çoxdur. Onlara misal olaraq Vaqif Əliyevi, Vasif Umarovu, İlqar Həbibullayevi və başqalarını göstərmək olar.

Qabaqcıl fermer kimi 2022-ci ildə "Əmək" ordeni ilə təltif edilmiş Vasif Umarov ötən ilin məhsulu üçün şəxsi mülkiyyətində olan 260 hektar sahədə taxıl əkmişdi. Hər hektardan orta hesabla 50-55 sentner taxıl istehsal edərək 260 hektar ərazidən bol məhsul əldə etdi. Fermerin özünə aid olan texnikaları və taxıl saxlamaq üçün anbarları mövcuddur.

Vasif Umarov əkin-biçinin vaxtında aparılması üçün texnikalarını bəzən özü idarə edir. Daim yüksəkreproduksiyalı, sertifikatlı toxumlara üstünlük verir. Əkin sahələrinin alaq otlarından və ziyanvericilərdən qorunması üçün lazım olan bütün tədbirləri vaxtlı-vaxtında həyata keçirir.

***İlqar HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

# Azərbaycan dili milli varlığın aynası, mənəvi dəyərlərin saxlancıdır

**Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyi təkcə elmi nailiyyətlərin yox, həm də milli ideya və mədəni yaddaşın təntənəsinə çevrildi. Prezident İlham Əliyevin bu tədbirdəki nitqi dövlətin elm siyasətinə strateji baxışla yanaşı, Azərbaycan dilinə dair dərin, fəlsəfi və eyni zamanda, vətəndaş məsuliyyətini səfərbər edən fikirləri ilə yadda qaldı. Bu çıxış bir daha göstərdi ki, dil, sadəcə, ünsiyyət vasitəsi deyil – milli varlığın mənəvi məkanı, düşüncənin, mədəniyyətin və elmin saxlancıdır.**

Prezident nitqində bildirdi ki, Azərbaycan dili bu gün 50 milyondan artıq insan üçün ana dilidir. Bu ifadə, sadəcə fakt deyil, bir fəlsəfədir: dilin geniş coğrafiyası onun tarixi gücündən, xalqın isə mədəni dirənişindən xəbər verir. 50 milyon səs, milyonlarla ürək eyni melodiyada danışır, eyni dildə düşünür, eyni mənəvi dəyərləri ifadə edir. Bu, sırf statistik göstərici deyil, Azərbaycan dilinin mədəni güc xəritəsidir.



Dünyanın qloballaşma çağında dillərin assimilyasiyası, xüsusən də kiçik xalqların dillərinin "böyük dillər" qarşısında zəifləməsi artıq universal problemə çevrilib. Lakin Azərbaycan dili bu axına tabe olmur, çünki onun arxasında həm dövlət siyasəti, həm də xalq sevgisi dayanır. Prezidentin "Azərbaycan dilinin saflığının qorunması hər bir azərbaycanlının borcudur" fikri sadəcə çağırış deyil, sevginin dövlət səviyyəsində təsdiqidir.

Dil bir millətin düşüncə sistemidir. Onun saf qalması milli təfəkkürün qorunması deməkdir. İlham Əliyev çıxışında qeyd etdi ki, "Azərbaycan dili o qədər zəngindir ki, başqa dillərdən söz götürməyə ehtiyac yoxdur". Bu fikir müasir dilçilikdə çox aktual olan bir məsələyə toxunur: qloballaşan informasiya mühitində dillərin yad təsirlərlə zənginləşməsi, əslində, dilin zənginləşməsi yox, onun öz nüvəsini itirməsi prosesidir.

Azərbaycan dili bu mənada təbiətən müdafiə qabiliyyətli dildir. Onun morfoloji strukturu, semantik elastikliyi və poetik tutumu imkan verir ki, istənilən yeni anlayış milli ifadə tərzində formalaşsın. Lakin bunun üçün təkcə dilçilər yox, ictimai fikir daşıyıcıları – müəllimlər, yazıçılar, jurnalistlər, siyasətçilər birgə məsuliyyət daşıyırlar. Prezident də bu məqamı vurğulayaraq dedi ki, dilin saflığının qorunması bütün cəmiyyətin işidir. Bu fikir, əslində, milli kimliyin sosial müqaviləsidir – hər kəs öz ana dilinə sahib çıxmaqla dövlətin ideoloji dayağını gücləndirir.

Elmi baxımdan dilin saflığının qorunması həm normativ sabitlik, həm də mənəvi davamlılıq deməkdir. Məsələn, son illər texnoloji terminlərin, informatikaya aid sözlərin çoxu olduğu kimi başqa dillərdən qəbul edilir. Amma Azərbaycan dilinin söz yaradıcılığı sistemi bu terminləri milliləşdirməyə imkan verir. Burada dövlətin və alimlərin rolu paralel şəkildə vacibdir. Akademiyanın 80 illik yubileyində bu ideya xüsusi vurğulandı – elm yalnız texnoloji tərəqqi deyil, həm də milli dilin intellektual imkanlarının inkişafıdır.

Prezidentin dil haqqında çıxışı həm də bir növ dil fəlsəfəsidir. O, qeyd etdi ki, əgər biz dilimizi qorumasaq, onu saf və təmiz saxlamasaq, axırda onu itirə bilərik. Bu, sosiolinqvistik baxımdan son dərəcə real təhdidə işarədir. Dilin itirilməsi bir xalqın özünüifadə imkanının itirilməsidir. Bu səbəbdən Azərbaycan dövləti dil siyasətini sadəcə, tədris planlarının tərkib hissəsi kimi yox, milli təhlükəsizlik məsələsi kimi formalaşdırır.

Amma bu mübarizənin emosional tərəfi də var. Dil yalnız qanunla qorunmur, sevgi ilə yaşadılır. Hər bir ana, hər bir müəllim, hər bir jurnalist bu sevginin daşıyıcısıdır. Ana dilində düşünmək, yazmaq, sevmək və mübahisə etmək — bunlar dilin canlı qalmasının əlamətləridir. Elə Prezidentin "bizim dilimiz çox zəngindir" deməsi də həm elmi, həm də mənəvi bir cümlədir. Zənginlik burada leksik həcmlə yox, dilin ifadə gücü, hiss və düşüncəni daşıma qabiliyyəti ilə ölçülür.

Dilin coğrafiyası da onun taleyini müəyyənləşdirir. Azərbaycan dili dünyanın müxtəlif ölkələrində milyonlarla insanın mədəni bağını təmin edən faktordur. Prezident "müxtəlif bölgələrdə yaşayan azərbaycanlıların dil vəziyyəti mütəmadi olaraq diqqət mərkəzində saxlanılır" deməklə bu məqamı təsdiqləyir.

Dil diasporun yaddaş xəritəsidir; o, insanları məkandan asılı olmayaraq milli kimliklə birləşdirir. Bu baxımdan, Azərbaycan dilinə qayğı həm milli siyasət, həm də mənəvi borcdur. Elm, təhsil, media və gündəlik həyat bu borcun icra meydanıdır. Bu gün sosial şəbəkələrdə, xəbər portallarında, televiziyada istifadə olunan dil təkcə informasiyanı ötürmür – milli estetik zövqü, nitq mədəniyyətini formalaşdırır. Prezidentin "əgər dilimizdə gözəl, köhnə bir söz varsa, onu başqa dildən gətirilən sözlə əvəz etmək səhvdir, bəzən də təxribatdır" fikri bu məqamda aktuallaşır. Bu, sadəcə dilçilik məsələsi deyil, mənəvi intizamın tələbi kimi səslənir.

Azərbaycan dilinin inkişafı yalnız keçmişin qorunması deyil, gələcəyin formalaşdırılmasıdır. Akademiyanın 80 illiyi məhz bu baxımdan simvolik hadisədir: elm institutunun yubileyi dilin intellektual sərhədlərinin genişlənməsi deməkdir. Elmi mətnlərin, dissertasiyaların, dərsliklərin Azərbaycan dilində yazılması həm də milli elmin düşüncə dilini yaratmaq deməkdir.

Bu gün Azərbaycan dili elmin, texnologiyanın, ədəbiyyatın, diplomatiyanın dilidir. Onun dinamikası təkcə daxili qanunlarla yox, dövlətin siyasi iradəsi və cəmiyyətin mədəni enerjisi ilə formalaşır. Prezident İlham Əliyevin nitqi bu harmoniyanın bariz nümunəsidir – elmi düşüncə ilə milli duyğunu, dövlət baxışı ilə vətəndaş məsuliyyətini birləşdirən manifestdir.

Dilimiz keçmişin yadigarı, gələcəyin zəmanətidir. Onun saflığına, zənginliyinə, ahənginə sahib çıxmaq millətin özünə hörməti deməkdir. Azərbaycan dilinin hər sözü bu xalqın tarixinin, ağrısının, sevinci və qürurunun daşıyıcısıdır. Ona görə də dilimizi qorumaq özümüzü qorumaqdır. Bu mənada, Prezidentin nitqində səslənən ideya XXI əsr Azərbaycanının mədəni strategiyasıdır.

***Fəridə SƏFİYEVA,***
***filologiya üzrə elmlər doktoru, professor***

---

*Yeni nəşrlər*

# Xatirələrə köçən Məmməd İsmayıl




**Bu yaxınlarda əbədiyyətə qovuşmuş ünlü şairimiz Məmməd İsmayılın xatirəsinə həsr edilən kitabda onun ədəbi irsinin bir qismi, poeziyasının dərin fəlsəfəsi və şairlə bağlı xatirələr toplu halında cəmlənib.**

Kitabın təqdimat mərasimində də vurğulandığı kimi, Məmməd İsmayıl təkcə Azərbaycanın deyil, həm də Türk dünyasının sevilən şairlərindən biri olaraq, ömrünü sözün, sənətin, milli kimliyin qorunmasına həsr edib. Onun şeirləri dünyanın bir çox ölkələrində oxunur, sevilir və tədqiq olunur.

Sözün Məmməd İsmayıl zirvəsinə səyahət bələdçisi olan kitabda verilmiş bədii nümunələr "Ana əlləri"ndən tutmuş "Arzuların yolu"na, "Duyğuların işığında"ya qədər poetik marafonunda öncüllərdən olan şairin iç dünyasına işıq tutur:

**Nakam məhəbbətim nələr eylədi, -**
**Ay aya, il ilə xəbər eylədi,**
**Bir Məmməd İsmayıl səfər eylədi,**
**Yüz Məmməd İsmayıl qaldı Tovuzda.**

Şair-publisist Ehtiram İlhamın tərtibçisi və redaktoru olduğu kitabda ipə-sapa düzülmüş xatirələr də böyük maraqla oxunur, cismən işıqlı dünyanı tərk etsə də, ruhən bizimlə qalan şairin ölməzliyinə dəlalət edir. Bir daha təsdiqlənir ki, Məmməd İsmayıl zəngin yaradıcılığı, poeziyasındakı milli ruh, vətən sevgisi və humanist dəyərlərin təcəssümü ilə Azərbaycan ədəbiyyatında silinməz izlər qoyub.

# "Zəlimxan Yaqub: Seçmə şeirlər"




**Əsərlərində türkün genetik yaddaşının dipdiri təqdim edildiyi Zəlimxan Yaqubun yeni kitabından boy verən obrazlar sistemi bir müstəvi ilə kifayətlənmir, bu insanlar min illər boyu təşəkkül tapmış bir səciyyəni ehtiva edirlər.**

Unudulmaz şairimizin seçmə şeirləri onun yaradıcılığında çox mötəbər məqamların bol olduğunu bir daha təsdiqləyir. Zəlimxan Yaqub özü bu barədə deyib:

**Kitab bizim, Quran bizim,**
**ocaq bizim, pir bizim,**
**Qıfıl bizim, açar bizim,**
**hikmət bizim, sirr bizim.**

Şeirləri oxuduqca, bir daha əmin olursan ki, sözün əsl mənasında, Xalq şairi olan Zəlimxan Yaqub müasir ədəbiyyatımızın böyük nümayəndələrindən biridir. Onun əsərləri xalq ruhunun daşıyıcısı olmaqla yanaşı, həm də dövrümüzün poetik palitrasıdır. Bu yaradıcılıq nümunələri həm geniş oxucu kütləsinin sevgisini qazanıb, həm də peşəkarlar tərəfindən yüksək qiymətləndirilib. Bu səbəbdən sərhədlərimizi aşaraq təkcə türk və müsəlman coğrafiyasında deyil, dünyanın bir çox ölkələrində əks-səda doğurub.

"Qanun" Nəşrlər Evi "Azərbaycan poeziyası, seçmə şeirlər" seriyasından Zəlimxan Yaqubun müxtəlif tarixlərdə müxtəlif mövzularda qələmə aldığı şeirləri kitab halında oxuculara ərməğan edib.

# "Qarabağ XIII əsrdən 1920-ci ilədək"




**Berlin şəhərində almaniyalı türkoloq, tarixçi alim, Qissen Universitetinin əməkdaşı Mixael Raynhard Hebin "Qarabağ XIII əsrdən 1920-ci ilədək" başlıqlı kitabının 3-cü nəşri işıq üzü görüb.**

Yeni nəşr Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Münhen Azərbaycan Evinin təşkilatçılığı ilə ingilis dilində "Gulandot" nəşriyyatında çap olunub. Kitabda Azərbaycanın tarixi və mədəniyyətində Qarabağın yeri öz əksini tapıb. 7 əsr ərzində burada baş verən hadisələrə işıq salınıb. Heç vaxt heç bir erməni dövlətinin tərkibində olmayan, XVIII-XIX əsrlərdə çiçəklənən Qarabağda çar Rusiyasının işğalından sonra məqsədli şəkildə həyata keçirilən inzibati-ərazi bölgüsünə toxunulub. Ermənilərin bura köçürülməsi, demoqrafik və mədəni tarazlığın pozulması milli zəmində baş verən münaqişənin əsas amillərindən biri kimi göstərilib.

Geniş oxucu auditoriyası üçün nəzərdə tutulmuş kitabda Azərbaycanın 44 gün davam edən Vətən müharibəsindəki parlaq qələbəsi nəticəsində yaranmış yeni reallıqlar da nəzərə alınıb. Azərbaycan ərazilərinin işğaldan azad olunduğu tarixlər, "Dağlıq Qarabağ" münaqişəsinin başa çatması və bu toponimin artıq mövcud olmaması, Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonalarının yaradılmasına dair faktlar kitaba daxil edilib.

Qeyd edək ki, elmi əsərdə Qarabağ sözünün etimologiyası, bölgənin Azərbaycanın dövlətçilik və mədəniyyət tarixinin mühüm tərkib hissəsi olmasına dair faktlar geniş təqdim edilib.

***Əli NƏCƏFXANLI***
***XQ***

---

# "Zəfər aşiqləri: Qarakilsə şəhidləri"

**Şair-publisist Azadə Novruzovanın "Zəfər aşiqləri: Qarakilsə şəhidləri" kitabı "Şəhidlər ölməz, Vətən bölünməz", "Yaradıcı oxucularımız" və "Kitabxanaya kitab hədiyyə edirik" layihələri çərçivəsində nəşr olunub və kitabxanalara hədiyyə edilib.**

Böyük Zəfərimizin 5-ci ildönümünə həsr edilmiş kitab ölkəmizin ərazi bütövlüyü və suverenliyinin bərpası uğrunda şəhid olan qəhrəman övladlarımızın əziz ruhlarına ithaf olunub. "Zəfər aşiqləri: Qarakilsə şəhidləri" ensiklopedik topluda Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə həlak olmuş və itkin düşmüş Qərbi Azərbaycanın Zəngəzur mahalının Qarakilsə rayonunun Ağudi, Comərdli, Urud, Şıxlar, Şəki, Qızılcıq, Sofulu, Ərəfsə, Dəstəyird, Murxuz, Vağudi kəndlərinin vətənpərvər döyüşçülərinin bioqrafik məlumatları və fotoları, eyni zamanda, müəllifin "Şəhidim: ovunmayan həsrət" başlıqlı məqaləsi oxuculara təqdim olunur.




Kitabın ön sözündə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman), hüquq üzrə fəlsəfə doktoru Səbinə Əliyeva qeyd edir ki, ötən əsrin əvvəllərində erməni millətçilərin azərbaycanlılara qarşı törətdikləri amansız soyqırımı hadisələri barədə həqiqətlərin dünyaya çatdırılması və bu məsələyə siyasi-hüquqi qiymətin verilməsi xalqımızın ümummilli lideri Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra mümkün olmuşdur. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin müdrik rəhbərliyi ilə İkinci Qarabağ müharibəsi və lokal xarakterli antiterror tədbirləri nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilib.

Ombudsman əldə olunmuş parlaq Zəfərdən sonra dövlətimizin həyata keçirdiyi sülh siyasəti nəticəsində Ermənistandan qaçqın düşmüş azərbaycanlıların öz ata-baba yurdlarına qayıdışı, onların hüquqlarının təmin olunması ilə bağlı şəraitin yarandığı, bu kontekstdə qaçqın həyatı yaşamağa məcbur olmuş azərbaycanlıların və onların varislərinin qayıdış hüququnun təhlükəsiz formada təmin edilməsi, vurulmuş zərərə görə kompensasiya almalarının onların beynəlxalq sənədlərdə təsbit olunmuş fundamental hüquqları olduğunu vurğulayıb.

Kitabın redaktorları AMEA-nın A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun Qərbi Azərbaycan Tarixi Şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru Cəbi Bəhramov, tarix üzrə fəlsəfə doktoru, Fəxri mədəniyyət işçisi Lətifə Məmmədova, rəyçilər tarix üzrə fəlsəfə doktorları Elmar Məhərrəmov və Bəxtiyar Həsənovdur.

Ombudsman Aparatının əməkdaşı, şair, publisist Azadə Novruzovanın müəllifi olduğu ensiklopedik toplu tarixi yaddaşımızın qorunub saxlanılması, gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə olunmasında mühüm əhəmiyyət kəsb edir. Tədqiqatçılar və geniş oxucu kütləsi üçün nəzərdə tutulan kitabı Yasamal rayonunun kitabxanalarında oxumaq olar.

***XQ***

---

# Haradasınız, "13-lər"?

## *Azad Xocalıda faciədən bəhs edən kitabın təqdimatı*

**"O gecə dərd batmanla gəlmişdi Xocalıya!"... Jurnalist Səriyyə Müslümqızının 1992-ci il fevralın 25-dən 26-na keçən gecə sovet ordusunun 366-cı alayının iştirakı ilə erməni vəhşiləri tərəfindən törədilmiş Xocalı soyqırımı zamanı əsir götürülən 13 gənc oğlanın acı həyat hekayəsindən və hələ də məlum olmayan talelərindən bəhs edən kitabı bu sözlərlə başlayır.**

Dünən Xocalının Əsgəran qəsəbəsində sözügedən faciənin qurbanlarına həsr olunmuş "Haradasınız, "13-lər"?" kitabının təqdimatında da xocalılıların yaşadıqları müsibətlər xatırlandı, batmanla gələn dərdləri yada salındı. Şəhid ailələri, müharibə veteranları, Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin əməkdaşları, jurnalistlər qarşısında çıxış edən müəllif bildirdi ki, kitabda haqlarında bəhs olunan 13 gəncin arasında evin yeganə övladı da olub, bir evin 3 oğlu da. Onlar neçə-neçə günahsız, dinc sakinin həyatını xilas etmək üçün canlarını qurban veriblər. İtkin




düşən 13 nəfərdən 5-nin nəşi bu yaxınlarda tapılaraq dəfn edilib, digərlərinin taleyi isə hələ də məlum deyil...

Müəllif kitabın şahidlərin söylədikləri yəni real faktlar əsasında yazıldığını, əsas məqsədinin isə Xocalı həqiqətlərini beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmaq olduğunu qeyd etdi. Mərasim iştirakçıları kitabın bu baxımından mühüm əhəmiyyət daşıdığını vurğuladılar.

Şəhid və itkin 13 xocalılının doğmaları çıxışları zamanı göz yaşlarına boğularaq o ağrılı günləri xatırladılar. Bildirdilər ki, Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük qəhrəmanlıq salnaməsinin yazılması, torpaqlarımızın mənfur erməni




işğalından azad edilməsi onların ən böyük təsəllisi, acılarının məlhəmidir. Xocalı soyqırımından bəhs edən kitabın təqdimatının azad Xocalıda keçirilməsi isə hamımız üçün qürurvericidir.

Qeyd edək ki, kitab Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə vəsaiti hesabına Azərbaycan və ingilis dillərində dərc olunub.

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

**Xocalı**

*Həmid Abbas – 100*

# Yüksək dəyərlərin əbədiyyət ünvanı




**Qatar Ağstafa vağzalına yaxınlaşırdı. Şəhərin girəcəyindəki körpünün yanında bir anlıq yavaşıyıb dayandı. Bu vaxt diqqətimi bizim vaqondan tələsik düşüb yaxınlıqda asfalt yolun qırağında görünən qəbiristanlığa doğru gedən bir adam cəlb etdi. Bu axşam qatara minəndə gördüyüm tanınmış şair və ictimai-siyasi xadim Həmid Abbas idi.**

Tanış olmasaq da, bölgəmizin yetirdiyi ünlü ziyalılardan biri kimi mən də onun şəxsiyyətinə və yaradıcılığına yaxından bələd idim. Onun qatarın vağzala çatmasını gözləmədən düşüb getdiyinin səbəbini də anladım. Həmid müəllim yaxın vaxtlarda – yeni il gecəsində vaxtsız vəfat etmiş istəkli qardaşının məzarını ziyarət etməyə tələsirdi. Onun bu hərəkəti həssas şair qəlbinin və intizamlı vəzifə adamının bir-birini yüksək səviyyədə tamamlamasından irəli gəlirdi.

Zaman gəldi ki, onunla 1994-cü ildə Xalq şairi Hüseyn Arifin 70 illik yubileyində daha yaxından tanış oldum. İcra hakimiyyətinin həyəti qarşısında bağda, qonaq evində səhər süfrəsi açılanda o, birdən qayıtdı ki, indi sizə bir şeir oxuyacağam. Onu da əlavə etdi ki, Hüseyn Arifə həsr olunmuş bu şeirin yazılmasına səbəb şair Barat Vüsalın bir fikri oldu: "Hüseyn Arif özünü qorumadı. Əgər qorusaydı, onda da Hüseyn Arif olmazdı".

Sən demə, Həmid müəllim məni pis tanımırmış, harada nə dediyimdən də xəbərdar imiş. Həyəcan içində şeiri dinlədim, ürəyimdə düşündüm ki, gör bu boyda insan mənim dediyim sözlərə necə həssaslıqla yanaşıb. Başqaları tanış olmadıqları adamın nə dediyinə diqqət yetirmirlər: ya özlərini kiçiltmirlər, ya da buna ehtiyac duymurlar. Həmid müəllim isə mənimlə tanış olmaya-olmaya bir fikrimdən təsirlənib onu poetik baxımdan dərindən mənalandırmışdı.

Həmid Abbası tanıyanlar yaxşı bilirlər ki, onda doğma yurda, əsl istedad sahiblərinə sevgi-sayğı hissi çox yüksək idi. Sadəlik, yüksək təvazö nümunəsi idi bu adam. Hər yerdə hamının köməyinə çatmağa, doğmaları ilə görüşə tələsirdi – hətta qəbiristanda da.

1997-ci ildə yazıçı Vidadi Babanlının Qazaxda 70 illik yubileyini keçirirdik. Arada Aqrar Ekologiya İnstitutu rəhbərliyinin xahişi ilə Həmid müəllimlə tələbələrin bir görüşünü də keçirdik. Özü ilə təzə çıxan kitabının 2 nüsxəsini də gətirmişdi. Birini akademik Vahid Quliyevə yazıb bağışladı, o birini mən istəyəndə dedi ki, incimə, bunu görüşdə məni təsirləndirən oxucuma verəcəyəm, sənə isə göndərərəm.

Görüş başlayanda üzümü şairə tutub dedim ki, yaradıcılığınız haqda məruzə edəcəyəm, əgər sizi təsirləndirsəm, kitab mənim olacaq.

Gülümsünüb söylədi ki, onda başla görək nə olacaq...

Vərəqin bir üzünü hələ oxuyub qurtarmamışdım ki, gördüm diplomatını açdı, kitabı çıxarıb mənə avtoqraf yazmağa başladı. Məruzə elə xoşuna gəlmişdi, gedən kimi "Dəli Kür" qəzetinə verib çap da elətdirmişdi.

İndi hərdən o kitabı açıb və şairin dəst-xəttini gözlərimlə oxşaya-oxşaya səmimi ürək sözlərini dönə-dönə, ehtiramla oxuyuram: "Tələsik müsabiqənin həmişəlik qalibinə – şair qardaşım Barat Vüsala Həmid Abbasdan".

"Tələsik müsabiqə"dəki qələbəmdən səmərəli bəhrələnməyə çalışdım. Həyat elə gətirdi ki, Qazaxda, Ağstafada, Bakıda şeir-sənət məclislərində, yubileylərdə tez-tez rastlaşdıq. Bir-birimizə ata-oğul kimi ürəkdən bağlandıq. O, adamı həmişə özü ilə irəli çəkib aparmağa çalışırdı. Daha çox tanınmağını istəyirdi.

Bir dəfə də Damcılıda idik. Məclisdə çox hörmətli qonaqlar var idi. Rəsmi hissəni mən idarə etmişdim. Həmişə olduğu kimi, "bədii hissə"də Həmid Abbası "taxt"a çıxarmışdıq. Damcılının gözündən su içib oturduğum stolun arxasına qayıdırdım ki, gözü məni alıb dedi:

– Barat, bura, mənim yanıma gəl.

– Çox sağ olun, mənim bu yanda oturmağa yerim var, – deyəndə amiranə səslə dilləndi:

– Yox, əlimdən qaça bilməzsən!

Onun oturduğu stolun arxasında Nəriman Həsənzadə, Teymur Bunyadov, Vidadi Babanlı və rayonun rəhbər işçiləri əyləşmişdilər.

Əlini çiynimə qoyub üzünü məclisə sarı çevirdi:

– Barat, səni bura bilirsənmi niyə çağırdım?!

Mən çiynimi çəkdim.

– Səni cəzalandıracağam, məclisin birinci hissəsində mənə söz vermədin.

– Bunun səbəbi var idi.

– Nə səbəb?

– Qərara alınıb ki, ikinci hissəni siz aparasınız. Sizə 2 əziyyət vermək istəmədik.

Bir az xoşhal oldu, sonra ciddiləşdi:

– Elə şey yoxdur, sənə cəza düşür.

– Düşür, verin gəlsin.

Qəfildən əlindəki badəni yuxarı qaldırdı:

– Bilirsənmi, sənə necə cəza vermək istəyirəm – sənin sağlığına içməklə!

Əlbəttə, mən o "ağır cəza"nı mükafat kimi qəbul etdim. Bax Həmid Abbas belə həssas və diqqətcil insan idi. O ürəyinə yatan insanları diqqət mərkəzinə çəkir, onun layiqincə tanınmasını istəyirdi.

1998-ci ildə Azərbaycan Yazıçılar Birliyi və onun rəhbərlik etdiyi Mədəniyyət İşçiləri Müstəqil Həmkarlar İttifaqı Respublika Komitəsi vətənpərvərlik mövzusunda yazılmış ən yaxşı şeirlərə görə "Xəlil Rza Ulutürk" mükafatı təsis etmişdi. 3 mükafatçı sırasında mən də var idim. Azərbaycan Yazıçılar Birliyində mükafatların təqdimatı mərasimində Həmid Abbas qalibləri təbrik etdi, bizə fəxri fərman da verdi.

Birdən qovluğundan bir vərəq çıxardı, oradakı Xəlil Rzanın 1983-cü ildə mənim haqqımda dediyi sözləri oxuyub dedi:

– Görürsünüzmü, Barat Vüsal təsadüfi qalib olmayıb. O bu mükafatı Xəlil Rzadan hələ 1983-cü ildə alıb.

Hərdən mənə zarafatla deyərdi: "Sən Baratsan, yoxsa barıt?".

Həmid müəllimin 90 illik yubileyi günlərində düşünürəm ki, o yenə sağdır, qatar da vağzala yaxınlaşır. O, qatarın vağzala çatmağını gözləyə bilməyib beş-on addımlıqdakı məzarlıqda uyuyan əzizlərinin, doğmalarının ziyarətinə tələsir. Bu dünyada onun kimi tələsənlər, ölüsünün də, dirisinin də qədrini bilənlər isə çox azdır.

Mən bu yazıda daha çox Həmid Abbasla təmaslarım əsasında onun insani keyfiyyətlərindən, doğulub-böyüdüyü bölgəyə dərin bağlılığından söz açdım. Onun zəngin həyat və yaradıcılığı barədə isə ötən ay Ağstafada keçirilmiş yubiley məclisində geniş söhbət açıldı.

Həmin gün Ağstafa ictimaiyyəti şöhrətli yetirməsini bir daha dərin ehtiramla yad etdi. Ölkənin ədəbi-mədəni ictimaiyyəti ötən əsrin 60-cı illərində ədəbiyyata gəlmiş, poetik yaradıcılığı ilə yanaşı, mətbuatda, partiya-həmkarlar orqanlarında məsul vəzifələrdə çalışmış istedadlı şair Həmid Abbasın bədii irsinə və ictimai-siyasi fəaliyyətinə yüksək qiymət verdi. Yubiley şənliyinin iştirakçıları əvvəlcə Həmid Abbasın Ağstafa şəhərinin mərkəzi küçəsindəki büstünü ziyarət etdilər, sənətkarın ruhuna rəhmət dilədilər.

Şəhər mədəniyyət sarayında keçirilən yubiley məclisinin iştirakçıları foyedə Həmid Abbasın həyat və yaradıcılığını əks etdirən kitablar, fotolar və arxiv sənədlərindən ibarət sərgiyə baxdılar, onun bioqrafiyasına işıq salan materiallarla yaxından tanış oldular.

Təntənəli mərasimdə unudulmaz sənətkarın və ictimai xadimin mənalı ömür yolu, zəngin bədii yaradıcılığı və həmyerlilərinin onunla həmişə fəxr etdikləri barədə deyilənlər ucadan, öyünclə səsləndi. Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı Seymur Orucov yubilyarın həyat və yaradıcılığı barədə söz açaraq bildirdi ki, Həmid Abbas Məmmədəli oğlu 1935-ci il oktyabrın 10-da Ağstafa şəhərində qulluqçu ailəsində anadan olub. Ali təhsildən sonra Bakıda Dövlət İnformasiya Agentliyində müxtəlif vəzifələrdə çalışmış gənc tərcüməçi-redaktor burada özünü ideya-siyasi cəhətdən yetkin jurnalist, yaradıcılıq baxımından istedadlı qələm sahibi kimi təsdiqləyib.

Məclisdə söyləndi ki, Həmid Abbas ali partiya təhsilindən sonra Azərbaycan KP MK-da məsul vəzifələrdə çalışıb, sonrakı dövrdə ömrünün sonunadək Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinə rəhbərlik edib. Ölkənin ictimai-mədəni həyatında fəal mövqeyi ilə seçilən Həmid Abbas doğulduğu torpaqla da daim sıx əlaqə saxlayıb, rayon şənliklərində, el məclislərində həmyerliləri ilə bir sırada olub.

Bakıdan gəlmiş keçmiş dövlət qulluqçusu, hazırda Nəsimi Rayon Ağsaqqallar Şurasının sədr müavini olan, Həmid Abbasla uzun illər dostluq etmiş, qohumluq münasibətləri saxlamış Xalid Kərimovun yubilyarın ictimai-siyasi fəaliyyəti barədə söylədikləri isə unudulmaz eloğlumuz barədə öyüncümüzü bir qat da yüksəltdi.

Xalid müəllim bildirdi ki, xalqımızın tarixində rəyasətlə ədəbiyyatı öz varlığında qovuşdurmuş Şah İsmayıl Xətai, Nəriman Nərimanov, Şıxəli Qurbanov, Vahid Əziz kimi insanlar dövlət idarəçiliyinə humanitar ab-hava, ədəbiyyata isə dövlətçilik ruhu gətiriblər. Həmid Abbas da belə azsaylı, yetkin-bitkin şəxsiyyətlərdən idi. Onun bu obrazı müstəqillik illərində gənclərimiz üçün üstün karyera örnəyidir.

Keçmiş dövlət qulluqçusu, veteran hərəkatı fəalı sonra qeyd etdi ki, həyatda özünə böyük qardaş bildiyi Həmid Abbas fəaliyyətində həmişə sadəliyi, intizamı, yurdsevərliyi ilə seçilib, ədəbiyyatda isə milli dəyərləri və ictimai düşüncəni yüksək səviyyədə əks etdirib. Onun çoxsaylı şeirlərində Azərbaycan, onun qeyrətli-şöhrətli övladları tərənnüm olunub. Sevgi və milli əxlaqı vəsf edən nəğmələri bu gün də dillər əzbəridir.

Sonda onu da bildirək ki, Həmid Abbasın Vətən və xalq arşısında xidmətləri "Şərəf nişanı" ordeninə və müxtəlif medallara layiq görülüb. Bütün bunlar Həmid Abbasın unudulmaz xatirəsini əbədiyyətə qovuşduğu son 26 ildə qədirbilən insanların hafizəsində yaşadıb. Unudulmaz soydaşımızın 90 illik yubileyi isə bir daha sübut etdi ki, həyatını xalqa sədaqətlə xidmətdə keçirmiş, yüksək dəyərlərə bağlı olmuş insanların ünvanı əbədiyyətdir.

***Barat VÜSAL,***
***Azərbaycan Yazıçılar Birliyinin Qazax zona filialının sədri, Əməkdar incəsənət xadimi***

***BEYNƏLXALQ HƏYAT***

## BMT Trampın Qəzza planını dəstəklədi

**BMT Təhlükəsizlik Şurası ABŞ prezidenti Donald Trampın Qəzza zolağına beynəlxalq hərbi kontingentin yerləşdirilməsini nəzərdə tutan sülh planı ilə bağlı qətnaməni təsdiqləyib. Qətnamə Amerika prezidentinin 20 bənddən ibarət planının ikinci mərhələsinə keçidi rəsmən təsdiqləyib. Bu bəndlər arasında Qəzza ərazisinin demilitarizasiyası və keçid idarəetmə qurumlarının yaradılması üçün Beynəlxalq Sabitlik Qüvvələrinin formalaşdırılması da var.**

Təhlükəsizlik Şurasının 15 üzvündən 13-ü, o cümlədən Böyük Britaniya və Fransa qətnamənin lehinə səs verib. Rusiya və Çin bitərəf qalıb, lakin veto qoymaq hüququndan istifadə etməyib. Qətnamədə Fələstin dövlətinin yaradılması perspektivi də qeyd olunur. Bu müddəa ərəb dövlətlərinin təkidi ilə sənədə daxil edilib. ABŞ rəsmiləri bildiriblər ki, Beynəlxalq Sabitlik Qüvvələrinin tərkibinə bir çox ölkələrin hərbi kontingentləri daxil olacaq, lakin bu ölkələrin adları açıqlanmayıb.

Ancaq HƏMAS qətnamənin qəbul edilməsindən dərhal sonra bəyan edib ki, "sənəd Fələstin xalqının hüquq və tələblərini təmin etmir". Qruplaşmanın "Telegram" kanalı ilə yayılan açıqlamasında deyilir: "Trampın planı Qəzza zolağına xalqımızın və onun fraksiyalarının rədd etdiyi beynəlxalq nəzarət mexanizmini sırımağa çalışır".

Qətnamənin son variantına əsasən, Beynəlxalq Sabitlik Qüvvələrinin funksiyalarından biri də "dövlətə tabe olmayan silahlı qrupların silahlarının müddətsiz olaraq dövriyyədən çıxarılması" olacaq. Bu qrupa HƏMAS da daxildir. Bundan əlavə, onların vəzifəsi mülki əhalini və humanitar yardım yollarını qorumaq olacaq.

Qətnamə, həmçinin Qəzza ilə sərhədi olan iki ölkə - İsrail və Misirlə qarşılıqlı fəaliyyət göstərməli olan Beynəlxalq Sabitlik Qüvvələrindən əlavə, Qəzzada yeni Fələstin polisinin yaradılmasını da nəzərdə tutur. İndiyədək Qəzzadakı polis HƏMAS-a tabe idi. HƏMAS üçün bu, silahı təhvil vermək tələbinə bərabərdir. Bu tələb Trampın planında əvvəlcədən yer alırdı.

Planın birinci mərhələsi 10 oktyabr tarixində başlayıb. O zaman İsrail və HƏMAS arasında atəşkəs sazişi qüvvəyə minib və sağ qalmış israilli girovlar fələstinli məhbuslarla dəyişdirilib. BMT-də ABŞ-ın səfiri Maykl Uolts bu mərhələni "çox kövrək, ilk addım" kimi xarakterizə edib.

Beynəlxalq hərbi qüvvələrdən əlavə, Qəzzada beynəlxalq Sülh Şurası yaradılmalı və bu quruma şəxsən Donald Tramp rəhbərlik etməlidir. BMT Təhlükəsizlik Şurasının qətnaməsi Qəzzanın bərpasının maliyyələşdirilməsi mexanizmini də təsdiqləyir. Bu işə Dünya Bankının təminatı altında fəaliyyət göstərəcək xüsusi trast fondu nəzarət edəcək.

Ancaq Rusiya və Çin qətnaməni tənqid edib. Hər iki ölkə bildirib ki, sənəddə əsas mexanizmlərin necə qurulacağı aydın deyil, BMT-nin prosesdə rolu təmin olunmur və sənəddə "iki xalq üçün iki dövlət" prinsipinə sadiqlik açıq şəkildə təsbit edilməyib.

Bununla belə, Donald Tramp "Truth Social" platformasında səsvermənin nəticələrini alqışlayıb: "Bugünkü qətnamə sabit Qəzzaya doğru daha bir əhəmiyyətli addımdır. O, çiçəklənə biləcək, İsrailin təhlükəsiz yaşayışına imkan verən şərait yaradacaq!".

Təklifdə hələ də müstəqil dövlətin yaradılması üçün müddətlər və zəmanətlər göstərilməyib və bunun Qəzzanın bərpası və hazırda İordan çayının qərb sahilinin bir hissəsini idarə edən Fələstin Muxtariyyətində (FM) islahatlar aparıldıqdan sonra mümkün olacağı qeyd edilir.

***Səbuhi MƏMMƏDOV***
***XQ***


## "Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının balansındakı bəzi əmlakların müsabiqə yolu ilə satışının keçirilməsi barədə elan

*Müsabiqəyə çıxarılan əmlaklar barədə məlumat*

**1.** Bakı şəhəri, Binəqədi rayonu, M.Ə.Rəsulzadə qəsəbəsi, Baksol ərazisi, 1-ci döngə, 3-cü dalan, 12 nömrəli ünvanda, 0,01319 hektar torpaq sahəsində yerləşən 431,8 kv.m sahədən ibarət fərdi yaşayış evi. Əmlak yüklü deyil.

**Start qiymət - 259.000,0 (iki yüz əlli doqquz min manat) manat.**

**2.** Bakı şəhəri, Xətai rayonu, 2944a nömrəli məhəllə, Xudu Məmmədov küçəsi, A-1A nömrəli ünvanda 0,06206 hektar torpaq sahəsində yerləşən 1 790 kv.m qeyri-yaşayış binası (yarımçıq tikili). Əmlak yüklü deyil.

**Start qiymət - 1.106.000,0 (bir milyon yüz altı min manat) manat.**

**3.** İmişli rayonunda yerləşən 2 ədəd əmlak kompleksi kimi müəssisə (8,5 hektar torpaq sahəsində yerləşən ümumi sahəsi 21,675.00 kv.m və 1.23 hektar torpaq sahəsində yerləşən ümumi sahəsi 12,054.90 kv.m tikili) və 8 çıxarışdan ibarət ümumi sahəsi 7,4 hektar kənd təsərrüfatı təyinatlı torpaq sahələri (quşçuluq kompleksi). Əmlak yüklü deyil.

**Start qiymət - 8.074.000,0 (səkkiz milyon yetmiş dörd min manat) manat.**

**4.** Bakı şəhəri, Nərimanov rayonu, Əliyar Əliyev küçəsi, 3-cü korpus, 65 nömrəli ünvanda yerləşən 121.6 kv.m sahədən ibarət qeyri-yaşayış sahəsi. Əmlak yüklü deyil.

**Start qiymət –** 279.680,0 **(iki yüz yetmiş doqquz min, altı yüz səksən manat) manat.**

**5.** Bakı şəhəri, Nərimanov rayonu, Əliyar Əliyev küçəsi, 3-cü korpus, 65 nömrəli ünvanda yerləşən 108.5 kv.m sahədən ibarət qeyri-yaşayış sahəsi. Əmlak yüklü deyil.

**Start qiymət – 260.400,0 (iki yüz altmış min, dörd yüz manat) manat.**

**6.** Bakı şəhəri, Nərimanov rayonu, Əliyar Əliyev küçəsi, 3-cü korpus, 65 nömrəli ünvanda yerləşən 112.0 kv.m sahədən ibarət qeyri-yaşayış sahəsi. Əmlak yüklü deyil.

**Start qiymət – 268.800,0 (iki yüz altmış səkkiz min, səkkiz yüz manat) manat.**

**7.** Bakı şəhəri, Nərimanov rayonu, Əliyar Əliyev küçəsi, 3-cü korpus, 65 nömrəli ünvanda yerləşən 62.2 kv.m sahədən ibarət qeyri-yaşayış sahəsi. Əmlak yüklü deyil.

**Start qiymət – 149.280,0 (bir yüz qırx doqquz min iki yüz səksən manat) manat.**

**8.** Bakı şəhəri, Nərimanov rayonu, Əliyar Əliyev küçəsi, 3-cü korpus, 65 nömrəli ünvanda yerləşən 34.0 kv.m sahədən ibarət qeyri-yaşayış sahəsi. Əmlak yüklü deyil.

**Start qiymət – 81.600,0 (səksən bir min altı yüz manat) manat.**

**9.** Bakı şəhəri, Nərimanov rayonu, Əliyar Əliyev küçəsi, 3-cü korpus, 65 nömrəli ünvanda yerləşən 61.2 kv.m sahədən ibarət qeyri-yaşayış sahəsi. Əmlak yüklü deyil.

**Start qiymət – 146.880,0 (bir yüz qırx altı min səkkiz yüz səksən manat) manat.**

**10.** Bakı şəhəri, Nərimanov rayonu, Əliyar Əliyev küçəsi, giriş, 201C nömrəli ünvanda yerləşən 242.3 kv.m sahədən ibarət qeyri-yaşayış sahəsi. Əmlak yüklü deyil.

**Start qiymət - 557.290,0 (beş yüz əlli yeddi min iki yüz doxsan manat) manat.**

**11.** Bakı şəhəri, Nərimanov rayonu, Əliyar Əliyev küçəsi, giriş, 195X nömrəli ünvanda yerləşən 60.9 kv.m sahədən ibarət qeyri-yaşayış sahəsi. Əmlak yüklü deyil.

**Start qiymət – 146.160,0 (bir yüz qırx altı min bir yüz altmış manat) manat.**

**12.** Bakı şəhəri, Nərimanov rayonu, Əliyar Əliyev küçəsi, giriş 197B ünvanında yerləşən 214.8 kv.m sahədən ibarət qeyri yaşayış-sahəsi. Əmlak yüklü deyil.

**Start qiymət – 494.040,0 (dörd yüz doxsan dörd min qırx manat) manat.**

**13.** Bakı şəhəri, Nərimanov rayonu, Əliyar Əliyev küçəsi, giriş, 197A nömrəli ünvanda yerləşən 164.7 kv.m sahədən ibarət qeyri-yaşayış sahəsi. Əmlak yüklü deyil.

**Start qiymət – 378.810,0 (üç yüz yetmiş səkkiz min, səkkiz yüz on manat) manat.**

**14.** Bakı şəhəri, Nərimanov rayonu, Əliyar Əliyev küçəsi, giriş, 195G nömrəli ünvanda yerləşən 244.1 kv.m sahədən ibarət qeyri-yaşayış sahəsi. Əmlak yüklü deyil.

**Start qiymət – 549.225,0 (beş yüz qırx doqquz min iki yüz iyirmi beş manat) manat.**

**15.** Bakı şəhəri, Nərimanov rayonu, Əliyar Əliyev küçəsi, giriş, 195H nömrəli ünvanda yerləşən 347.2 kv.m sahədən ibarət qeyri-yaşayış sahəsi. Əmlak yüklü deyil.

**Start qiymət – 746.480,0 (yeddi yüz qırx altı min, dörd yüz səksən manat) manat.**

**16.** Bakı şəhəri, Nərimanov rayonu, Əliyar Əliyev küçəsi, giriş 1,99E nömrəli ünvanda yerləşən 48.5 kv.m sahədən ibarət qeyri-yaşayış sahəsi. Əmlak yüklü deyil.

**Start qiymət – 116.400,0 (bir yüz on altı min, dörd yüz manat) manat.**

**17.** Bakı şəhəri, Nərimanov rayonu, Əliyar Əliyev küçəsi, giriş, 199C nömrəli ünvanda yerləşən 51.0 kv.m sahədən ibarət qeyri-yaşayış sahəsi. Əmlak yüklü deyil.

**Start qiymət – 122.400,0 (bir yüz iyirmi iki min, dörd yüz manat) manat.**

**18.** Bakı şəhəri, Nərimanov rayonu, Əliyar Əliyev küçəsi, giriş, 199B nömrəli ünvanda yerləşən 61.7 kv.m sahədən ibarət qeyri-yaşayış sahəsi. Əmlak yüklü deyil.

**Start qiymət – 148.080,0 (bir yüz qırx səkkiz min, səksən manat) manat.**

**19.** Bakı şəhəri, Nərimanov rayonu, Əliyar Əliyev küçəsi, giriş 199D nömrəli ünvanda yerləşən 68.6 kv.m sahədən ibarət qeyri-yaşayış sahəsi. Əmlak yüklü deyil.

**Start qiymət – 164.640,0 (bir yüz altmış dörd min, altı yüz qırx manat) manat.**

***Ərizələrin qəbulunun başlanma və bitmə tarixi: 19 noyabr 2025-ci il, saat 10:00 – 19 dekabr 2025-ci il saat 16:00.***

***Müsabiqə qalibinin müəyyən edilməsi tarixi və saatı:*** *24 dekabr 2025-ci il saat 16.00.*

**Müsabiqənin keçirildiyi ünvan:** Azərbaycan Respublikası Maliyyə Nazirliyi, AZ-1022 Bakı şəhəri, Nəsimi rayonu, S.Vurğun küçəsi 135.

**Əmlakla, onun növü və parametrləri ilə bağlı sənədlərlə tanış olmaq qaydası və müddəti:** 19 noyabr 2025-ci il tarixdən 19 dekabr 2025-ci il tarixədək, həftənin 3 və 5-ci günləri, "Aqrarkredit" QSC-nin baş ofisində, Bakı şəhəri, Yasamal rayonu, Qədirli küçəsi 125 nömrəli ünvanda baxılmalıdır.

**Əlaqələndirici şəxs:** Şahin Seyidov.

**Telefon:** 050-235-99-90.

**İddiaçılar qarşısında irəli sürülən şərtlər**

**1.** İddiaçı tərəfindən əmlakın elan olunan ilkin satış dəyərinin 0,5 faizi həcmində beh məbləği ödənilməlidir. Müsabiqənin qalibi hər hansı səbəbdən əmlakı almaqdan imtina etdiyi halda onun tərəfindən ödənilmiş beh məbləği geri qaytarılmır.

**2.** İddiaçılar tərəfindən təqdim edilmiş təklifdə əmlak üçün təklif olunan məbləğ aydın şəkildə rəqəmlə və Azərbaycan dilində sözlə yazılmalı, iddiaçılar və ya onların etibarnamə ilə nümayəndələri tərəfindən imzalanmalıdır. Sözlə rəqəm arasında fərq aşkar edildikdə, sözlə ifadə olunmuş yazı əsas götürülür. Təklif müsabiqənin keçirilməsi haqqında məlumatda göstərilən müddət ərzində imzalanmış (hüquqi şəxsdirsə, möhürlənmiş) qapalı zərfdə "Aqrarkredit" QSC-yə təqdim edilməlidir.

**3.** Bir iddiaçı müsabiqədə iştirak etmək üçün yalnız bir ərizə verə bilər. İddiaçı müsabiqə komissiyasına yazılı bildiriş verməklə ərizələrin qəbulu müddəti bitənədək ərizəsini geri götürə bilər.

**4.** Müsabiqə günü iddiaçı və ya onun etibarnamə ilə nümayəndəsi müsabiqədə iştirak etməlidir. Təqdim edilmiş zərflər iddiaçılar və ya onların etibarnamə ilə nümayəndəsinin iştirakı ilə açılır.

**5.** Müsabiqə zamanı əmlakın start qiymətindən ən yüksək qiymət təklif etmiş iddiaçı müsabiqənin qalibi elan olunur. İddiaçılar tərəfindən təqdim edilmiş təkliflər eyni məbləğ olduqda həmin iddiaçılar əmlak üçün təklif olunan məbləği göstərməklə yenidən təklif təqdim edirlər. Bu zaman da təklif məbləğləri eyni olduqda proses fərqli təklif olanadək davam etdirilir. Yenidən təklif verməkdən imtina edən iddiaçı müsabiqədə iştirak etmir.

**6.** Müsabiqənin qalibi əmlakın dəyərinin 30 (otuz) bank günü ərzində tam ödənilməsini təmin etmək barədə yazılı zəmanət verməlidir.

**Müsabiqədə iştirak etmək üçün tələb olunan sənədlər**

**1.** İddiaçının ərizəsi (ərizə forması "Aqrarkredit" QSC tərəfindən veriləcək).

**2.** İddiaçının şəxsiyyətini təsdiq edən sənəd.

**3.** Təklif olunan qiymət (bağlı zərfdə rəqəmlə və sözlə göstərilməklə).

**4.** İddiaçı tərəfindən ödənilmiş beh məbləğini təsdiq edən qəbz.

**5.** Etibarnamə (nümayəndə iştirak etdikdə).

**Qeyd -** iddiaçı hüquqi şəxs olduqda–(dövlət qeydiyyatı haqqında şəhadətnamə, nizamnamə, qanuni təmsilçinin və ya nümayəndənin şəxsiyyətini təsdiq edən sənəd (surəti).

**Beh ödənilməsi üçün bank revizitləri**
Kod - 501587
VÖEN - 1300025711
SWIFT BIC - ACJTAZ22
Ünvan - Bakı şəhəri, AZ 1006, Qədirli küçəsi 125.
M/h - Mərkəzi Bankda- AZ45NABZ 01350 1000 000 000 35944
H/h - AZ67ACJT45019192794010094401



Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

## Azərbaycan Memarlıq və İnşaat Universiteti

*aşağıdakı vəzifələri tutmaq üçün*

MÜSABİQƏ ELAN EDİR

| № | Kafedranın adı | Vəzifə |
|---|---|---|
| 1. | Memarlıq layihələndirilməsi və şəhərsalma kafedrası | dosent 0,5 ştat – 2 yer<br>baş müəllim - 2 yer |
| 2. | İnşaat konstruksiyaları kafedrası | dosent 0,5 ştat – 1 yer |
| 3. | Mexanika kafedrası | dosent – 1 yer |
| 4. | Materialşünaslıq kafedrası | dosent – 1 yer |
| 5. | Meliorasiya və su təsərrüfatı tikintisi kafedrası | dosent – 2 yer |
| 6. | Mühəndis sistemləri və qurğularının tikintisi kafedrası | dosent 0,5 ştat – 1 yer |

**Müsabiqədə iştirak etmək üçün sənədlər mövcud əsasnaməyə uyğun olaraq, bu elan dərc olunduğu gündən 1 ay müddətinə qəbul edilir.**
**Ünvan: AZ-1073, Bakı şəhəri, Ayna Sultanova küçəsi 11, AzMİU.**
**Elektron poçt ünvanı: info@azmiu.edu.az**
**Telefon: (+994 12) 539-10-45.**

***Rektorluq***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 245 (30939) 19 noyabr 2025-ci il, çərşənbə

## İDMAN

### Qılıncoynadanlarımızın 2 bürüncü

**Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyad şəhərində keçirilən VI İslam Həmrəyliyi Oyunlarında qılıncoynatma üzrə yarışlara start verilib. İlk yarış günündə qılıncoynatmanın sablya növü üzrə qadınların və şpaqa növü üzrə kişilərin şəxsi yarışında mükafatçılar müəyyənləşib.**



Sablya növündə qadınların şəxsi yarışında Palina Kaspiaroviç, şpaqada kişilərin şəxsi yarışında isə Vahab Fətullayev bürünc medal qazanıblar!

Qrup mərhələsini 4 qələbə ilə başa vuran Vahab yarımfinala gedən yolda Qətər və Qırğızıstan qılıncoynadanlarını mübarizədən kənarlaşdırıb. Şpaqaçımız finalın bir addımlığında özbəkistanlı Javokhirbek Nurmatova 11:15 hesabı ilə uduzub.

Qrup mərhələsini 4 qələbə ilə bitirən Palina Kaspiaroviç qadın sablyaçıların şəxsi yarışında 1/4 finalda Türkiyə təmsilçisinə qalib gəlib. Palina gərgin mübarizə şəraitində keçən yarımfinal görüşündə Özbəkistan sablyaçısı Gülistan Perdebaevaya 12:15 hesabı ilə uduzub.

### 1 idmançımızın 4 medalı

**Səudiyyə Ərəbistanında təşkil olunan VI İslam Həmrəyliyi Oyunlarında atletika yarışlarına da start verilib.**



Milli komandamızın üzvlərindən ilk olaraq Yekaterina Sariyeva mübarizəyə qoşulub. Üç təkanla tullanma növündə mübarizə aparan atletimiz uğurlu çıxışla yadda qalıb. Sariyevanın ən yaxşı göstəricisi 13,84 metr olub. Bu nəticə ilə Yekaterina mötəbər yarışda bürünc medala sahib çıxıb. Qeyd edək ki, bu, idmançımızın İslam Həmrəyliyi Oyunlarında 4-cü medalıdır. Sariyeva 2013-cü ildə Palembanqda qızıl, 2021-ci ildə Konyada gümüş, 2017-ci ildə Bakıda bürünc medal qazanmışdı.

### Həsrət Cəfərovun İslamiada gümüşü

**Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyadda keçirilən İslam Həmrəyliyi Oyunlarında güləş yarışına start verilib.**



Dünən yunan-Roma güləşçimiz Həsrət Cəfərov (67 kq) final görüşündə iranlı olimpiya və dünya çempionu Səid Esmaili ilə qarşılaşıb. Həmyerlimiz ilk hissəni 3:0 hesablı üstünlüklə başa vurub. Ancaq görüşün bitməsinə 4 saniyə qalmış rəqibin fəndinin qarşını ala bilməyən güləşçimiz yekunda 3:8 hesabı ilə məğlub olub və İslam Həmrəyliyi Oyunlarında gümüş medal qazanıb.

Nihat Məmmədli (60 kq), Ülvü Qənizadə (77 kq) və İslam Abbasov (87 kq) yarışları medalsız başa vurublar.

*Qabil YUSİFOĞLU*
*XQ*

*19 Noyabr Beynəlxalq Kişilər Günüdür*

# Kişilərin kişilik dünyası

**Təqvim bizə belə bir gün olduğunu da xatırladır: noyabrın 19-u Beynəlxalq Kişilər Günüdür. Onu ilk dəfə 1999-cu ildə Trinidad və Tobaqo adasında (Karib dənizi adaları) qeyd etməyə başlayıblar. Daha sonra Avstraliya, Karib dənizi ölkələri, Şimali Amerika, Asiya, Avropa və Afrika ölkələri də bu hərəkata qoşulub və indi dünyanın 60-dan çox ölkəsi bu günü qeyd edir.**

Bu günün qeyd olunmasında məqsəd kişilərin sağlamlıq məsələlərinə köklənmək, genderlərarası münasibəti təkmilləşdirmək, müsbət kişi rolu modelini vurğulamaqdır. Bu, kişilərə qarşı olan ayrı-seçkiliyi nəzərə çatdırmaq və onların cəmiyyət, ailə, evlilik və uşaqların tərbiyəsindəki töhfələrini və nailiyyətlərini qeyd etmək üçün bir təşəbbüsdür. Məqsəd insani dəyərləri önə çəkməkdir.

Kişidi bu! Bu sözü ilk dəfə nə vaxt eşitmişik? Ağlımızın kəsməyən vaxtı gözümüzü həyat darvazasının qapısına zilləyib atamızın içəri daxil olanda üstünə yüyürəndəmi? O da əyilib üzümüzdən öpüb sonra başının üstünə qaldırıb "kişi qırığı" deyəndəmi? Yoxsa babamız saçımızı sığallayıb başı üzərində qaldırandamı? Nə vaxt bu sözü eşitmişiksə, qürrələnmişik, başımızı dik, qəddimizi şax tutmuşuq, ürəyimiz təpərlənib.

İllər keçib, zaman ötüb və böyüdükcə bu sözün məsuliyyətini, yükünü, ağırlığını hiss etdikcə, ata-babalarımızın niyə bizi bu sözlə oxşadığını anlamağa, başa düşməyə başlamışıq.

El arasında "hər başı papaqlıya kişi deməzlər" ifadəsi var. Doğrudan belədir. Papaq qoyan da, kişilikdən dəm vuran da, özünü kişi hesab edən də çoxdur. Amma hanı bu dəyəri ata-babalarımız kimi yaşadanlar?

**Ot kökü üstündə bitər binadan,**
**Hər pələng pişiyə oxşamır axı?**
**Kişi də doğulur çoxu anadan,**
**Ömrünü kişi tək yaşamır axı?**

...Bir dəfə Mircəfər Bağırova deyiblər ki, Ağdam rayonuna katib qoymaq lazımdır. Deyib ki, gedin qoyun də, bundan asan nə var? Soruşublar ki, axı kimi qoyaq? Deyib ki, Ağdamda Məşədi Abbasın tikdirdiyi mədəniyyət evi var. Hər gün onun qarşısında on-on beş nəfər başı papaqlı kişi dayanıb söhbət edir. Onların hansı birinin qolundan tutsaz, bu işin öhdəsindən məharətlə gələr.

Olubmu, olmayıbmı, həqiqətdirmi, uydurmadırmı, demək çətindir. Amma köhnə kişilər belə idilər. İndi söz düşəndə deyirlər ki, hanı o kişilər, yaxşı atlara minib getdilər.

Amma yox, getməyib o kişilər. Bu gün də bizim kəndlərdə, rayonlarda, şəhərlərdə, ətrafımızda kifayət qədər belə kişilər var, həmin o köhnə kişilərin ləyaqətli övladları, nəvə-nəticələri var. Əgər belə olmasaydı, onda o kişilərin vətən, yurd, torpaq təəssübü çəkən övladları 2016-cı ilin dördgünlük Aprel döyüşlərində düşmənin dizini yerə gətirməzdilər. Əgər belə olmasaydı, Vətən müharibəsində silaha sarılan oğlanlar "dəmir yumruq" ətrafında birləşərək el-oba qarşısında verdikləri kişi sözünə belə rəşadət və sücaətlə əməl etməzdilər. Oğullar onda kişi kimi döyüşdülər, ölümün üstünə kişi kimi getdilər, düşməni kişi kimi məğlub etdilər, kişi kimi qalib gəldilər və kişi kimi də ölümsüzlük qazandılar.

**Kişilər var idi, köçüb getdilər,**
**Onların məzarı indi and yeri.**
**Kişilər var idi, keçib getdilər**
**Qaldı qanımızda kişilikləri.**

Sonda bildirək ki, Beynəlxalq Qadınlar Gününün qeyd olunduğunu söyləyənlər qoy Kişilər Gününün də varlığından xəbər tutsunlar. Amma qədəh-qədəhə tutuşdurmaqla yox, xeyirxah, xoş, savab əməllərlə, kişi kimi görülən işlə! Yaxşı kişilərin



azlığından, hətta qəhətə çəkildiyindən çox gileylənirik, amma məqam gələndə kişi kimi hərəkət edən, kişilik nümayiş etdirənlər də var axı...

**Mərd namərd önündə əsməz deyiblər,**
**Meydanda təklənib yalqız qalanda.**
**Kişi yıxdığını kəsməz deyiblər,**
**Yıxılan özü də kişi olanda.**

Köhnə kişilərdən, kişilikdən, kişi ləyaqətindən çox danışmaq olar. Amma danışmaqdansa bunu göstərmək, nümayiş etdirmək lazımdır. Bəlkə, elə Kişilər Günündən başlayaraq...

*Süleyman QARADAĞLI*

# Sənayedə yeni era

*Dünyada insanabənzər robotların ilk kütləvi tədarükü başladı*



**Çinin Şenjen şəhərində dünya robototexnikası üçün əhəmiyyətli bir hadisə baş verib. UBTech Robotics şirkəti yüzlərlə insanabənzər Walker S2 robotunun fəaliyyətdə olan sənaye müəssisələrinə göndərildiyini elan edib. Şirkətin məlumatına görə, istehsal noyabrın ortalarında sürətlənib və ilk partiya artıq quraşdırma xətlərində əlavə işçi qüvvəsinə ehtiyacı olan tərəfdaşlara çatdırılıb. UBTech bu hadisəni humanoidlərin həqiqətən geniş miqyasda həyata keçirilən ilk tədarükü adlandırır.**

İnsanabənzər robotların kütləvi şəkildə sənayeyə inteqrasiyası istehsal və logistika sahəsində köklü dəyişikliklər vəd edir. Ən böyük sifarişçilər arasında avtomobil sənayesinin nəhəngləri – BYD, Geely Auto, FAW-Volkswagen və Dongfeng Liuzhou Motor kimi şirkətlər var. Bu təşkilatlar operatorların daimi müdaxiləsi olmadan stabil, 24 saatlıq fasiləsiz proseslərə nail olmağa çalışırlar. İlk sınaqlar göstərir ki, robotlar yalnız laboratoriya şəraitində deyil, fabriklərdə və anbarlarda da uğurla işləyirlər. Bu, sadəcə, avtomatlaşdırılmış qolların və ya mobil platformaların yerləşdirilməsindən daha çoxunu ifadə edir. İnsanabənzər robotlar insanların çalışdığı mövcud infrastruktur və iş mühitinə daha asanlıqla uyğunlaşa bilər və əvvəllər yalnız insanlara məxsus olan daha mürəkkəb manipulyasiyaları yerinə yetirmək potensialına malikdir. Bu, xüsusilə dəyişən istehsal ehtiyaclarına çevik cavab verə bilən sənaye sahələri üçün kritik əhəmiyyət kəsb edir.

UBTech şirkəti Walker S2-nin ən güclü tərəflərindən biri kimi akkumulyator sistemini qeyd edir. Robot insan müdaxiləsinə ehtiyac duymadan, cəmi bir neçə dəqiqə ərzində öz akkumulyator blokunu müstəqil şəkildə çıxarıb dəyişdirməyə qadirdir. Bu funksiya robotun fasilə vaxtını azaldır və daimi yerimə və yüklərin daşınması ilə uzun iş növbələrini yerinə yetirməyə imkan verir. Bu cür avtonom enerji idarəetməsi robotların işçi qüvvəsinə inteqrasiyasını əhəmiyyətli dərəcədə sadələşdirir və onların sənaye proseslərinə daha effektiv daxil olmasını təmin edir.

İnsanabənzər robotların kütləvi tədarükü, təkcə avtomobil sənayesində deyil, digər sahələrdə də geniş tətbiqolunma potensialına malikdir. Robotların monoton və təkrarlanan işləri öz üzərinə götürməsi insanların daha mürəkkəb, yaradıcı və yüksək ixtisas tələb edən vəzifələrə yönəlməsinə şərait yaradacaq. Eyni zamanda, fasiləsiz işləmə qabiliyyəti sayəsində istehsalın effektivliyi artacaq və uzunmüddətli perspektivdə istehsal xərclərinin optimallaşdırılmasına gətirib çıxaracaq. UBTech Robotics-in Walker S2 robotlarının kütləvi tədarükü sənayenin dördüncü inqilabı çərçivəsində robototexnika sahəsində atılan mühüm bir addımdır. Bu, insanabənzər robotların yalnız elmi fantastika deyil, real sənaye işçi qüvvəsinə çevrildiyi bir dövrün başlanğıcını qeyd edir və gələcəkdə istehsal proseslərinin, işçi qüvvəsinin və bütövlükdə cəmiyyətin necə formalaşacağını müəyyənləşdirəcək.

Bir sözlə, əgər bu robotlar real istehsal şəraitində gözləntiləri doğruldarsa, bu, avtomatlaşmanın yalnız xüsusi xətlərdə deyil, bütün iş mühitində tətbiq olunmasına imkan verən texnoloji kəskin dəyişiklik olacaq. Bu dəyişiklik iqtisadi artımı sürətləndirəcək, lakin, eyni zamanda, qlobal miqyasda işçi qüvvəsinin təhsil və ixtisaslaşmasına dair yeni strategiyalar tələb edəcək.

*S.ELAY*
*XQ*

## HAVA

# Yağmursuz bir payız çərşənbəsi...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim cənub-qərb küləyi əsəcək. Havanın temperaturu gecə 10-14, gündüz 17-22 dərəcə isti olacaq. Atmosfer təzyiqi normadan yüksək - 768 millimetr civə sütunu, nisbi rütubət gecə 80-85, gündüz 70-75 faiz təşkil edəcək.**



Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 7-11, gündüz 17-21, dağlarda gecə 0-4, gündüz 7-12 dərəcə isti olacağı bildirilir.

*Q.ƏLİYEV*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi 1 nömrəli Bakı Tibb Kollecinin direktoru Nailə Əliyeva və kollecin kollektivi Azərbaycan Respublikası səhiyyə nazirinin müavini İlqar Qasımova anası

**VALİDƏ QASIMOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin rəhbərliyi və kollektivi komitə sədrinin müavini Dövlətxan Dövlətxanova atası

**FAMİL DÖVLƏTXANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Şirvan şəhərindən İlqar Abbasov Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin müavini Dövlətxan Dövlətxanova atası

**FAMİL DÖVLƏTXANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3481
SİFARİŞ 2323
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV
Çapa imzalanmışdır 00:00